RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 214 (9959) 5 oktyabr 2025-ci il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Yüksək nüfuza malik lideri olan dövlət






## Dünya Azərbaycanı belə tanıyır

Azərbaycanı dünyaya tanıdan ən mühüm faktorlardan biri respublikamızın hər zaman tərəfdaşlığa sadiq olması, dünyada və regionda əməkdaşlığın daha da inkişafına xidmət edən tədbirləri həyata keçirməsidir. Dövlətimizin başçısının iştirak etdiyi beynəlxalq tədbirlərin, o cümlədən ayrı-ayrı dövlət başçılarının ölkəmizə səfərlərinin də ortaya qoyduğu ən böyük həqiqətlərdən biri Azərbaycanın etibarlı tərəfdaş kimi tanınması və əməkdaşlığa verdiyi töhfələrdir.

Bu baxımdan respublikamızın təşəbbüsü ilə reallaşan enerji layihələrini xüsusi qeyd etmək lazımdır. Bu layihələr regionda və Avropada ayrı-ayrı dövlətlərin enerji təhlükəsizliklərini təmin etməklə yanaşı, onlar arasındakı siyasi əlaqələri və müxtəlif sahələrdəki əməkdaşlığı da gücləndirir. Cənubi Qafqazdan Avropaya qədər uzanan bu enerji dəhlizi öz ətrafında Azərbaycan, Türkiyə, Gürcüstan, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya, Rumıniya, Macarıstan kimi dövlətləri, o cümlədən Avropa İttifaqını birləşdirir. Bu da onu göstərir ki, Azərbaycan "Cənub qaz dəhlizi" kimi nəhəng bir enerji infrastrukturunun müəllifinə çevrilməklə yanaşı, həm də beynəlxalq əməkdaşlığın unikal bir modelini təqdim edib. "Uzunluğu 3500 kilometr olan inteqrasiya edilmiş boru kəməri sistemi olan bu layihə enerji təhlükəsizliyi və əməkdaşlıq layihəsidir. Çünki "Cənub qaz dəhlizi"nin keçdiyi marşrut boyunca yerləşən bütün ölkələr arasında əməkdaşlıq olmasa, bu layihənin həyata keçirilməsi mümkün olmazdı", - deyə Prezident İlham Əliyev bildirib.

2

## Azərbaycanın qlobal siyasi proseslərə təsir imkanları daha da genişlənir



Dünyanın nüfuzlu ölkələrinin liderlərinin təmsil olunduğu tədbirdə Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın dəvəti ilə Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edib. Dövlətimizin başçısının tədbirə dəvəti və qarşı tərəflərin müraciətləri əsasında keçirdiyi çoxsaylı görüşlər beynəlxalq miqyasda Azərbaycanın artan nüfuzunun göstəricisidir. Eyni zamanda bu, Prezident İlham Əliyevin dünya liderləri arasında nüfuz, söz sahibi olmasının, ona göstərilən böyük hörmət və etimadın göstəricisidir. Azərbaycan təkcə qitənin enerji təhlükəsizliyində mühüm rol oynamır, eyni zamanda Avropa İttifaqının gələcəyi ilə bağlı müzakirələrdə mövqeyinə önəm verilən ölkədir. Ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən Azərbaycanın dünyada nüfuzu artmaqla yanaşı, qlobal siyasi proseslərə təsir imkanları da genişlənib. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan etibarlı tərəfdaşa, regionda, dünyada söz sahibi olan dövlətə çevrilib. Bu siyasətin nəticəsində hazırda dünyada elə bir nüfuzlu beynəlxalq tədbir yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərdə iştirak etməsin, müasir dövrün çağırışları, mövcud problemlərin həlli yolları barədə fikirləri öyrənilməsin.

2

## İlham Əliyevin enerji siyasəti Azərbaycanı Avropa İttifaqının etibarlı tərəfdaşına çevirib



Prezident İlham Əliyevin Kopenhagendə Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen ilə görüşünü xatırlayaq. Görüşdə Antonio Koşta və Ursula fon der Lyayen dövlətimizin başçısını Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbrik ediblər, sülhün dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəklərini bildiriblər. Onlar həmçinin regionda nəqliyyat bağlantılarının inkişafının Avropa İttifaqı üçün mühüm istiqamət olduğunu deyiblər. Eləcə də Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı rola toxunulub. 2022-ci ildə Aİ ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair əldə edilmiş razılaşmaya uyğun olaraq ölkəmizin qoca qitənin qaz bazarına ixracının həcminin artdığı bildirilib.

"Həqiqətən, siz bizim üçün mühüm enerji tərəfdaşısınız. Siz təkcə təchizat təhlükəsizliyi sahəsində deyil, həmçinin iqlim neytrallığı sahəsində də hər zaman etibarlı olmusunuz". Bu sözləri Ursula fon der Lyayen 2022-ci il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalandıqdan sonra mətbuata bəyanatında demişdi.

6

## 44 günlük Vətən müharibəsi



## Düz 5 il əvvəl həmin gün

5

# Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin əməkhaqlarının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin Vahid Tarif Cədvəli ilə müəyyən olunmuş tarif (vəzifə) maaşlarına 1,5-3 dəfə artım əmsalları tətbiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə müəyyən edilən artım əmsallarının şamil olunacağı işçilərin əhatə dairəsini və görülən işin xüsusiyyətindən asılı olaraq miqdarını müəyyən etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncamın 1-ci hissəsi 2025-ci il avqustun 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2025-ci il*

# 2025-2026-cı tədris ilində Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq,"Azərbaycan Respublikası ali təhsil müəssisələrinin tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. 2025-2026-cı tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abdıyeva Ayla Rəşad qızı
Abdullayeva Ayan Seymur qızı
Abdullayeva Məryəm İlqar qızı
Abdulsəmədli Orxan Fəxri oğlu
Abdurahmanova Guhat Məzahir qızı
Ağaməmmədova Zeynəb Zaur qızı
Ağayev Əliəkbər Xanağa oğlu
Alızadə Ziya Müşviq oğlu
Allahyarlı Fərid Zaur oğlu
Babarabov Nicat Rasim oğlu
Babaşlı Aysel Əlsaab qızı
Babayev Anar Qurban oğlu
Babayeva Cəmilə Şahin qızı
Bağırov Raul Salman oğlu
Baxşəliyeva Aytac Ənvər qızı
Bayramzadə Günay Rüfət qızı
Bəxtiyarova Röyalə Nemət qızı
Cəfərova Sehrin Mahmud qızı
Cənnətov Fuad Əlikram oğlu
Əfəndi Zəhra Fikrət qızı
Əhməd Aişə İlqar qızı
Əhmədzadə Ləman Vüqar qızı
Əkbərov Elcan Vüsal oğlu
Əkbərova Nigar Murad qızı
Əlili Müşfiq Aqil oğlu
Əliyeva Fidan Ayaz qızı
Əliyeva Nəzrin Şahin qızı
Əliyeva Tamella İlkin qızı
Əlizadə Sevinc Rizvan qızı
Əlizadə Sürəyya Münasib qızı
Ənsərli Gülər Akif qızı
Əsgər İlham Xəyyam oğlu
Əzizli Səma Zöhrab qızı
Fərəczadə Rəhim Dəyanət oğlu
Hacıyeva Nərmin Ramin qızı
Hacızadə Nihad Vüqar oğlu
Haqverdi İlham Məhəmməd oğlu
Həbibullazadə Gülay Vüsal qızı
Həlim Aydan Ülfət qızı
Həsənli Osman Rahim oğlu
Həsənov Fizuli İlqar oğlu
Həşimov Çingiz Seymur oğlu
Hümmətli Çiçək Hümmət qızı
Hüseynli Arif Pərviz oğlu
Hüseynli Enes Şikar oğlu
Hüseynova Aysu Elçin qızı
Xəlilova Aylin Rauf qızı
İbrahimli Gülay Calal qızı
İbrahimov Emin Anar oğlu
İbrahimov Əli Ruslan oğlu
İsmayılov Alı Vəfadar oğlu
İsmayılov Altay Xəyyam oğlu
İsmayılova Səma Firəddin qızı
İsmayılzadə Xədicə Xaliq qızı
Kərimov Rəcəb Ramin oğlu
Qarayev Rəfail Yusif oğlu
Qəribov Şükran Yalçın oğlu
Qoşqarov Müzəffər Qədir oğlu
Quluzadə Nəzrin Nail qızı
Qurbanlı Kəmaləddin Əmirəddin oğlu
Qurbanov Mürsəl Hacı oğlu
Mahmudova Səmra Xaqani qızı
Mansurov Eldar Ramiz oğlu
Məmmədli Mehri Rüfət qızı
Məmmədov Əbülhəsən Brilyant oğlu
Məmmədov İsmayıl Zahir oğlu
Məmmədov Şahin İmran oğlu
Məmmədova Fidan Əbülfəz qızı
Məmmədova Məryəm Emin qızı
Məmmədova Nəzrin Rahib qızı
Mirzəzadə Gündüz Fariz oğlu
Muradlı Adil Sübhi oğlu
Muradlı Nuray Balay qızı
Musayev Şahin Elçin oğlu
Musazadə Səməd Nail oğlu
Mustafayev İbrahim Ağa oğlu
Mustafayeva Emiliya Akif qızı
Mürşüdlü Ayxan Dilavər oğlu
Mürvətova Gülay Rəşad qızı
Nadirli Tunar Emin oğlu
Nəsirov Kamran Elnur oğlu
Nəzərzadə Zaur Ceyhun oğlu
Nurməmmədli Sona Məhəmməd qızı
Ömər Cabir Ceyhun oğlu
Ramizli Zəhra İlqar qızı
Rəhimli Oruc Coşqun oğlu
Rəhimova Xədicə Toğrul qızı
Rüstəmov Nicat Qabil oğlu
Sadıxov Nicat Seymur oğlu
Sarıyev Murad Fəxrəddin oğlu
Səfərov Yusif Vasif oğlu
Səfərova Aysel Eldəniz qızı
Səmədov Mətin Qorxmaz oğlu
Şabanova Rəyyan Zeynəddin qızı
Şamilova Vüsalə Anar qızı
Şərifli Fidan David qızı
Şirinov Röyal Şahbaz oğlu
Tahirli Zaman Zaur oğlu
Vəlizadə Aygün Tofiq qızı
Vəlizadə Babək Elçin oğlu
Yusifova Nəzrin Çingiz qızı
Zeynallı Nilufər Hidayət qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2025-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarə etməsinə verilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi, Azərbaycan Respublikası Prezidentinin "Nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan bankların və bank olmayan kredit təşkilatlarının idarə edilməsində dövlətin iştirakı qaydası haqqında" 2009-cu il 7 avqust tarixli 144 nömrəli və "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli 48 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə"2021-ci il 22 sentyabr tarixli 1448 nömrəli və "Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyətinin idarə edilməsinin təkmilləşdirilməsi haqqında" 2022-ci il 16 iyul tarixli 1752 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarə etməsinə verilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi, Azərbaycan Respublikası Prezidentinin "Nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan bankların və bank olmayan kredit təşkilatlarının idarə edilməsində dövlətin iştirakı qaydası haqqında" 2009-cu il 7 avqust tarixli 144 nömrəli və "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli 48 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 sentyabr tarixli 1448 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 988 (Cild I) 3.1-ci bəndindən "sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət" sözləri çıxarılsın.

2. "Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyətinin idarə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1752 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 741 (Cild I) 2.1-ci bəndindən "sədr də daxil olmaqla, 3 (üç) üzvdən ibarət" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2025-ci il*

*Prezident İlham Əliyev son həftələrdə bir neçə beynəlxalq tədbirdə iştirak edib. Belə ki, dövlətimizin başçısı bu müddətdə Çində Şanxay Əməkdaşlıq Təşkilatının Sammitində, ABŞ-də BMT Baş Assambleyasının 80-ci sessiyasında, Danimarkada "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak edib, müxtəlif görüşlər keçirib. Həmçinin son həftələrdə Birləşmiş Ərəb Əmirlikləri, Ruanda və İtaliyanın prezidentləri respublikamıza səfər ediblər.*




# Yüksək nüfuza malik lideri olan dövlət

## Dünya Azərbaycanı belə tanıyır

### Azərbaycanla əlaqələrin genişləndirilməsini cəlbedici edən faktorlar

Dövlətlərin və onlara rəhbərlik edən şəxslərin nüfuzu yürütdükləri siyasətin məzmunu ilə ölçülür. Bu siyasət qətiyyətli olanda həm dövlət, həm də onun lideri beynəlxalq səviyyədə ehtiramla, hörmətlə qarşılanır. Güclü liderlərin dövlətlərin taleyindəki tarixi xidmətləri barədə çoxsaylı misal göstərmək mümkündür. Çağdaş siyasətdə isə bunun ən böyük nümunələrindən biri Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti və ona göstərilən yüksək beynəlxalq ehtiramdır.

Əvvəldə qeyd etdiyimiz və hər biri mühüm siyasi hadisə olan beynəlxalq tədbirlərin ortaya qoyduğu əsas həqiqətlərdən biri Prezident İlham Əliyevin və Azərbaycan dövlətinin qlobal səviyyədə malik olduğu yüksək nüfuzdur. Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatının üzvü olmasa da, dövlətimizin başçısı Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə bu qurumun sammitində iştirak etdi. Habelə Prezident İlham Əliyevin Avropa ölkələri arasında ən yüksək səviyyədə siyasi və strateji müzakirələr üçün yaradılmış əlaqələndirmə platforması olan "Avropa Siyasi Birliyi"nin Zirvə toplantılarında iştirakı hər zaman böyük maraqla izlənilir. Dövlət başçısının regional və qlobal proseslərə baxışı, dünyanı düşündürən aktual məsələlərə dair mövqeyi həmişə diqqət mərkəzində olur. Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın dəvəti ilə iştirak etdi.

Avropadakı ümumi təhlükəsizlik vəziyyətinin, Rusiya-Ukrayna müharibəsinin, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və hibrid təhlükələr kimi mövzuların müzakirə olunduğu Zirvə toplantısında Prezident İlham Əliyev bir neçə dövlət və hökumət başçısı ilə görüşüb. Bu görüşlər əsasən qarşı tərəflərin müraciəti əsasında baş tutub ki, bu da bir daha Azərbaycan Prezidentinin Avropa liderləri arasındakı yüksək nüfuzunun, dövlətimizin başçısına göstərilən böyük hörmətin və xüsusi dəyərin göstəricisidir. Bu görüşlərin hər biri obyektiv reallıqlara əsaslanır. Bunlar Azərbaycanın yalnız regionda deyil, dünyada gedən proseslərdə fəal iştirakı, Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələr, dost dövlətlərə arxa-dayaq olması, qətiyyətli və müstəqil siyasət yürütməsi kimi mühüm amillərdir. Bu isə Azərbaycanla əlaqələrin və əməkdaşlığın genişləndirilməsini bir çox dövlət üçün daha da cəlbedici edir.

### Orta dəhlizin uğur qazanmasında Azərbaycanın rolu böyükdür

Azərbaycanı dünyaya tanıdan ən mühüm faktorlardan biri respublikamızın hər zaman tərəfdaşlığa sadiq olması, dünyada və regionda əməkdaşlığın daha da inkişafına xidmət edən tədbirləri həyata keçirməsidir. Dövlətimizin başçısının iştirak etdiyi beynəlxalq tədbirlərin, o cümlədən ayrı-ayrı dövlət başçılarının ölkəmizə səfərlərinin də ortaya qoyduğu ən böyük həqiqətlərdən biri Azərbaycanın etibarlı tərəfdaş kimi tanınması və əməkdaşlığa verdiyi töhfələrdir.

Bu baxımdan respublikamızın təşəbbüsü ilə reallaşan enerji layihələrini xüsusi qeyd etmək lazımdır. Bu layihələr regionda və Avropada ayrı-ayrı dövlətlərin enerji təhlükəsizliklərini təmin etməklə yanaşı, onlar arasındakı siyasi əlaqələri və müxtəlif sahələrdəki əməkdaşlığı da gücləndirir. Cənubi Qafqazdan Avropaya qədər uzanan bu enerji dəhlizi öz ətrafında Azərbaycan, Türkiyə, Gürcüstan, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya, Rumıniya, Macarıstan kimi dövlətləri, o cümlədən Avropa İttifaqını birləşdirir. Bu da onu göstərir ki, Azərbaycan "Cənub qaz dəhlizi" kimi nəhəng bir enerji infrastrukturunun müəllifinə çevrilməklə yanaşı, həm də beynəlxalq əməkdaşlığın unikal bir modelini təqdim edib. "Uzunluğu 3500 kilometr olan inteqrasiya edilmiş boru kəməri sistemi olan bu layihə enerji təhlükəsizliyi və əməkdaşlıq layihəsidir. Çünki "Cənub qaz dəhlizi"nin keçdiyi marşrut boyunca yerləşən bütün ölkələr arasında əməkdaşlıq olmasa, bu layihənin həyata keçirilməsi mümkün olmazdı", - deyə Prezident İlham Əliyev bildirib.

Qeyd edək ki, "Cənub qaz dəhlizi" formatında əməkdaşlığın nəticəsidir ki, hazırda Azərbaycanın təbii qazı 10 Avropa dövlətinə ixrac olunur ki, onlardan da 8-i Avropa İttifaqının üzvüdür.

Enerji layihələri ilə yanaşı, Azərbaycanın təşəbbüsləri həm də nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi sahəsində regional və beynəlxalq əməkdaşlığı stimullaşdırır. İndiyə qədər respublikamızda həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" marşrutları üzrə çoxsaylı nəqliyyat layihəsi icra olunub. Bu sırada Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsini, logistika imkanlarının genişləndirilməsini də xüsusi vurğulamalıyıq. Azərbaycanın nəqliyyat sferasında layihələri həm də regionda nəqliyyat dəhlizlərinin inkişafını stimullaşdırır. Təsadüfi deyil ki, Orta dəhlizin qlobal rəqabətdə fərqlənməsi, özünü çevik nəqliyyat marşrutu kimi göstərməsi məhz Azərbaycanın sayəsində mümkün olmuşdur. Orta dəhlizin daha səmərəli nəqliyyat marşrutuna çevrilməsində Azərbaycanın oynadığı fəal rol Avropadan Çinə qədər etiraf olunmaqdadır. Azərbaycanın Avrasiyada nəqliyyat sahəsində yeni əməkdaşlıqların formalaşmasına verdiyi töhfələr misilsizdir.

Dövlətlərə beynəlxalq münasibətlər sistemində göstərilən münasibət, malik olduqları nüfuz, onların regionda və dünyadakı mövqeyi, həyata keçirdikləri siyasət ilə sıx əlaqəlidir. Bu baxımdan Azərbaycanın nüfuzu, ayrı-ayrı dövlətlərin respublikamızla əlaqələrin inkişafına göstərdikləri böyük maraq mühüm siyasi-iqtisadi faktorlara əsaslanır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanın qlobal siyasi proseslərə təsir imkanları daha da genişlənir

**Danimarkanın paytaxtı Kopenhagen şəhərində "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak ediblər. Plenar iclaslarda və ondan sonra keçirilən "dəyirmi masa"larda Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya-Ukrayna müharibəsi, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və hibrid təhlükələr kimi mövzular müzakirə olunub.**

**Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, "Avropa Siyasi Birliyi" təhlükəsizlik, iqtisadi sabitlik, demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi-iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır.**



Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir. "Dünyanın nüfuzlu ölkələrinin liderlərinin təmsil olunduğu tədbirdə Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın dəvəti ilə Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edib. Dövlətimizin başçısının tədbirə dəvəti və qarşı tərəflərin müraciətləri əsasında keçirdiyi çoxsaylı görüş beynəlxalq miqyasda Azərbaycanın artan nüfuzunun göstəricisidir. Eyni zamanda bu, Prezident İlham Əliyevin dünya liderləri arasında nüfuz, söz sahibi olmasının, ona göstərilən böyük hörmət və etimadın göstəricisidir. Azərbaycan təkcə qitənin enerji təhlükəsizliyində mühüm rol oynamır eyni zamanda Avropa İttifaqının gələcəyi ilə bağlı müzakirələrdə mövqeyinə önəm verilən ölkədir", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən Azərbaycanın dünyada nüfuzu artmaqla yanaşı, qlobal siyasi proseslərə təsir imkanları da genişlənib. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan etibarlı tərəfdaşa, regionda, dünyada söz sahibi olan dövlətə çevrilib. Bu siyasətin nəticəsində hazırda dünyada elə bir nüfuzlu beynəlxalq tədbir yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərdə iştirak etməsin, müasir dövrün çağırışları, mövcud problemlərin həlli yolları barədə fikirləri öyrənilməsin.

Azərbaycanın Avropa İttifaqı üçün də böyük əhəmiyyəti olan dövlət olduğunu qeyd edən V.Rəhimzadə bildirib ki, ölkəmiz Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 üzv dövlətinə mavi yanacaq ixrac edərək, qitənin enerji təhlükəsizliyinə mühüm töhfə verir: "Azərbaycanın Orta dəhlizin əsas dövlətlərindən biri olması ölkəmizin geosiyasi proseslərdə çəkisini daha da artırır. Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirakı Azərbaycanın etibarlı, sözünə güvənilən, qlobal proseslərdə qətiyyətli və ədalətli mövqe nümayiş etdirən dövlət olduğunun təsdiqidir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# DSMF, DOST Agentliyi və SXA BSTA-nın Avropa Şəbəkəsinin İdarəetmə Komitəsinə üzv seçilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndə heyəti Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) Dünya Sosial Təminat Forumunda iştirak edib. Nümayəndə heyəti nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun (DSMF) İdarə Heyətinin sədri Zəka Mirzəyev, DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov, Sosial Xidmətlər Agentliyinin (SXA) İdarə Heyətinin sədri Vüqar Behbudov, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin direktoru Elnarə Ənsari, həmçinin həmin qurumların əməkdaşlarından ibarət olub.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Malayziyanın Kuala Lumpur şəhərində keçirilən forum "Keçid dövründə sosial təminatın formalaşdırılması" mövzusuna həsr olunub.

Dünyanın 150-dən çox ölkəsindən sosial təminat qurumlarının rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri, ekspertlərin qatıldığı tədbirdə sosial müdafiə sistemlərinin dayanıqlılığı, rəqəmsal transformasiya, süni intellektin tətbiqi, sosial xidmətlərin inklüzivliyi və digər məsələlər müzakirə edilib.

Forumda səsvermənin nəticələri əsasında DSMF yenidən, DOST Agentliyi və SXA isə ilk dəfə olaraq BSTA-nın Avropa Şəbəkəsinin İdarəetmə Komitəsinin (2026-2028-ci illər üzrə) üzvləri seçiliblər.

Tədbirdə əməkdaşlıq sənədi - DSMF rəhbərinin sədri olduğu Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyası ilə BSTA arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Forum çərçivəsində keçirilən interaktiv sessiyalarda Fərid Məmmədov panelçi və çıxışçı, Zəka Mirzəyev panelçi, Elnarə Ənsari çıxışçı qismində iştirak edib, həmçinin iştirakçıların suallarını cavablandırıblar. Ölkəmizdə son illər aparılan sosial islahatların uğurları barədə məlumat verilib, habelə DSMF-nin "Yaxşı idarəçilik meyarı üzrə BSTA Təlimatları"na dair təqdimatı nümayiş etdirilib.

Dünya Sosial Təminat Forumu nazirliyin qurumlarının mükafatlarla təltif edilməsi ilə də yadda qalıb: DOST Agentliyi "BSTA təlimatlarının uğurlu tətbiqinə görə Xidmət Keyfiyyəti Sertifikatı 2025-2028" mükafatına layiq görülüb.

Habelə agentliyin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin təcrübəsi əsasında hazırladığı "Dulusçu" filmi BSTA-nın Video-Fest müsabiqəsində yüksək qiymət alaraq Fəxri Diplomla təltif edilib. DSMF isə sosial təminatın təşviqində töhfələrinə görə Fəxri Diploma layiq görülüb.

Forum çərçivəsində BSTA-nın prezidenti Məhəmməd Azman, təşkilatın digər rəhbər şəxsləri, habelə bir sıra ölkələrin sosial müdafiə qurumlarının rəhbər şəxsləri ilə ikitərəfli görüşlər də keçirilib, gələcək əməkdaşlığa dair fikir mübadilələri aparılıb.




# Konstitusiya və Suverenlik İli 2025

**Hər bir ölkənin konstitusiyası xalqın hüquqlarını qoruyan, dövlətin fəaliyyətini tənzimləyən və ədalətli cəmiyyətin qurulmasına təminat yaradan ən ali sənəd - Əsas Qanundur. Onun xalqın gündəlik həyatında, cəmiyyətin strateji varlığında əhəmiyyəti çox böyükdür. Bu qanun dövlətin əsas hüquqi təməlini təşkil edir. Müstəqil dövlət qədər ədalətli cəmiyyətin əsas istinad yeri kimi konstitusiyaya da malik olmaq istənilən xalq üçün tarixin və taleyin çox böyük hadisəsidir.**



## Dövlətin fəaliyyətini tənzimləyən Əsas Qanun

### Xalqın və dövlətin maraqlarını qoruyan ali sənəd

Azərbaycan Respublikasının Konstitusiyası xalqımızın iradəsinin ifadəsi kimi onun suverenliyini, dövlətin necə idarə olunduğunu müəyyənləşdirir. Yəni dövlət hakimiyyətinin mənbəyinin xalq olduğunu təsdiqləyir. Əsas Qanunumuz hüquq və azadlıqların əsas təminatçısıdır. Hər bir Azərbaycan vətəndaşının hüquqları və azadlıqları konstitusiyada təsbit olunur, bu, insanları xaosdan, anarxiyadan, özbaşınalıqdan qoruyur.

Əsas Qanunumuz ölkənin idarəçilik qaydalarını tənzimləyir, dövlət hakimiyyətinin qanunverici, icraedici və məhkəmə hakimiyyəti qolları üzrə bölünməsini təsbit edir, onların qarşılıqlı münasibətlərini, aralarındakı balansı formalaşdırır.

İstənilən ölkədə konstitusiya sabotaj və ədalətsizliyə qarşı etibarlı müdafiəçidir. O, hüquqi əsas olduğuna görə, heç bir qanun və ya qərar bu sənədin müddəalarına zidd ola bilməz, bu da xalqın maraqlarını mühafizə edir.

Əsas Qanunumuz həmçinin milli birliyin və sabitliyin təməlidir. O, dövlətin quruluşunu, ərazi bütövlüyünü, vətəndaşların bərabərliyini təsdiqləməklə, cəmiyyətdə həmrəyliyi və sabit, dayanıqlı inkişafı möhkəmləndirir. Eyni zamanda gələcək üçün hüquqi təməl yaradır. İctimai, siyasi və iqtisadi islahatlar konstitusiyanın prinsiplərinə əsaslanır. Bu isə xalqın rifahına və dövlətin tərəqqisinə zəmanət verir.

Əsas Qanunumuz suverenliyi həm xalqın, həm də dövlətin əsas prinsipi kimi müəyyənləşdirir. Xalqın suverenliyi vətəndaşların iradəsi və seçki hüququ ilə ifadə olunur. Dövlət suverenliyi isə müstəqillik, ərazi bütövlüyü və beynəlxalq aləmdə bərabərhüquqlu mövqedə olmaqla təmin edilir.

### Dövlətin əsas prinsipi

Hər bir ölkə suverenliyə, müstəqil dövlətini quraraq inkişaf etdirməyə can atır. Tarix boyu bu nailiyyət çox az xalqlara nəsib olub. İndi biz qürur duyuruq ki, dünyanın müstəqil dövlətə malik xalqları sırasında Azərbaycan xalqı da var. Ötən əsrin əvvəllərində müsəlman Şərqinin ilk demokratik respublikası kimi yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra itirilmiş müstəqilliyimizi əsrin sonuna doğru bərpa etdik. Ümummilli Lider Heydər Əliyevin formalaşdırdığı möhkəm təməllər üzərində Azərbaycan inkişaf yollarında irəliləyərək böyük uğurlara nail oldu. Ulu Öndərin strateji inkişaf kursunu əzmlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yürütdüyü məqsədyönlü daxili və xarici siyasətlə, reallaşdırdığı proqramlarla ölkəmizi dövrün ən qüdrətli mərhələsinə yetirdi.

Əsas Qanunumuzda aydın şəkildə göstərilir ki, Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır. O, öz suveren hüquqlarını ümumxalq səsverməsi, yəni referendumlar, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Suverenlik ölkənin daxilində və ondan kənarda müstəqilliyin ifadəsidir. Dövlətin siyasi və hüquqi xüsusiyyəti kimi onun öz daxili və xarici funksiyalarını azad və sərbəst şəkildə konstitusiyasına və qanunlarına, beynəlxalq hüququn hamılıqla tanınmış prinsiplərinə və normalarına uyğun reallaşdıra bilməsidir. Eyni zamanda xalqın sərbəst və müstəqil şəkildə öz idarəetmə formasını müəyyən etmək hüququnun təmin olunmasıdır. Konstitusiyanın ikinci maddəsində deyilir: "Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur".

Xalqımızın suverenliyi Azərbaycanın demokratik dövlət quruluşunun bünövrəsidir. Dövlət hakimiyyətinin bütün qolları (qanunverici, icra və məhkəmə) xalqın adından fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, beynəlxalq münasibətlərdəki mövqeyi xalqın ümumi iradəsini əks etdirir və göstərir ki, dövlət məhz xalq üçün mövcuddur, xalq isə dövlətin sahibi və ali hakimiyyətin daşıyıcısıdır.

### Ən böyük tarixi nailiyyət

1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq ümumxalq səsverməsi əsasında qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasının preambulasında dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması respublikanın əsas məqsədlərindən biri kimi təsbit olunmuşdur. Bununla belə o dönəmdə Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi hərbi təcavüz nəticəsində Azərbaycan ərazilərinin təqribən 20 faizi uzun müddət - 30 ilə yaxın işğal altında qalmış, bununla da dövlətin suveren hüquqlarının həmin bölgələrdə tətbiqi mümkün olmamışdır. Ərazi bütövlüyü - dövlətləri başqa dövlətin ərazi bütövlüyü və ya siyasi müstəqilliyi əleyhinə güc tətbiq etməkdən çəkindirən beynəlxalq hüququn prinsipidir. Bu prinsip BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində müvafiq şəkildə əks olunub. Güc tətbiq etməklə ərazi bütövlüyünün pozulması təcavüz aktı hesab olunur.

Ermənistan Respublikası isə 1990-cı illərin əvvəllərindən başlayaraq, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdi.

Azərbaycan uzun illər sülh danışıqlarına sadiqlik göstərərək məsələnin dinc yolla, insan itkilərinə yol vermədən həllinə çalışsa da, buna müyəssər olmamışdı. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı birləşmələrinin işğal edilmiş ərazilərimizdən çıxarılması barədə 4 qətnaməsi havadan asılı qalmışdı.

Ermənistanın işğal siyasətinin dayandırılması, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin olunması xalqımızın milli ideyasının mərkəzi hədəfinə çevrilmiş, bu istiqamətdə cəmiyyətin bütün potensialı və resursları səfərbər edilmişdir.

2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə olunan tarixi qələbə, həmçinin 2023-cü ildə həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində respublikanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, bununla da Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün bölgələrimizdə təmin olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2024-cü il tarixli sərəncamı ilə 20 sentyabr tarixi ölkəmizdə Dövlət Suverenliyi Günü kimi təsis edilmişdir. Uzun illərin haqq mübarizəsindən sonra Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmin edilməsi xalqımızın, dövlətimizin son əsrlərdəki ən böyük tarixi nailiyyətidir.

### Böyük hədəflərə doğru

Müasir mərhələdə Azərbaycan Respublikası milli maraqları rəhbər prinsip kimi qəbul edərək, formalaşmış yeni geosiyasi reallıqlar fonunda müstəqil siyasətini daha prinsipial və qətiyyətli şəkildə davam etdirir. Dövlət konstitusiyanın müddəalarına və suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji məqsədlərin reallaşdırılması istiqamətində ardıcıl və inamlı addımlarla irəliləyir. Cəmiyyətimizdə milli həmrəylik daha da güclənərək sarsılmaz şəkil alır. Eyni zamanda vətəndaş-dövlət münasibətləri möhkəmlənir, hər bir insanın məsuliyyəti artır, Ana Qanunda müəyyən edilmiş hüquq və vəzifələrlə bağlı maarifçilik səviyyəsi yüksəlir.

Bütün bunlar ölkəmizin öz strateji hədəflərinə çatması üçün çox mühümdür. Çünki hər bir dövlətin nailiyyətləri bir çox amillərlə yanaşı, həmçinin vətəndaşların məsuliyyətli davranışından, dövlətçilik dəyərlərinə, konstitusiyaya və qanunlara hörmətindən, Vətənə sədaqətindən çox asılıdır.

Konstitusion vəzifələr yalnız dövlətin maraqlarını deyil, həm də cəmiyyətin və hər bir fərdin təhlükəsizliyini, rifahını, gələcəyini qorumağa xidmət edir. Onlar vətəndaşların hüquqları ilə qarşılıqlı balans yaradır. Hüququn olduğu hər məqamda onun təminatı üçün vəzifə də müəyyənləşdirilir.

Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşların bütün istiqamətlər üzrə geniş hüquqları kimi əsas vəzifələri də təsbit olunmuşdur. Bu vəzifələr vətəndaşın dövlət, cəmiyyət və digər şəxslər qarşısında məsuliyyətini ifadə edir.

Qanunlara riayət bu vəzifələrin ən mühümlərindəndir. Hər bir vətəndaş ölkə konstitusiyasına və qanunlarına əməl etməlidir. Bu, hüquqi dövlətin əsas prinsipidir.

Azərbaycan Respublikasının Konstitusiyası dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumağı da hər bir vətəndaşımızın əsas vəzifələrindən biri kimi müəyyənləşdirir. İnsanlarımız Azərbaycanın dövlətçiliyinə hörmət etməli, onun müstəqilliyini və sərhədlərinin toxunulmazlığını müdafiə etməlidirlər. Vətəni müdafiə etmək Azərbaycan vətəndaşlarının konstitusion vəzifələrinə daxildir. Onlar dövlətin təhlükəsizliyini qorumalı, lazım gəldikdə hərbi xidmətə cəlb olunmalıdırlar.

Ölkənin iqtisadi əsaslarının möhkəmləndirilməsi üçün vətəndaşlar müəyyən edilmiş qaydada vergiləri və digər dövlət ödənişlərini də həyata keçirməlidirlər. Bundan başqa, hər bir kəs ətraf mühitin mühafizəsinə, təbii sərvətlərin qorunmasına və səmərəli istifadəsinə borcludur. Vətəndaş başqalarının hüquq və azadlıqlarına hörmətlə yanaşmalı, öz hüquqlarını həyata keçirərkən digər insanların hüquq və azadlıqlarını pozmamalıdır. Dövlətin, cəmiyyətin inkişafı mükəmməl təhsil almış savadlı vətəndaşdan başlanır. Azərbaycan Konstitusiyasında da təhsil həm vətəndaşların hüququ, həm də vəzifəsi kimi müəyyənləşdirilmişdir. Belə ki, ölkəmizdə orta ümumtəhsil məcburidir və hər bir kəs bu vəzifəni yerinə yetirməlidir.

### Vətənə sədaqət

Bütün bunlar həm də Azərbaycan Respublikası vətəndaşının Vətənə sədaqətini müəyyən edir. Əsas Qanunumuzda Vətənə sədaqət prinsipi də birbaşa təsbit olunmuş əsas dəyərlərdəndir. Bu, vətəndaşların dövlətə və onun müstəqilliyinə münasibətini müəyyənləşdirən konstitusion öhdəlik kimi ifadə olunub. Vətənə sədaqət yalnız hüquqi öhdəlik deyil, həm də konstitusiyanın əsas ruhunu təşkil edən mənəvi dəyərdir. Bu, vətəndaşların dövlətin varlığına, onun dəyərlərinə, suverenliyinə sadiq qalmasını nəzərdə tutur.

Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmin edilməsi ilə tamamlanmış tarixi Zəfərimiz Azərbaycan Konstitusiyasında təsbit olunmuş Vətənə sədaqət prinsipinin yalnız hüquqi öhdəlik deyil, həm də dərin milli dəyər olduğunu bir daha göstərdi. Vətəndaşlarımız 44 günlük Vətən müharibəsi zamanı həm ön, həm də arxa cəbhədə bu vəzifəni layiqincə yerinə yetirərək dövlətimizin müstəqilliyi və ərazi bütövlüyü naminə canlarını belə əsirgəmədilər. Hər ilin 27 sentyabrında - Anım Günündə böyük ehtiram və sevgimizlə yad etdiyimiz şəhidlərimizin əbədi xatirəsi, Azərbaycanın azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda sağlamlığını qurban vermis qazilərimizin əzmi Vətənə sədaqətin canlı abidəsidir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Cəbrayıl Şəhəri Günü Böyük qayıdışın real təzahürü, dövlətimizin qüdrətinin, Azərbaycan Ordusunun qəhrəmanlığının parlaq təcəssümüdür

**"44 günlük Vətən müharibəsinin parlaq Zəfərə aparan hər bir günü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu 2020-ci il oktyabrın 4-də Cəbrayıl şəhərini işğaldan azad etdi. 27 il ərzində ermənilər tərəfindən tamamilə dağıdılmış Cəbrayıl əsgər və zabitlərimizin canı, qanı bahasına işğalçılardan təmizləndi".**



Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov bildirib.

Şahin İsmayılov qeyd edib ki, Cəbrayılın təbii sərvətləri, habelə inkişaf etmiş üzümçülük, heyvandarlıq, taxılçılıq və baramaçılıq kimi sahələri ilə məşhur olması rayonun iqtisadi və sosial inkişaf potensialını şərtləndirən əsas amillərdən olub. Lakin işğal dövründə rayonun bütün iqtisadi-sosial infrastrukturu məhv edilib, xəstəxanalar, təhsil və mədəniyyət obyektləri, yaşayış binaları, sənaye müəssisələri dağıdılıb. Ümumilikdə, işğal nəticəsində Cəbrayıl rayonuna 13,928 milyard ABŞ dolları məbləğində ziyan dəyib.

Aprel döyüşlərinin müasir Azərbaycan tarixinin şanlı qələbələrindən olduğunu söyləyən komitə sədri bildirib ki, Lələtəpə yüksəkliyinin azad olunması, Cocuq Mərcanlı kəndinin yenidən qurulması Böyük qayıdışın rəmzinə çevrildi.

"Bu il beşinci ildönümünü qeyd etdiyimiz Vətən müharibəsi zamanı Cəbrayıl əməliyyatı böyük hərbi qəhrəmanlıq nümunəsidir. İllərdir tarixi torpaqlarımızda möhkəmlənən düşmən burada çoxsaylı istehkam xətləri qurmuşdu. Rəşadətli ordumuz yüksək peşəkarlıqla bu istehkamları yararaq Cəbrayıl şəhərin azad etdi. Bu, sonrakı əməliyyatların uğurla həyata keçirilməsi üçün strateji imkanlar yaratdı", - deyə Şahin İsmayılov vurğulayıb.

Cəbrayılın bu gün sürətlə yenidən qurulduğunu söyləyən komitə sədri qeyd edib ki, dövlətimizin başçısı azad olunmuş torpaqlarda həyata keçirilən nəhəng quruculuq işlərini diqqət mərkəzində saxlayır. Azərbaycan Prezidenti görülən işlərlə yerində tanış olur, müvafiq tapşırıqlarını verir, açılışlarda iştirak edir. Qısa zaman ərzində görülən işlərin nəticəsi olaraq artıq 50 mindən çox insan azad edilmiş torpaqlara geri qayıdıb.

Şahin İsmayılov bildirib ki, otuz üç yaşayış binasından ibarət Cəbrayıl şəhər kompleksində keçmiş məcburi köçkünlərin məskunlaşması həyata keçirilib. Eyni zamanda Cəbrayıl ərazisində yerləşən "Araz Vadisi İqtisadi Zonası" regionun mühüm sənaye-logistika mərkəzinə çevrilməkdədir. Müasir yol-nəqliyyat infrastrukturunun tikintisi, digər layihələr Cəbrayıla qayıdışın strateji əsaslarını təşkil edir.

Böyük qayıdışın real təzahürünə çevrilən Cəbrayıl Şəhəri Günü həm də tarixi ədalətin bərpasının, qəhrəman Azərbaycan Ordusunun misilsiz igidliyinin və dövlətimizin qüdrətinin parlaq təcəssümüdür. Artıq cəbrayıllılar Cəbrayıl Şəhəri Gününü doğma torpaqlarında böyük qürurla qeyd edirlər", - deyə komitə sədri qeyd edib.

## Cəbrayılda Şəhər Günü təntənəli şəkildə qeyd edilib







**İşğaldan azad olunmuş Cəbrayıl şəhərində artıq ikinci ildir ki, sakinlər Şəhər Gününü öz doğma yurdlarında bayram əhvali-ruhiyyəsi ilə təntənəli şəkildə qeyd ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Cəbrayıl Şəhəri Gününə həsr edilən "Qarabağ - obyektivdən tarixə" adlı sərgiyə baxış keçirilib. Fotosərgidə Qarabağa, Azərbaycan Silahlı Qüvvələrinə və Cəbrayıla həsr olunan fotolar yer alıb. Sonra şəhərin balaca sakinləri üçün "face art" və interaktiv əyləncəli oyunlar təşkil edilib.

İncəsənət xadimləri konsert proqramı ilə şənliyə toplaşanlara xoş ovqat bəxş ediblər. Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, mədəniyyət nazirinin müavini Murad Hüseynov, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Növrəs Cəfərov, şəhər ziyalıları, ictimaiyyət nümayəndələri Şəhər Gününə həsr olunmuş tədbirdə iştirak ediblər.



Qeyd edək ki, Cəbrayıl şəhəri 44 günlük Vətən müharibəsi zamanı 2020-ci il oktyabrın 4-də işğaldan azad olunub. Prezident İlham Əliyevin Vətən müharibəsində qazanılmış tarixi qələbəni əbədiləşdirmək məqsədi daşıyan 2023-cü il 31 iyul tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Sərəncamına əsasən, 4 oktyabr - Cəbrayıl Şəhəri Günü kimi hər il təntənəli şəkildə qeyd edilir.

## "Cəbrayıl Şəhəri Günü Azərbaycan xalqının bayramıdır"

**"Doğma Cəbrayılda məskunlaşmağımızın bir ili tamam olub. Bu müddət ərzində hər gün burada özümü daha xoşbəxt hiss edirəm. Çünki Vətənə qovuşmaq ən ülvi hissdir".**



Bu sözləri AZƏRTAC-a Cəbrayıl şəhər sakini Vaqif Əlisoy bildirib.

"Cəbrayıl Şəhəri Günü təkcə biz cəbrayıllıların deyil, bütün Azərbaycan xalqının bayramıdır. Ali Baş Komandan İlham Əliyevin də vurğuladığı kimi, Qələbəmizin təməli məhz Cəbrayılda qoyuldu. Mən özüm Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuşam. İndi Şəhidlər xiyabanına alnıaçıq, üzüağ gedirəm. Çünki onların ruhu şaddır, torpaqlarımız azaddır. Prezident İlham Əliyevin rəhbərliyi, qəhrəman ordumuzun igidliyi sayəsində doğma yurdumuza qovuşduq. Bu gün digər azad olunmuş ərazilərimiz kimi Cəbrayıl da yenidən dirçəlir, çiçəklənir", - deyə o əlavə edib.

## "Şükürbəyli və Horovlu kəndlərində tikinti işləri son tamamlanma mərhələsindədir"

"İkinci ildir ki, Cəbrayıl Şəhəri Günü doğma sakinlərinin iştirakı ilə qeyd olunur".

Bu sözləri AZƏRTAC-a Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlhamiyə Rzayeva bildirib.



"Beş ildir azadlığına qovuşan bu qədim yurdun bayramı əslində yeni tarixin başlanğıcından xəbər verir. Hazırda Cəbrayılda genişmiqyaslı bərpa-quruculuq işləri böyük vüsətlə davam edir. Şükürbəyli və Horovlu kəndlərində tikinti işlərinin birinci mərhələsi artıq başa çatıb, son tamamlanma mərhələsi həyata keçirilir. Bununla yanaşı, Soltanlı kəndində də tikinti işlərinə start verilib. Bayram sevincinin yaşandığı Cəbrayılda insanlar doğma torpağa dönüşün, kəndlərin dirçəlişinin canlı şahidinə çevriliblər. Quruculuqla yanaşı, bu gün burada həm də gələcəyin işıqlı sabahına inam hissi hökm sürür", - deyə o əlavə edib.

# Nizami Kino Mərkəzində "Tağıyev: Sona" bədii filminin təqdimat mərasimi keçirilib








**Oktyabrın 3-də Nizami Kino Mərkəzində "Tağıyev: Sona" bədii filminin təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva, hökumət rəsmiləri və mədəniyyət xadimləri iştirak ediblər.

"Tağıyev: Sona" filmi böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat hekayəsinə həsr olunan "Tağıyev" filminin üçüncü bölümüdür.

Kinolent Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Kino Agentliyinin dəstəyi, "Neqsol Holding", "Kapital Bank", "Bakcell" və "Norm" şirkətlərinin sponsorluğu ilə Bakı Media Mərkəzi tərəfindən istehsal olunub.

Filmdə XIX əsrin sonu XX əsrin əvvəlində Bakı və regionda baş verən mühüm tarixi hadisələrə toxunulur.

Taleyin çətin yollarından keçən Hacı Zeynalabdin Tağıyevin illər sonra həyatına gənc və savadlı Sona xanım daxil olur. Bu gənc xanıma qarşı duyduğu sevgi onu yeni maneələrlə üz-üzə qoyur. "Tağıyev: Sona" filmində məhz məşhur xeyriyyəçi ilə onun qəlbinə yol tapan Sona xanımın maneələri aşan unudulmaz məhəbbət hekayəsi əks olunub. Filmdə iradənin gücü, sədaqətin sınağı və sevginin yüksəlişinə şahid olacaq izləyicilər ilk iki bölümündəki obrazların da həyatlarında baş verən dəyişiklikləri yaxından görmüş olacaqlar.

Filmin baş prodüseri Arzu Əliyeva, prodüseri Orman Əliyev, rejissoru Zaur Qasımlı, ssenari müəllifləri İsmayıl İman, Asif İsgəndərli və Zaur Qasımlı, operatoru Vladimir Artemyev, rəssamı Səbuhi Atababayev, geyim rəssamı Vüsal Rəhim və bəstəkarı Etibar Əsədlidir.

Xalq artistləri Pərviz Məmmədrzayev, Qurban İsmayılov, Əməkdar artistlər Rasim Cəfər, Elşən Rüstəmov, Natəvan Hacıyeva da olmaqla geniş peşəkar aktyor heyəti filmdə tarixi personajları canlandırıb.

Ekran əsəri tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Sonda filmin yaradıcı heyəti səhnəyə dəvət olunub.

Filmin baş rejissoru Zaur Qasımlı çəkilişlərə göstərilən dəstəkdə əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Xatırladaq ki, Azərbaycan tarixinin tanıdılması və milli dəyərlərimizin təbliğində vacib əhəmiyyət kəsb edən dördhissəli filmin ilk bölümü "Tağıyev: Neft" məhz böyük xeyriyyəçinin vəfatının 100 illiyinin qeyd olunduğu 2024-cü ildə təqdim olunub. Filmin ilk iki bölümü əlamətdar mədəniyyət hadisəsinə çevrilib və ölkə kinoteatrlarında yayımlanaraq geniş izləyici kütləsi toplaya bilib.

Azərbaycan Kinematoqrafçılar İttifaqının nəzdində fəaliyyət göstərən 98-ci Kino Akademiyası Mükafatları ("Oskar") üzrə Azərbaycan Film Seçim Komitəsi rəsmi olaraq "Tağıyev: Neft" filmini Azərbaycanın "Ən yaxşı beynəlxalq bədii film" kateqoriyasında 98-ci Kino Akademiyasının "Oskar" mükafatına namizəd təqdim edib. Bununla yanaşı, bədii filmin ilk bölümü dünyaca məşhur "Dehancer Colourist Awards 2024" festivalına qatılaraq keyfiyyətli rəng korreksiyalı tammetrajlı film nominasiyasında qalib gəlib.

Ekran əsərinin çəkilişləri öz miqyasına görə də Azərbaycan kinematoqrafiya tarixinə düşüb. 76 fərqli məkanda çəkilişləri baş tutan filmdəki kütləvi səhnələrdə 2500 nəfərə yaxın yaradıcı şəxs iştirak edib. Filmin tarixi səhnələri üçün 300-dən çox dekorasiya hazırlanıb. Tağıyevin yaşadığı tarixi dövrü tam əks etdirmək üçün xüsusi geyim emalatxanası yaradılıb, çoxlu sayda libas, aksesuar, zərgərlik nümunəsi və xüsusi rekvizitlər düzəldilib.

Qeyd edək ki, Azərbaycan tarixini yaşatmaq, həqiqətləri olduğu kimi çatdırmaq Bakı Media Mərkəzi üçün yarandığı ilk gündən böyük önəm daşıyır. Mərkəz bu müddət ərzində ölkəmizin ən müxtəlif tarixi dövrlərini özündə əks etdirən "Hədəf Bakıdır", "Miras", "Son iclas", "Əbədi ezamiyyət", "Biz" və "Şuşa, sən azadsan!" kimi ictimaiyyət tərəfindən geniş marağa səbəb olan filmlər istehsal edib.

# Şamaxıda Beynəlxalq Barbekü Festivalının açılışı olub














**Oktyabrın 4-də Şamaxının Meysəri kəndində Azərbaycanda ilk dəfə reallaşan Beynəlxalq Barbekü Festivalının açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, festival Şamaxı Rayon İcra Hakimiyyəti, Nəsimi Bağları Kompleksi, "Abqora" restoranı və beynəlxalq kulinariya hakimi Sahib-David İsrafilovun (Don David) dəstəyi ilə təşkil olunub.

Festivalda 30-dan çox ölkədən məşhur şeflər, eləcə də kulinariya assosiasiyalarının prezidentləri, "Michelin" mükafatına layiq görülmüş ustalar, kulinariya hakimləri iştirak ediblər.

Açılış mərasimində beynəlxalq kulinariya hakimi Sahib-David İsrafilov (Don David), Dünya Barbekü Assosiasiyasının (WBQA) prezidenti Villem Vink, Dünya Aşpazlar Assosiasiyasının (WACS) keçmiş prezidenti, Səudiyyə Ərəbistanı kralının şəxsi aşpazı Tomas Quqler (Thomas Guggler) çıxış edərək tədbirin məqsədindən danışıblar.

Çıxışçılar möhtəşəm barbekü təqdimatları ilə yadda qalacaq bu beynəlxalq tədbirin əsas məqsədinin mədəni mübadiləni gücləndirmək, eləcə də Azərbaycanın qonaqpərvərliyini, mətbəxini və mədəni dəyərlərini dünyaya tanıtmaq olduğunu bildiriblər.

Sonra qonaqlar qurulan pavilyonlarda müxtəlif mədəniyyətlərin mətbəxi ilə tanış olub, fərqli təamları dadıblar.

Xüsusi ayrılmış zonalarda Azərbaycanı, həmçinin dünyanın müxtəlif ölkələrini təmsil edən peşəkar şeflər dünya mətbəxinin zənginliyini təqdim ediblər. Qurulan pavilyonları gəzən qonaqlar ayrı-ayrı restoran və brendlərin təqdimatları ilə tanış olublar.

Şef-aşpazlar uşaqlar üçün ustad dərsləri də keçiblər. Əyləncə şəklində təşkil edilən ustad dərsləri zamanı mətbəxin kralları sayılan kulinarlar azyaşlılarla birgə burgerlər hazırlayıblar.

Festival zamanı komandalar arasında yarış da təşkil olunub. Hər komanda onlara verilən resept üzərində yemək bişirib. Yarışda dad, bişirmə dərəcəsi və təqdimat forması üzrə fərqlənən komandalar sertifikatlar, medallar və tərəfdaşlar tərəfindən təqdim edilən əsas kubok uğrunda mübarizə aparıblar.

Gün ərzində festivalın səhnəsində müxtəlif musiqiçilərin ifaları səslənib. Ziyarətçilər dadlı təqdimatları yerli və xarici kompozisiyalar fonunda izləyiblər.

Festival oktyabrın 5-də davam edəcək.






ZƏFƏR gündəliyi

5-6 oktyabr

2020-ci il

# İlham ƏLİYEV: "Azərbaycan ərazi bütövlüyünü təkbaşına bərpa edir"

## 5 oktyabr

Oktyabrın 5-də cəbhənin bütün istiqamətlərində döyüşlər gedib. Səhər saatlarında Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinin radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə atılan raket buraxılışını qeydə alıb. Bütün cəbhəboyu sıxışdırılan düşmən Ermənistan ərazisindən Azərbaycan ərazisində əhalinin kompakt yaşadığı məntəqələrə, mülki infrastruktura sistematik raket zərbələri endirib. Eyni zamanda Ermənistanın müdafiə nazirliyi Azərbaycan ərazisinin Ermənistandan atəşə tutulması faktını inkar edib və bunun işğal olunmuş ərazilərimizdən həyata keçirildiyini iddia edib. Ermənistanın bu cür məsuliyyətsiz və cinayətkar hərəkəti məqsədyönlü şəkildə Azərbaycanı cavab tədbirləri görməyə təhrik edib.

### Talış kəndində Azərbaycan bayrağı dalğalandırılıb



Beyləqan, Bərdə və Tərtər şəhərləri, Füzuli rayonunun Horadiz şəhəri, Ağcabədi rayonunun kəndləri, Tərtər şəhəri və rayonun kəndləri, Goranboy və Göygöl rayonlarının əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulub.

İşğaldan azad edilmiş Talış kəndində Azərbaycan bayrağı dalğalandırılıb. Müdafiə Nazirliyi videogörüntülər yayaraq düşmənin bütün inkarlarına rəğmən onun ürəyinə dağ basır.

### Gəncə və Ağcabədi atəşə tutulub

Ermənistanın Berd rayonu ərazisindən Gəncə şəhəri, həmçinin Ağcabədi şəhəri atəşə tutulur, yaralananlar olub.

### Düşmənin hərbi texnikası qənimət götürülüb, atəşli reaktiv sistemi məhv edilib



Döyüşlərdə erməni hərbçilərinin atıb qaçdığı silah və texnikalar qənimət kimi götürülüb. Qoşunlarımızın zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin cəbhənin Ağdərə istiqamətində 62-ci artilleriya alayının 2, 41-ci artilleriya bölməsinin 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilir.

### İlham ƏLİYEV: "Paşinyan Azərbaycan xalqından üzr istəməlidir"

Prezident İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibəsində deyib ki, hazırda müxtəlif istiqamətlərdə şiddətli döyüşlər gedir. Artıq Cəbrayıl şəhəri işğaldan azad edilib və Cəbrayıl rayonunun bir neçə kəndi də düşməndən təmizlənib.

Dövlət başçısı vurğulayıb ki, bundan sonra da Azərbaycan Ordusu öz missiyasını uğurla icra edəcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq: "Bizim əsas məqsədimiz bundan ibarətdir. Bu məqsəd tarixi ədaləti təmin edəcək".

Ali Baş Komandan bir daha savaşın dayandırılması ilə bağlı təkliflərini səsləndirərək bildirib ki, Ermənistanın baş naziri Azərbaycan xalqından üzr istəməlidir. Deməlidir ki, Qarabağ Ermənistan deyil. Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir.



Bununla yanaşı, Ermənistan silahlı qüvvələrinin torpaqlarımızdan nə zaman çıxacağını söyləməli və bu şərtlər Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq edilməlidir. O halda təbii ki, atəşkəs bərpa olunacaq və beləliklə, bu məsələ müzakirə yolu ilə həll olunacaq və Azərbaycan xalqı öz doğma torpaqlarına qayıdacaq: "Amma biz bilməliyik ki, bu, nə zaman olacaq. Çünki biz 30 ildir ki, gözləyirik, 30 il bizə verilən vədlər, deyilən sözlər həyatda reallaşmır, gerçəkləşmir. Azərbaycan xalqı artıq buna dözə bilmir, Azərbaycan dövləti dözə bilmir. Bizə konkret, real tarix deyilməlidir ki, onlar nə zaman hansı bölgədən çıxacaqlar".

### Mehriban Əliyeva xalqı erməni uydurmasına qarşı birliyə çağırıb

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində paylaşım edib. Paylaşımda deyilir:

"Əziz həmvətənlər! Rəşadətli ordumuz əzəli Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda düşmən öz məkrli niyyətlərini göstərməkdən əl çəkmir. Qızğın döyüşlərin davam etdiyi bütün həftə ərzində Ermənistan vicdansızcasına feyk xəbərlər tirajlayır. Bu şiddətli hücumda beynəlxalq birliyi fəal surətdə yanlış məlumatlandıran erməni diasporu xüsusi rol oynayır. Bu gün biz hamımız həqiqətən tarixi hadisələrin şahidləriyik! Lakin biz baş verənləri sadəcə kənardan müşahidə edə bilmərik.

Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq. Deməli, biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik. Mən sizin hər birinizi erməni təbliğatının feyklərini ifşa etməyə və erməni təcavüzü haqqında həqiqətləri bütün mümkün platformalarda beynəlxalq birliyə çatdırmağa çağırıram! Azərbaycanı özünün Vətəni hesab edən hər kəs səsini ucaltmalı və ermənilərin yalanını təkzib etməlidir! Uca Tanrı bizim ordumuzu, xalqımızı və Vətənimizi qorusun!"

### Müzəffər Ali Baş Komandandan xalqa növbəti müjdə

Günün sonunda Prezident xalqa daha bir müjdəli xəbər verib. İlham Əliyev özünün rəsmi "X" səhifəsində yazıb: "Bu gün Azərbaycan Ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!"

## 6 oktyabr

*Cəbhənin bütün istiqamətlərində döyüşlər gedib. Müdafiə Nazirliyi işğaldan azad edilmiş Cəbrayıl rayonunun Çaxırlı kəndinin videogörüntülərini yayıb.*

*Azərbaycan Ordusunun əks-hücum əməliyyatı zamanı müxtəlif istiqamətlərdə düşmənin zirehli texnikaları, atəş, dəstək və təminat vasitələri darmadağın edilib. Düşmənin 63-cü tank taborunun daha 3 tankı, o cümlədən 41-ci və 62-ci artilleriya alaylarının 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib. 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri zərərsizləşdirilib.*

### Prezidentdən ölkəmizə atılan bütün iftiralara layiqli cavab

Rusiyanın "Pervıy kanal" televiziyasına müsahibə verən Prezident İlham Əliyev Azərbaycanın savaşa muzdlu döyüşçüləri cəlb etməsi ilə bağlı iftiralara cavab verib.

Prezident deyib ki, Azərbaycan Ordusu öz ərazilərimizi azad edir. Döyüş əməliyyatları yerindən çəkilmiş videolarda bizim artilleriyanın, pilotsuz uçuş aparatlarının necə işləməsi, azərbaycanlı əsgər və zabitlərin işğaldan azad edilmiş torpaqlarda bayraqlarımızı necə ucaltmaları görünür:

"Buna görə də bu ittihamlar əsassızdır, biz onları qətiyyətlə rədd edirik və bu cür şayiələrin, yoxlanılmamış məlumatların ictimai rəylə necəsə manipulyasiya etməsinə yol verə bilmərik. Qoy sübutlar təqdim etsinlər. Fəal döyüş əməliyyatlarının onuncu günüdür, bizə heç bir sübut təqdim edilməyib". Dövlət başçısı vurğulayıb ki, Ermənistan yenə də dinc əhaliyə atəş açır. Bu da erməni tərəfinin köhnə taktikasıdır. Onlar hər dəfə döyüş meydanında məğlubiyyətə uğrayanda dinc əhaliyə ziyan vurmağa və beləliklə, Azərbaycan Ordusunun əks-hücumunu dayandırmağa çalışaraq, belə alçaq hərəkətlərə əl atırlar. Lakin onlar bu əks-hücumu dayandıra bilmirlər və bilməyəcəklər.

### Müdafiə naziri düşmənin darmadağın edilməsinin davamlılığını tapşırıb

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirə keçirilib. Müşavirədə aparılan əks-hücum əməliyyatında mövcud olan vəziyyət təhlil olunaraq, düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl darmadağın edilməsinin davamlılığı tapşırılıb.

Müdafiə naziri qoşunlara azad olunmuş ərazilərdə həyati əhəmiyyətli və ilkin zəruri tədbirlərin görülməsinə göstəriş verib. Nazir tərəfindən "İsgəndər" əməliyyat-taktiki raket komplekslərinin tətbiq olunacağı halda adekvat cavab veriləcəyi bildirilib. Zakir Həsənov Azərbaycan Ordusuna arsenalındakı yüksəkdəqiqlikli və böyük dağıdıcı qüvvəyə malik silah növlərini tətbiq etməklə düşmən tərəfinin hərbi-strateji infrastrukturuna böyük zərbələr endirməyi planlaşdırmağı tapşırır.

### İlham ƏLİYEV: "İran-Azərbaycan sərhədinin işğal olunmuş ərazisinin bir hissəsi nəzarətimizə keçib"

İran İslam Respublikasının (sabiq) Prezidenti Həsən Ruhani Azərbaycan Prezidentinə zəng edib.

Həsən Ruhani Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın davam etməsindən ölkəsinin narahatlığını və münaqişənin tez bir zamanda sülh yolu ilə həll olunacağına ümidvar olduğunu bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanın təxribatına cavab olaraq başlanan savaşda hərbi qulluqçularımız, 27 mülki şəxsimiz həlak olub, 170-dən çoxu yaralanıb, 900-dən artıq evə ziyan dəyib və ya tamamilə dağıdılıb. Azərbaycan tərəfi uğurlu əks-hücum əməliyyatları həyata keçirərək, işğal olunmuş torpaqlarımızın bir hissəsini işğaldan azad edib.

Dövlətimizin başçısı qeyd edib ki, İran-Azərbaycan dövlət sərhədinin işğal olunmuş ərazisinin bir hissəsi Azərbaycanın nəzarətinə keçib və sərhədboyu işğaldan azad olunmuş ərazilərdə tezliklə Azərbaycan sərhəd qoşunlarının və sərhəd infrastrukturunun yerləşdirilməsi nəzərdə tutulub.

Prezident həmçinin Ermənistanın davam edən hərbi təcavüzünün və təxribatlarının regionda sülhün və təhlükəsizliyin təmin olunması işində ən böyük əngəl olduğunu bildirib.

### Düşmənin zirehli texnikaları məhv edilib



Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə Ermənistan ordusuna məxsus 2 ədəd BM-21 "Qrad"ı sıradan çıxarılıb.

41-ci artilleriya alayının atəş mövqelərində dayanan "Qrad"lar Azərbaycan Ordusunun atəş zərbəsi ilə məhv edilib.

Bundan əlavə, 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri də bölmələrimizin sərrast atəşi ilə məhv edilib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Şəhid anası: "Nigaran qalma, tez qayıdacağam deyib, Nicat könüllü cəbhəyə yollandı"




**Hər bir ömrün bir dastanı var. Kiminin dastanı uzun illərlə yazılır, kiminin dastanı isə bir neçə illik, amma dolğun bir ömürlə. Nicat Ziyafət oğlu Hüseynovun dastanı da 23 illik bir ömrə sığan, amma əsrlərə yadigar qalan qəhrəmanlıq salnaməsidir.**

AZƏRTAC xəbər verir ki, 1997-ci il iyunun 4-də Şirvan şəhərində doğulan Nicat elə uşaqlıqdan Vətən sevgisi ilə böyüyüb.

Qəhrəman övladının əziz xatirəsindən danışan şəhid anası Zümrüd Hüseynova deyir ki, evin sonbeşiyi, ailənin sevimlisi olan Nicat ürəyində böyük bir dünya daşıyırdı. "Ən çox sevdiyi oyuncaqlar silahlar idi, çünki o, bir gün Vətən torpaqlarının keşiyində dayanacağını sanki uşaq könlü ilə hiss edirdi. O, həm təhsildə, həm də sənətdə özünü sınadı, musiqi məktəbinin məzunu oldu. Amma ən böyük məktəbi Vətən oldu. 2020-ci ilin payızında bu məktəbin qapısı üzünə açıldı. Ölkənin hər bir gənci kimi Nicat da könüllü olaraq döyüşə yollandı", - deyə şəhid anası bildirir. Anasının "getmə, sən evin tək oğlusan" deyə səslənməsinə cavabı isə "Ana, nigaran qalma, tez qayıdacağam" olub.

Amma o, əslində, qayıdışın başqa cür olacağını sanki hiss etmişdi. Könüllü olaraq cəbhəyə yollananda verdiyi telefonun yaddaşında gizlədiyi sətirlər də bunu deyirdi: "Məndən xəbər olmasa, bu şəkillə məni axtararsız" ismarışı ilə sanki Nicat özü də anlayırdı ki, qayıdışı Şəhidlər xiyabanının müqəddəs sükutunda olacaq.

Onun döyüş yolu Füzuli istiqamətindən başlayıb. Göstərdiyi igidliklə seçilib, əsgər yoldaşlarına ruh, düşmənə isə qorxu verib. Oktyabrın 6-da Nicat şəhidlik zirvəsinə ucalıb O, qələbəni görməsə də, qələbənin yolunu açanlardan biri olub. Qanıyla, canıyla bizlərə azadlıq, Zəfər, qürur bəxş edib.

Bu gün Şirvan Şəhidlər xiyabanında uyuyan Nicatın adı sadəcə bir məzarda deyil, bütün şəhidlərimizin adı kimi millətin qəlbində yaşayır. Azərbaycan Respublikasının Prezidenti tərəfindən təltif olunduğu orden və medallar onun qəhrəmanlığının dövlət səviyyəsində təsdiqidir. Amma ən böyük mükafat Nicat üçün Vətənin azad torpaqları, millətin alnına yazılan qalib xalq adıdır.

Şəhid anası Zümrüd Hüseynova deyir ki, övlad itkisi ağır olsa da, onların uca məqamı bizim təsəllimizdir.

"Nicat özü qələbəni görməsə də, amma bizlərə qələbə yaşatdı. Bəli, övlad itkisi ağrıdı, amma o ağrının içində qürur, o qürurun içində ölməzlik var. Nicatın ömrü qısa oldu, amma dastanı əbədidir. Onun adı gələcək nəsillərə vətənpərvərlik dərsi, qəhrəmanlıq örnəyi kimi çatacaq. Çünki şəhidlər ölmür, Vətən yaşadıqca onların nəfəsi torpağın üstündə, ruhu isə xalqın qəlbində yaşayır", - deyə şəhid anası bildirib.

Qeyd edək ki, Nicat Hüseynov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

# Füzulidə şəhidlərin xatirəsi anılıb, məzarları ziyarət olunub

**44 günlük Vətən müharibəsi zamanı torpaqlarımızın azad edilməsi üçün silaha sarılaraq canlarını fəda edən şəhidlərimizin xatirəsi hər zaman uca tutulur. Bu gün Füzulidən olan 4 şəhidin anım günündə məzarları ziyarət olunub. Müqəddəs amal uğrunda şəhadətə ucalan şəhidlərin şərəfli həyatından bir daha söhbət açılıb.**

AZƏRTAC xəbər verir ki, şəhidlərin anım mərasimində ailə üzvləri ilə yanaşı, rayon icra hakimiyyətinin əməkdaşları, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon şöbəsinin nümayəndələri, təhsil və mədəniyyət işçiləri, şəhid ailələri, qazilər, kənd sakinləri və ziyalıları iştirak ediblər.

Nicat Cahangir oğlu Hacıyev 1989-cu il mayın 25-də Füzuli şəhərində anadan olub. 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin Füzuli şəhərini işğal etməsindən sonra ailəsi ilə birgə məcburi köçkün düşüb və Mingəçevirdə məskunlaşıblar. 2009-cu ildə müddətli həqiqi hərbi xidmətini başa vurandan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi Vətənin keşiyində dayanıb. 2016-cı ilin Aprel döyüşlərində şücaəti ilə seçilib. Nicat Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib, oktyabrın 2-də Cəbrayıl uğrunda döyüşlər zamanı şəhid olub. Mingəçevir şəhərinin Şəhidlər xiyabanında dəfn olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Nicat Hacıyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Paşa Etibar oğlu Mehdiyev 1978-ci il noyabr 24-də Füzuli rayonunun Dövlətyarlı kəndində anadan olub. Ömrünün yeniyetmə çağlarında ailəsi ilə bərabər doğma yurdundan köçkün düşüb. Vətən həsrəti ilə yaşayan Paşa hərbçi olmağı qarşısına məqsəd qoyub. Həqiqi hərbi xidmətini yerinə yetirdikdən sonra müddətdən artıq hərbçi kimi Vətənin keşiyində dayanıb. Aprel döyüşləri ərəfəsində Paşa şücaəti ilə seçilib və "İgidliyə görə" medalı ilə təltif olunub. 2020-ci il sentyabrın 27-də düşmən təxribatının qarşısının alınması məqsədilə başlayan əks-hücumda ilk döyüşə atılanlardan biri də o olub. Paşa və onun tank heyəti Vətən müharibəsində düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhv edib. Paşa Mehdiyev oktyabrın 7-də Füzuli döyüşləri zamanı qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb.



Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Paşa Mehdiyev ölümündən sonra "Azərbaycan bayrağı" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Nohəl Əlqəmə oğlu Əliyev Füzuli rayonu Yuxarı Kürdmahmudlu kəndində anadan olub. Hələ azyaşlı və yeniyetmə çağlarından vətənpərvərliyi ilə seçilən Nohəl gələcəyin hərbçisi olmaq arzusu ilə yaşayıb. 2006-cı ildə məktəbi bitirdikdən sonra 2007-ci ildə həqiqi hərbi xidmətə yola düşüb. 2010-cu ildə xidmətini başa vurduqdan sonra müddətdən artıq hərbi xidmətçi kimi fəaliyyətə başlayıb. Nohəl 2016-cı ilin Aprel döyüşlərində şücaəti ilə seçilib. Nizamlı cəsur hərbçi kimi xidmət dövründə fəxri fərmanlarla da təltif edilib. Vətən müharibəsində ilk döyüşə girənlər sırasında yer alıb və qəhrəmanlığı ilə seçilib. Nohəl oktyabrın 3-də gərgin döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb. Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Nohəl Əliyev ölümündən sonra "İgidliyə görə", "Cəsur döyüşçü", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Əslən Füzuli rayonu Yağlıvənd kəndindən olan şəhid Xəyal Saleh oğlu Əliyev 1999-cu il aprelin 25-də Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində anadan olub. Müddətli həqiqi hərbi xidmətdən qayıdandan sonra "N" saylı kəşfiyyat briqadasında xidmətini davam etdirib. Vətən müharibəsinin döyüş əməliyyatlarında böyük şücaətlə iştirak edib. Xəyal Əliyev oktyabrın 2-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib. Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Xəyal Əliyev ölümündən sonra lll dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

# İqtisadiyyat

## İlham Əliyevin enerji siyasəti Azərbaycanı Avropa İttifaqının etibarlı tərəfdaşına çevirib

**Avropa İttifaqı (Aİ) Azərbaycanın əsas xarici ticarət tərəfdaşlarındandır. Xüsusilə son 10 ildə ölkəmizdə əsas kapitala yönəldilmiş xarici investisiyaların bu quruma üzv dövlətlərin payına düşən hissəsi artıb. Azərbaycanla Aİ arasında ticarət əlaqələri Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ilə tənzimlənib. Avropa İttifaqının Azərbaycana ixracı əsasən maşınqayırma və nəqliyyat avadanlıqları, ölkəmizin isə bu quruma ixracı əsasən neft və qaz məhsullarıdır.**



Azərbaycan-Avropa İttifaqı qarşılıqlı iqtisadi münasibətlərinin inkişafı, idxal-ixrac əlaqələrinin genişlənməsi məmnunluq doğurur. Keçirilən görüş və tədbirlərdə də əsasən enerji və investisiyalar sahəsində uğurlu əlaqələr qeyd olunur.Uzağa getməyək, elə bu günlərdə Prezident İlham Əliyevin Kopenhagendə Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen ilə görüşünü xatırlayaq. Görüşdə Antonio Koşta və Ursula fon der Lyayen dövlətimizin başçısını Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbrik ediblər, sülhün dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəklərini bildiriblər. Onlar həmçinin regionda nəqliyyat bağlantılarının inkişafının Avropa İttifaqı üçün mühüm istiqamət olduğunu deyiblər. Eləcə də Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı rola toxunulub. 2022-ci ildə Aİ ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair əldə edilmiş razılaşmaya uyğun olaraq ölkəmizin qoca qitənin qaz bazarına ixracının həcminin artdığı bildirilib.

"Həqiqətən, siz bizim üçün mühüm enerji tərəfdaşısınız. Siz təkcə təchizat təhlükəsizliyi sahəsində deyil, həmçinin iqlim neytrallığı sahəsində də hər zaman etibarlı olmusunuz". Bu sözləri Ursula fon der Lyayen 2022-ci il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalandıqdan sonra mətbuata bəyanatında demişdi. Anlaşma Memorandumunun üç məqamını vurğulamışdı: "Birincisi, biz Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artıracağıq. Bu memorandum vasitəsilə biz "Cənub qaz dəhlizi"nin genişləndirilməsi ilə bağlı üzərimizə öhdəlik götürürük. Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur".

İkinci mühüm məqam isə bərpaolunan enerji ilə bağlı idi. Ursula fon der Lyayen Azərbaycanın bu sahədə nəhəng potensiala malik olduğunu vurğulamışdı və demişdi: "Biz həmin sahədə əməkdaşlığımızın möhkəm təməlini qoyuruq. Azərbaycan yanacaq növlərinin təchizatçısı olmaqla yanaşı, tədricən Avropa İttifaqı üçün bərpaolunan enerji növlərini təchiz edən mühüm və etibarlı tərəfdaşa çevriləcək". O, həmçinin qeyd etmişdi ki, qaz sahəsindəki əməkdaşlığımız iqlimlə bağlı məsuliyyətimizlə uzlaşmalıdır. Buraya metan qazının tullantıları da daxildir və imzalanan memorandum bütün qaz təchizatı zənciri boyu metan qazının tullantılarının azaldılması ilə bağlı öhdəlik nəzərdə tutur: "Mən Azərbaycanı qlobal metan öhdəliyinə qoşulmağa dəvət edirəm. Bu günə qədər bu öhdəlik 119 ölkə tərəfindən dəstəklənib. Azərbaycan böyük tərəqqiyə nail olub, nümayiş və təqdim etməyə bir çox nailiyyəti var".

Dövlətimizin başçısı sözügedən memorandumu "gələcək üçün yol xəritəsi" kimi qiymətləndirmişdi. Avropa İttifaqı ilə əvvəllər imzalanmış və həyata keçirilmiş enerji layihələrini xatırladaraq bildirmişdi ki, bu razılaşmanın da uğurlu olacağına əmindir və Azərbaycanın təkcə neft-qaz sahəsində yox, həm də külək-günəş kimi alternativ enerji mənbələrində böyük potensialı var. Azərbaycan Xəzərdə ən böyük ticarət donanmasına, modern infrastruktura, gəmiqayırma zavoduna, yeni dəniz limanına və onu bütün qonşuları ilə əlaqələndirən dəmir yoluna malikdir. "Azərbaycanın coğrafi mövqeyini və modern nəqliyyat infrastrukturunu nəzərə alsaq, bizim potensialımızın əlaqələndirilməsi istiqamətində daha fəal işləməyimizə ehtiyac var", - deyə dövlətimizin başçısı bildirmişdi.

Bu gün Azərbaycan artıq 14 ölkəyə qaz ixrac edir. Bunlar Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna və Suriyadır. Göründüyü kimi, hazırda Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 üzv dövləti Azərbaycan qazı alır. Bu, Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm töhfədir. Təsadüfi deyil ki, hazırda ölkəmizi Pan-Avropa qaz təchizatçısı adlandırırlar.

Beş ilə yaxındır TAP (Trans-Adriatik Qaz Boru Kəməri) vasitəsilə Azərbaycan qazı Avropaya ixrac edilir. TAP uzun məsafə qət edərək Azərbaycan qazını İtaliyanın cənubuna, bu ölkədən də Qərbi Avropaya çatdırır. Bu, uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir. Xəttin bir neçə kilometrlik hissəsi İtaliyada quru sahəyə çıxır və burada kəmər həmin ölkənin qaz nəqliyyatı şəbəkəsi ilə birləşir. Boru xətti 2020-ci ilin son günündən başlayaraq, fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir.

Yeni çağırışlar qarşısında qaza tələbatın artması və bu ehtiyacın ödənilməsi kompleks tədbirlərin görülməsini, o cümlədən ixrac infrastrukturunun şaxələndirilməsini zərurətə çevirir. 2022-ci il oktyabrın 1-də Bolqarıstanın paytaxtı Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun istifadəyə verilməsi də bu tələbatın ödənilməsi məqsədindən irəli gəlmişdir. 2023-cü il dekabrın 10-da isə Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi keçirilmişdir. İnfrastrukturun şaxələndirilməsi Avropada və onun hüdudlarından kənarda enerji təhlükəsizliyinin təmin edilməsində və təchizat marşrutlarının diversifikasiyasında ölkəmizim strateji rolunu artırır.

Biz Avropaya "yaşıl dəhliz" açmağı da hədəfləmişik. "Yaşıl gündəliyimiz" hamıya bəllidir. 2030-cu ilə qədər artıq imzalanmış investisiya müqavilələri əsasında ölkəmizdə ən azı 6 qiqavatlıq "yaşıl enerji" - günəş, külək və su-elektrik enerjisi istehsal ediləcək. İstehsal olunan enerjinin bir hissəsi də ixraca yönəldiləcək. Odur ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalandı. Bunun üçün Qara dənizin dibi ilə "yaşıl enerji" kabeli çəkiləcək. Ötən il Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında da "yaşıl enerji" ilə bağlı sənəd imzalanıb. Bununla da biz Mərkəzi Asiyanı, Qafqazı, Avropanı, Xəzər və Qara dənizləri vahid enerji dəhlizi ilə birləşdirəcəyik.

Keçən ay Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarovun Avropa İttifaqının Genişlənmə və Şərq Qonşuluğu üzrə Komissarı xanım Marta Kosla görüşündə toxunulan məsələləri də yada salaq. Görüşdə Aİ ilə Azərbaycan arasında enerji və investisiyalar sahəsində uğurlu əlaqələr qeyd olunmaqla yanaşı bildirilib ki, həmçinin nəqliyyat sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər var. Görüşdə Azərbaycan və Avropa Komissiyası arasında minatəmizləmə, su ehtiyatlarının idarəolunması və nəqliyyat sahələrinin davamlı inkişafına dəstək layihəsi üzrə maliyyələşdirmə sazişinin layihəsi ətrafında fikir mübadiləsi aparılıb.

Deməli, Azərbaycan-Avropa İttifaqı iqtisadi əlaqələrinin getdikcə genişlənməsi üçün pespektivlər çox, inam böyükdür.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Aqrar biznes festivalının növbəti ünvanı Biləsuvar oldu

**Biləsuvar şəhərindəki Heydər Əliyev parkında rayon icra hakimiyyəti, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi, Aqrar Xidmətlər Agentliyi və Azərbaycan Toxumçular Assosiasiyasının təşəbbüsü ilə Toxum sərgi-satış yarmarkası və Aqrar biznes festivalı keçirilib.**



Festivalda Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Aqrar İnnovasiya Mərkəzinin rəhbəri Anar Cəfərov, qurumun əməkdaşları, sahibkarlar, fermerlər, müxtəlif dövlət strukturlarının nümayəndələri, özəl sektor təmsilçiləri və rayon ictimaiyyəti iştirak ediblər. Çıxış edən F.Qürbətov vurğulayıb ki, kənd təsərrüfatının inkişafı dövlət siyasətinin əsas istiqamətlərindəndir və bölgələrdə bu cür festivalların təşkili fermerlərin peşəkarlığının artırılmasına, məhsuldarlığın yüksəlməsinə və sahibkarlıq imkanlarının genişlənməsinə əhəmiyyətli dəstək verir. O, həmçinin rayonun aqrar sahədə potensialından danışaraq, toxumçuluğun inkişafına xüsusi önəm verildiyini bildirib. Qeyd edib ki, keçirilən sərgi-satış yarmarkası fermerlərin yüksəkkeyfiyyətli toxum əldə etməsi üçün əlverişli imkan yaradır.

A.Cəfərov isə çıxışında ölkənin müxtəlif bölgələrində reallaşdırılan Aqrar biznes festivallarının maarifləndirici məzmunu, dövlət və özəl sektor arasında əməkdaşlıq barədə danışıb. O, sertifikatlı toxumlardan istifadənin əhəmiyyətini qeyd edərək fermerlərin müasir texnologiya və yeniliklərlə tanışlığı baxımından bu cür tədbirlərin mühüm rol oynadığını bildirib.

Festival çərçivəsində fermerlərə əkin prosesində aqrotexniki tələblərin yerinə yetirilməsi, torpaq-iqlim şəraitinə uyğun toxum sortlarının seçilməsi və düzgün qulluq tədbirləri haqqında ətraflı məlumat təqdim olunub.

Tədbirin əsas məqsədi kənd təsərrüfatının innovativ əsaslarla inkişafını stimullaşdırmaq, fermerlərlə təchizatçılar arasında əməkdaşlığı gücləndirmək, rayonlaşdırılmış sertifikatlı toxumların əlçatanlığını təmin etmək, məhsuldarlığın yüksəlməsinə və bölgədə aqrar istehsalın davamlı inkişafına dəstək verməkdir.

## Hacıqabulda sahibkarlarla görüş keçirilib

**Hacıqabul Rayon İcra Hakimiyyətinin dəstəyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə təşkil olunmuş görüşdə rayonun kənd təsərrüfatı, sənaye, turizm, pərakəndə satış, ictimai iaşə sahələrində fəaliyyət göstərən 90-a yaxın sahibkar iştirak edib.**

RİH-in başçısı S.Hətəmov və KOBİA idarə heyətinin sədri O.Məmmədov çıxışlarında Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğıdan, sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət dəstəyi, bu dəstək alətlərindən istifadə etməklə rayonun biznes potensialının reallaşdırılması, eləcə də Hacıqabulda sahibkarlıq fəaliyyəti üçün mövcud olan imkanlar barədə danışıblar. Qeyd olunub ki, rayonun iqtisadiyyatı əsasən kənd təsərrüfatı yönümlü olmasına baxmayaraq, Hacıqabul Sənaye Məhəlləsinin yaradılması ilə rayonda sənaye sahəsində də inkişaf əldə edilmişdir.

O da vurğulanıb ki, sahibkarların birgə fəaliyyətə üstünlük verməklə resurslarını birləşdirməsi və təcrübə mübadiləsi aparması yerli sahibkarlığın inkişafını sürətləndirə bilər. Biznes fəaliyyəti ilə bağlı rəqəmsal alətlərdən istifadəyə və bazar araşdırmalarına əsaslanan layihələrə üstünlük verilməsi də faydalı olar. Diqqətə çatdırılıb ki, biznesə başlamaq və onu inkişaf etdirmək üçün dövlətin dəstək alətləri, bu sahədə yeniliklər, rayonun biznes və investisiya potensialı barədə ətraflı məlumat üçün sahibkarlar KOB Dostu ofislərinə müraciət edə bilərlər.



Tədbir çərçivəsində sahibkarlarla torpağın təyinatının dəyişdirilməsi, güzəştli kreditlərdən istifadə olunaraq biznesin inkişaf etdirilməsi, güzəştli kreditlərlə əkin sahələrində müasir suvarma şəbəkəsinin qurulması, sahibkar-bank münasibətləri və digər məsələlərlə bağlı müzakirələr aparılıb, biznes subyektlərinin sualları cavablandırılıb.

Sonra Hacıqabul rayonunda fəaliyyət göstərən "Şirniyyat" MMC-nin istehsalı sexinə baxış keçirilib, sahibkarla biznesin inkişafına dair fikir mübadiləsi aparılıb.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# İnhisarçılıq inkişafın buxovudur

### II Milli Rəqabət Forumunda ədalətli bazar münasibətləri geniş müzakirə olunub

**Dünya təcrübəsindən məlumdur ki, liberal iqtisadiyyatın inkişafında münbit rəqabət şəraitinin olması önəmli şərtdir. Təbii inhisar xaric iqtisadiyyatın müxtəlif sahələrinin monopoliyaya alınması rəqabət mühitini aradan qaldırır ki, bu da satış qiymətlərinin süni şəkildə şişirdilməsinə və istehlakçıların hüquqlarının pozulmasına səbəb olur.**

Münbit rəqabət imkanı olmadıqda inhisarçılar nəzarət etdikləri sahələri inkişaf etdirmək üçün investisiya qoyuluşuna maraq göstərmirlər. Onlar nəzarət etdikləri sahələrdə yeni texnika və texnologiyalardan istifadə etmədikləri üçün məhsulun keyfiyyəti aşağı düşür, alıcılar isə başqa imkan olmadıqları üçün bu məhsulları almağa məcbur qalırlar.

Bütün bu və digər səbəblərdən Azərbaycanda icra edilən islahatların hədəflərindən biri də ölkə iqtisadiyyatında rəqabət mühitinin yaradılmasıdır. Son dövrlər bu istiqamətdə qanunvericilikdə bir sıra dəyişiklik olunub və antiinhisarçılıqla bağlı qəbul edilən qanunlar bu sahədə hüquqi tənzimləmənin təmin olunmasına yönəlib. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin təşkilatçılığı ilə keçirilən II Milli Rəqabət Forumunda da bu məsələ geniş şəkildə müzakirə olunub. Bununla bağlı AZƏRTAC-ın yaydığı məlumatda bildirilir ki, forum müasir iqtisadi şəraitdə rəqabət siyasətinin təhlili, təbii inhisarların fəaliyyətinin tənzimlənməsi, bu sahədə mövcud çağırışlar və ictimai maraqların qorunması, eləcə də effektiv və ədalətli bazar münasibətlərinin formalaşdırılması istiqamətində fikir mübadiləsinin aparılması məqsədilə təşkil olunub. Tədbirdə ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi və iqtisadiyyatın diversifikasiyası üçün əlverişli rəqabət şəraitinin vacibliyi, eləcə də kiçik və orta biznesin inkişafında, iqtisadiyyatın inklüzivliyinin təminində və sosial rifahın artırılmasında rəqabət siyasətinin stimullaşdırıcı rolu diqqətə çatdırılıb. Rəqabət Məcəlləsinin qəbulunun ədalətli və şəffaf iqtisadi mühitin formalaşdırılması, sahibkarlıq subyektləri üçün bərabər imkanların yaradılması, hüquqi müəyyənliyin təmin olunması baxımından strateji əhəmiyyət daşıdığı vurğulanıb. Bildirilib ki, forumda müzakirə olunan məsələlər rəqabət siyasətinin gələcək prioritetlərinin müəyyən edilməsinə, dinamik və dəstəkləyici tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsinə əhəmiyyətli töhfə verəcək.

Forum "Müasir rəqabət çağırışları və dəyişən siyasət: Rəqabət siyasətinin iqtisadi inkişafda rolu" mövzusunda paneldə "Pasha Holding"in baş icraçı direktorunun müavini Dəyanət Sədullayev, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ayaz Müseyibov, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin icraçı direktoru Samir Mahmudov və "PricewaterhouseCoopers (PwC) Azerbaijan" şirkətinin Hüquq praktikasının direktoru Elçin Məmmədovun çıxışları dinlənilib. Çıxış edənlər müzakirələr zamanı rəqabət siyasətinin iqtisadi inkişafda rolu, rəqabət tənzimləmələrinin biznes mühitinə təsirləri, rəqəmsal platformalarda meydana çıxan yeni rəqabət çağırışları, transsərhəd rəqabət pozuntularının qarşısının alınması, eləcə də ötən il qəbul olunmuş Rəqabət Məcəlləsinin bazar iştirakçılarının davranışlarına ilkin təsirləri kimi mühüm məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.




"Təbii inhisarların tənzimlənməsi: Rəqabət və ictimai maraqlar" adlı növbəti panel müzakirədə "Azerconnect Group"un baş direktorunun müşaviri Nicat İsmayılov, "Azəriqaz" İB-nin baş direktorunun strategiya və dayanıqlılıq üzrə müavini Təbriz Əmmayev, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müşaviri Əsəd Şirinov və İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin Hüquq və sənədlərlə iş departamentinin direktoru Oktay Məhərrəmov iştirak ediblər. Panel müzakirəsində təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsinin əsas prinsipləri, enerji, nəqliyyat, telekommunikasiya, su təsərrüfatı və digər strateji sahələrdə təbii inhisar subyektlərinin fəaliyyətində ictimai maraqların qorunması, təbii inhisar subyektlərinin maliyyə dayanıqlılığının təmin edilməsi, eləcə də özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektləri ilə təbii inhisarların qarşılıqlı fəaliyyətinin təşkili məsələləri müzakirə edilib.

Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov II Milli Rəqabət Forumunda çıxışı zamanı bildirib ki, qarşıdakı dövrlərdə əsas hədəfimiz rəqabət mühitinin gücləndirilməsi, dövlət satınalmalarında çox iştirakçılığın təmin olunması, kiçik və orta sahibkarlığın dəstəklənməsi olacaq. Onun sözlərinə görə, rəqabət mühitinin təmin olunması həm dayanıqlı iqtisadi inkişafı, həm də sənayeləşmə səviyyəsinin yüksəlməsini şərtləndirir: "Bu, biznes subyektlərinin gəlirliyinin artmasına və iqtisadi şaxələndirmənin genişlənməsinə şərait yaradacaq, dövlət satınalmalarında çoxiştirakçılıq təmin ediləcək. Azərbaycanda rəqabətlə birbaşa bağlı sahələrdən biri də dövlət satınalmaları və keyfiyyət infrastrukturudur. Bu istiqamətdə əsas məqsəd büdcə vəsaitlərindən səmərəli istifadənin təmin olunması, sahibkarların dövlət satınalmalarında iştirak imkanlarının genişləndirilməsi, məhsul və xidmətlər üzrə dəqiq standartların müəyyənləşdirilməsi və keyfiyyət infrastrukturunun inkişafının stimullaşdırılmasıdır. Bütün bunlar ölkədə əlverişli biznes mühitinin formalaşmasına xidmət edir".

Bu il ərzində baş verən rəqabət qanunvericiliyinin pozulması halları ilə bağlı danışan qurum rəhbəri cari ilin 8 ayı ərzində ötən ilin müvafiq dövrünə nisbətən bazar subyektləri tərəfindən haqsız rəqabətə yol verilməsinin, eləcə də iqtisadi təmərküzləşmə əməliyyatları üzrə baxılmış müraciətlərin 2 dəfəyədək, qanunsuz reklamların yayımı və təbii inhisar subyektlərinin göstərdiyi xidmətlərlə əlaqədar baxılmış müraciətlərin isə 20 faizədək artdığını da vurğulayıb: "Hesabat dövründə 83 təmərküzləşmə əməliyyatı araşdırılıb. Bütün bunlar rəqabət mühitində fəallığı və davamlı inkişaf dinamikasını nümayiş etdirir. Əlavə olaraq, bu il ərzində haqsız rəqabətə yol verilməklə rəqabət qanunvericiliyinin pozulması ilə bağlı 54 araşdırmaya başlanılıb və 12 iş qaldırılıb. Görülən tədbirlərin bir məqsədi var: rəqabəti pozan davranışlardan çəkindirmək və rəqabət mədəniyyətinin təşəkkülünə nail olmaq".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür

# Qəlbi Xocalı ilə döyünən müəllim

## Zəminə MƏMMƏDOVA : "33 ildən sonra Xocalıda müəllim kimi yenidən çalışmağa başladığım üçün xoşbəxtəm"

**"Bir qərinəlik həsrətdən sonra doğulduğum torpağa, Xocalıya qədəm qoymaq çox çətin, ağrılı idi. Axı insan hər addımda, hər yerdə bir iz görmək istəyir, gözü kimisə axtarırdı… Amma… Heç burada gedəcəyimiz bir ev, hər zaman həyatimizdə bizi sevgi ilə qarşılayan ata-anamız da daha yox idi. Atamın yurdu yerli-dibli yoxa çıxmışdı. Vaxtilə bəxtəvər günlər yaşadığımız məhəllələr, küçələr, evlər, oxuduğumuz məktəb tamamilə torpağın altında qalmışdı. Ancaq hər halı ilə bura bizim üçün vətən idi. Doğmalığı, ətri ilə özünə maqnit kimi cəzb edirdi bizi. Bilirsiniz, sanki Xocalının sehrli bir cazibəsi var. Torpaqmı, təbiətmi çəkir özünə insanı?!. Bilmirəm… Sadəcə bildiyim odur ki, bura şəhidlərimizin qanları ilə suvarılıb laləzara çevrilən vətəndir. Qışının şaxta-sazağına, yazının gül-çiçəyinə qurban olduğumuz Xocalıdır".**




### Acılı-şirinli xatirələrin izi ilə

Azərbaycan dili və ədəbiyyatı müəllimi Zəminə Əmir qızı Məmmədova Xocalı şəhər 1 nömrəli tam orta məktəbdə dərs demək üçün Qarabağa yollanacağı o günün gecəsini yatmamış, xəyallarında dağı-arana daşımış, səhəri dirigözlü açmışdı… Zarafat deyildi, aradan keçən ağır və məşəqətli üç onillikdən sonra yenidən özünün də vaxtilə oxuduğu və cəmi bir il müəllim kimi fəaliyyət göstərdiyi bu məktəbə dərs keçməyə yollanırdı. İndi yenidən qurulan ana vətəni Xocalıda dirçəlişi təmsil edən uşaqlara, gənclərə sevdiyi fənni əxz edəcəkdi, onların ruhuna vətən, torpaq sevgisi aşılayacaqdı… İllər əvvəl olduğu kimi…

Beləcə Zəminə müəllim özündən ixtiyarsız bir andaca xatirələrin qanadında 1992-ci il fevralın o üzündəki Xocalıya getmiş, şagird, tələbə, müəllim olduğu illərə baş çəkmişdi. Uzun və qaranlıq gecələrdə Xocalıdakı evlərinin pəncərəsində alovlanan lampanın başına cəm olan ailəsinin bütöv və xoşbəxt olduğu günlərə qayıtmışdı. Budur, yenə də anası Məhluqə əlində kitab ondan hansısa şeiri soruşur, bacı-qardaşları Kamil, Kamal, Zülfiyyə və Zərifə sabahkı dərslərini həvəslə hazırlayır, atası Əmir isə mütaliə etdiyi bədii kitabı bitirərək, növbətisinə keçirdi…

Sonra Xankəndidə, Şuşada keçən tələbəlik illəri, cəmi birillik müəllimlik fəaliyyəti, ozamankı şagirdləri gözlərinin önündən kino lenti kimi sürətlə şütüyüb ötür, şirin xatirələri qəfil Xocalının o məşum günü ilə üz-üzə gəlib yarıda qırılırdı… İtkin qardaşı Kamil Məmmədovun nisgilli surəti xatirələrinə kölgə salırdı… Zəminə müəllim acı göz yaşlarına boğulurdu. Haradansa qulağına oğlunu haraylayan ağsaçlı anasının yanıqlı bayatısı gəlirdi.

*Əzizim diri dağı,*
*Dolan, gəz diri dağı,*
*hər yaralar sağalar,*
*sağalmaz diri dağı.*

"Bilirsiniz, bu ağrı-acılı məqamda mənə toxtaqlıq, ürək-dirək verən nə idi? Vətənə qovuşmağımızın sevinci. Bu İlahi möcüzə idi. Düzdür, bilirdim ki, bu torpaqlar bizimdir, bir gün mütləq azad ediləcək. Amma özümün bu günləri görəcəyim, yenidən Xocalıya qədəm qoyacağım, orada müəllim kimi fəaliyyətə başlayacağım ağlıma gəlməzdi. 32 ildən sonra Xocalıda 1 nömrəli məktəbdə çalınan ilk zəng şagirdləri dərsə səslədi. Onilliklərdən sonra mən doğma məktəbimdə sevdiyim müəllimlik peşəsini icra etməyə başladım. Sinif otağındakı xocalılı şagirdlərin qürur yağan baxışları elə bil illərdir ürəyimizdə buz kimi asılıb qalan dərin yaralara da məlhəm oldu, onları əritdi… Bütün bunlar mənim üçün xoşbəxtliyin özü deməkdir".

"Biz qayıtdıq, Vətən!" rubrikasının budəfəki qonağı Xocalı sakini, Xocalı şəhər 1 nömrəli tam orta məktəbin Azərbaycan dili və Ədəbiyyatı müəllimi Zəminə Məmmədovadır.

5 Oktyabr Beynəlxalq Müəllimlər Günü ərəfəsində Zəminə müəllimlə Xocalıda keçirdiyi fərəhli günlərdən, Xocalısız ötən zamanın ağrı-acısından söhbət açdıq, qayıdış sevincini bölüşdük.

20 noyabr 1969-cu ildə Xocalı şəhərində fəhlə ailəsində dünyaya göz açan Zəminə Məmmədovanın atası elektrik, anası evdar qadın olub. Amma valideynlərinin özlərinin təhsilalma imkanlarının olmamasına baxmayaraq, təhsilə, oxumağa böyük marağı olan insanlar olublar.

- Tam əminliklə deyərdim ki, elə mənim ilk müəllimlərim ata-anam olub. Təhsilsiz olsa da, anamın çox gözəl xətti var idi. O, hər gün dəftərimizi, kitabımızı yoxlayardı, dərslərimizi soruşardı. O qədər iş-gücün arasında, yorğun halına baxmayaraq, hər axşam beş uşağının dərsi ilə maraqlanardı. Həmişə bizə müəllimlərimizə hörmətlə yanaşmağımızı söyləyərdi. Yəni anam bizə bir növ məktəbi, müəllimi sevdirirdi. Kitablara sevgini isə atamdan öyrəndik. O, gün ərzində işdə olurdu, axşam evə gəldikdə isə pəncərənin ağzında yanan lampanın işığında gecə yarısına qədər gündəlik qəzetləri oxuyardı. Sonra isə mütləq hansısa bədii kitabı mütaliə edərdi. Böyük qardaşım Kamil də təhsilə həvəsli, çox kitab oxuyan idi və dərslərimizə o da nəzarət edərdi. Belə bir ailədə böyüyub boya-başa çatdım. Ona görə hər zaman deyirəm ki, uşaq qulaqla deyil, gözlə tərbiyə olunur. Yəni gözümüzü açıb, həmişə əlində qəzet, kitab olan ata, təhsilə bu qədər maraqlı ana olan bir ailədə yaşadıq. Ailədə beş bacı-qardaş idik, hamımız da məktəbi əla oxuyurduq. Buna görə də ata-anam birlikdə valideyn iclaslarında həvəslə iştirak edərdilər. Bilirdilər ki, övladlarının həm təhsillərindən, həm tərbiyələrindən bütün müəllimlər razılıq edəcəklər. Onlar bizə görə çox fərəhlənirdilər. Biz də elə bilirdik ki, bununla valideynlərimizin qarşısında borcumuzu veririk və buna görə çox sevinirdik.

### Xocalının vətənpərvər şagirdləri və müəllimləri

- Əvvəlcə biz Xocalıda 8 illik məktəbdə təhsil alırdıq. Məktəbimizin direktoru Cəfər, dərs hissə müdiri Nərgiz müəllim idi. Həmçinin Tamella, Həmid, Bəhram, Anahid kimi dəyərli müəllimlər burada dərs deyirdilər. Həma-



yil isə ibtidai sinif müəllimim idi. O, Xocalı faciəsi günü meşədə öldürülənlərdən biri oldu. Hətta onun nəşini belə gətirə bilmədilər...

Azərbaycan dili və Ədəbiyyatı müəllimi olmaq həvəsini isə məndə məktəbimizə Malıbəyli kəndindən gəlmiş Rəfail müəllim yaratmışdı. O, çox nüfuzlu, hər şeyi ilə nümunə olan müəllim idi. Tədris etdiyi fənni uşaqlara çox sevdirirdi. Beləliklə, mən də qərarımı vermişdim ki, Rəfail müəllim kimi Azərbaycan dili və Ədəbiyyatı müəllimi olacam. 9-cu sinifdən sonra təhsilimi Xocalının digər hissəsində yerləşən 10 illik məktəbdə davam elətdirdim. Bu məktəbin direktoru Cəmilə, dərs hissə müdiri isə Qüdrət müəllim idi. Həmçinin dəyərli Tahirə, Xalidə müəllimlərimi xatırlayıram. Burada Süsən adlı ibtidai sinif müəllimi var idi. Hansı ki, bəzi valideynlər öz uşaqlarını bir il məktəbə gec qoymağa razı olurdular ki, o məhz Süsən müəllimin sinfində oxusun.

Şərəf duyuram ki, Milli Qəhrəmanlar Tofiq Hüseynov və Ələsgər Novruzov kimi vətənpərvər şəxsiyyətlərdən vaxtilə dərs alanlardan biri də mən olmuşam. Ələsgər müəllim həm sinif rəhbərimiz idi, həm də bizə idman dərsi deyirdi. Tofiq Hüseynov isə Hərbi hazırlıq dərsi keçirdi. O bizi atışlara aparırdı, sərbəst atış öyrədirdi. Onu da deyim ki, üç sinif yoldaşım Xocalı faciəsi zamanı şəhid olub. Faiq girov düşən zaman ermənilər ona deyiblər ki, Qarabağın ermənilərin olduğunu söyləsin. Ancaq o bunu demədiyi üçün vəhşicəsinə öldürülmüşdü. Nadir faciə günü meşədə şəhid olub. Sinif yoldaşım Füzuli Rüstəmov isə Milli Qəhrəmandır. O, faciə zamanı dəfələrlə Xocalıya girərək qadın, uşaq və yaralıları təhlükəsiz zonaya çıxarıb. Ölümün pəncəsindən neçə-neçə insanı xilas edən Füzuli son anda özü düşmən gülləsinə tuş gələrək şəhid olub.

Xocalının bu cür cəsur, vətənpərvər övladları olub.

### Xankəndidə yarımçıq qalan tələbəlik

Zəminə Məmmədova 1986-cı ildə Xankəndi Pedaqoji İnstitutunun (indi Qarabağ Universiteti) Filologiya fakültəsinə daxil olur. Ancaq erməni fitnəsi nəticəsində yalnız iki il - 1986-1988-ci illərdə bu ali təhsil müəssisəsində oxuya bilir.

- Həmin dövrdə, Xankəndi Pedaqoji İnstitutunda həm Azərbaycan, həm rus, həm də erməni bölmələri var idi. Erməni və rus bölmələrində ermənilər, Azərbaycan bölməsində isə yalnız azərbaycanlılar təhsil alırdı. Düzünü deyim ki, əvvəlcə onlarla aramızda heç bir pis münasibət yox idi. Birlikdə pambıq yağımına da gedirdik. Yəni çox yaxın münasibətdə olmasaq da, heç pis münasibətimiz də yox idi. Amma 1988-ci ildə məlum hadisələr başlayandan sonra münasibətlər tamamilə dəyişdi. Xankəndidə yaşayıb təhsil alan azərbaycanlıların burada qalması artıq təhlükəli idi. Çünki onların üzərinə hücumlar olurdu. Ona görə də təşkil olunmuş avtobuslarla hər gün Ağdama gedib-gəlirdik. Bir dəfə isə mitinqlərdə "Qarabağ", "miatsum" deyə bağıran ermənilər institutun qarşısına toplaşdılar və azərbaycanlı tələbələrin üzərinə hücum etməyə çalışdılar. O vaxt rus ordusunun hərbçilərinin köməyi ilə bizi oradan birtəhər çıxartdılar. Onu da qeyd edim ki, həmin o normal münasibətimiz var dediyimiz erməni tələbələr də bizim tələbələrin üzərinə yeriyirdilər. Buna görə təhsilimizi artıq Gəncədə davam elətdirmək məcburiyyətində qaldıq. Sonra isə institutun Azərbaycan şöbəsi Şuşada fəaliyyət göstərməyə başladı.

1991-ci ildə Qarabağın azərbaycanlılar yaşayan kəndlərində müəllim çatışmazlığı hiss olunurdu. Bizə təklif olundu ki, kim istəyirsə, könüllü olaraq məktəblərdə çalışa bilər. Həmin zaman əyani şöbə 5 illik idi və mən də sonuncu kursda oxuyurdum. Qərar verdim və könüllü olaraq Xocalı 8 illik məktəbinə müəllim kimi qayıtdım. Beləliklə, ilk peşə fəaliyyətimə də öz ilk təhsil aldığım məktəbdə başladım.

### "O məşum gün qardaşımı bizdən ömürlük ayırdı"

- Həmin dövrdə Xocalıda vəziyyət olduqca acınacaqlı idi. Çünki Xocalı hər tərəfdən ermənilərlə əhatə olunmuşdu. İnsanlarımız blokada şəraitində yaşayırdılar. Hər axşam düşmən raket və



*Zəminə Məmmədova iş yoldaşları ilə*

müxtəlif silahlarla Xocalını atəşə tuturdu. Gecələr əhali zirzəmilərdə gizlənirdi. Səhərlər hər kəs öz işinin dalınca gedirdi, müəllimlər və şagirdlər isə məktəbə yollanırdı. Bir müddət xocalılılar bu cür təhlükəli şəraitdə yaşamalı oldular.

26 fevral 1992-ci ildə məlum faciə, Xocalı soyqırımı baş verdi. Ailəmiz faciədən bir qədər əvvəl Ağdama gəlmişdi. Amma atamla böyük qardaşım Kamil Xocalıda idilər. Kamil institutu fərqlənmə diplomu ilə bitirdikdən sonra təyinatla Çelyabinskdə işə götürülmüşdü. 1988-ci ildə Qarabağdakı hadisələr zamanı tutduğu böyük vəzifədən imtina edərək Xocalıya qayıtmışdı. Hərbi təhsili olduğuna görə atış istiqamətini düzgün hesablamaqda döyüşçülərimizə böyük yardımı dəyirdi. Ona görə də demək olar ki, Kamil ev üzü tanımırdı, bütün gün postlarda olurdu. Fevralın 26-sı günü də o, postda olur. Atam isə evdə gözləyir ki, qardaşım gəlsin birlikdə Xocalıdan çıxsınlar. Evimiz ikimərtəbəli idi, atam aşağı mərtəbədə qardaşımı gözləyir, qardaşım isə gizlincə gəlib ikinci mərtəbədən sənədlər olan balaca çanta var idi, onu götürür və meşə istiqamətində çıxır. Yəni atamla-qardaşımın bir-birilərindən xəbərləri olmur. Kamil uşaqların, qadınların, yaşlıların Qarqar çayından keçməsi üçün xeyli kömək edir. Onlar güc-bəla ilə özlərini meşəyə yetirirlər və bir müddətdən sonra çox yorğun olduqları, yeriməyə taqətləri belə olmadığı üçün meşənin içərisində əyləşib dincəlmək istəyirlər. Ancaq bu zaman ermənilər onları mühasirəyə alırlar. O vaxtdan sonra 33 yaşlı qardaşımın taleyindən heç bir xəbər ala bilməmişik, düz 33 ildir ki, onun yolunu gözləyirik... Xocalıda yaşanan o məşum gün qardaşımı ömürlük bizdən ayırdı.

Ata-anam Kamil deyə-deyə bu dünyadan köçdülər. Ürəklərində oğul dağı olan valideynlərimin gözü arxada qaldı...

...Faciə günü atam bütün gecəni qardaşımı gözləyir. Səhər üzü baxır ki, ermənilər qardaşının qarşı tərəfdə yerləşən evini talayıb aparırlar. Bunu görən atam min bir əziyyətlə, alın təri ilə tikdiyi evinə ürək ağrısı ilə od vuraraq gizlənə-gizlənə Ağdama gəlir. O, bir müddət burada xəstəxanada müalicə aldı.

Yaşadıqları bütün bu travmalar, faciələr valideynlərimi dərindən sarsıtdı. Bir müddətdən sonra atam infarkt keçirtdi və dünyasını dəyişdi.

Bu dünyada gözü yolda olmaq ən ağır, ən acınacaqlı haldır. Kamilin nə öldüyünü bildik, nə də yaşadığını. Bir məzarı belə olmadı ki, üzərində ağlayaq, onun yasını tutaq. Biz ailə olaraq qardaşımın faciəsini başqa cür yaşadıq (ağlayır).

### Ümid, inam və qayıdış

- Atam yaşadığı müddətdə amma həmişə Xocaliya mütləq qaydacağıq deyirdi. Valideynlərim bu günləri görə bilməsə də, bizə torpaqlarımızın azadlığının sevincini yaşamaq nəsib oldu. Xocalı azad ediləndən sonra dedilər ki, məktəb ora köçürüldüyü zaman müəllimlərdən kim istəsə könüllü olaraq burada işləməyə gələ bilər. Mən, qardaşımın yoldaşı Tamella müəllim, eləcə də Nazilə və Ruhiyyə müəllimlər ilk könüllülərdən olduq. Onu da deyim ki, bu müəllimlərin də hər birinin şəhidləri var. Nazilə müəllimin qardaşı, Ruhiyyə müəllimin, məktəbin direktoru Nəvai müəllimin ataları şəhiddir. Kimin ki, şəhidi, daha çox ağrı-acısı var idi, sanki birinci onlar bu torpağa gəlməyə can atırdı. Bir növ belə düşündük ki, biz gəlib burada şəhid, itkin doğmalarımıza, əzizlərimizə qovuşuruq.

Beləliklə, Xocalı şəhər 1 nömrəli tam orta məktəbdə fəaliyyətə başladıq. Əvvəlcə şagird sayı az idi, amma buna baxmayaraq, həvəslə işimizi icra etdik. Dediyim kimi, 1991-ci ildə də bir il müddətində bu məktəbdə çalışmışdım. O zamanlar çox çətin vəziyyət idi. Bəlkə də hələ heç müəllim kimi özümü tam göstərə də bilməmişdim. İşğaldan sonra Xocalı məktəbi Naftalanda, daha sonra Goranboyda fəaliyyət göstərmişdi. Və mən Goranboyda da, Naftalanda da eyni məktəbdə çalışmışam. İndi isə Allaha çox şükür ki, doğulduğum, boya-başa çatdığım yur-



dumdayam, Xocalıda yenidən müəllim kimi fəaliyyət göstərirəm.

Əlbəttə ki, Azərbaycanın hər yeri bizim üçün vətəndir. Amma insanı özünə bağlayan torpaq da var. Bu torpaq müqəddəsdir. Ona görə ki, bu torpaqda hamımızın əzizlərinin qanı var. Azərbaycanın igid oğullarının qanı var. Qanla yoğrulan torpaq vətəndir. Bəlkə elə bizi Xocalıya bağlayan da budur. Bu torpağı yenidən bizə qaytaran şəhidlərimizin, onları böyüdən ata-ananın qarşısında baş əyirəm. Bu torpaq uğrunda savaşaraq sağlamlığını itirən qazilərə cansağlığı arzulayıram. Müzəffər Ali Baş Komandan İlham Əliyevə ömür boyu minnətdar olacağıq. Cənab Prezidentimizin yürütdüyü uzaqgörən siyasət, bir Ali Baş Komandan kimi həyata keçirdiyi mükəmməl hərbi taktika sayəsində biz Qarabağa, Xocalıya qovuşduq, məcburi köçkün adından qurtulduq. Qisasları alındığı üçün Vətənimizin bütövlüyü uğrunda şəhid olan bütün oğul və qızlarımızın ruhu artıq şaddır.

Bundan sonra doğma yurdumuzda yalnız qurub-yaratmaq eşqi ilə yaşayacağıq. Xocalının küçələrindən, evlərindən daha körpələrimizin, uşaqlarımızın şən sədaları yüksələcək.

Bu, 56 illik ömrünə vətənsizliyi, qardaşsızlığı, məcburi köçkünlüyün maddi-mənəvi çətinliklərini sığdıran bir müəllimin mübarizələrdən keçən həyat yolu idi...

Başdan-başa sınaqlarla dolu bir ömür yaşayan xocalılı bu müəllimin həyat yolu həm də Azərbaycan gəncliyinin örnək götürəcəyi nümunədir. Peşəsini ürəkdən sevən bu vətənpərvər müəllim 1990-cı illərin əvvəllərindəki ağır günlərdə Qarabağda şagirdlərimizin təhsildən geri qalmamaları üçün könüllü olmuşdu. Eləcə də onilliklərdən sonra yenidən Xocalıda işıq saçan təhsil məşəlinin şöləsinə yığışan ilk müəllimlərdən biri də Zəminə Məmmədova idi. Hər zaman sevə-sevə, can-dildən ana yurdun səsinə səs verən, Vətənin könüllü və zəhmətkeş müəllimi...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Müəllim ömrü

**Müəllim - bu, cəmiyyətin inkişafında, gənclərin formalaşmasında və milli dəyərlərin qorunmasında əvəzsiz rola malik olan bir peşədir. Hər bir müəllim öz ömrünü yalnız dərs vermək, tələbələrini təhsillə tanış etmək ilə deyil, həm də onların ruhunu, həyatına olan baxışlarını və gələcəyini formalaşdırmaqla keçirir. Hər bir müəllimin həyatı, böyük bir zəhmət və sevgi ilə yazılmış bir əsər kimidir. Müəllim ömrü isə bu əsərin necə yazıldığını, hansı məqamların önəmli olduğunu və həyat yolunun nə qədər çətin, həm də mənalı olduğunu göstərir.**



Hər bir insanın yüksək savadlılığa, peşəkarlığa yiyələnməsində ən böyük rol müəllimin üzərinə düşür.

Müəllim yalnız bilik ötürən deyil, eyni zamanda şəxsiyyət yetişdirən bir yaradıcıdır. O, tələbələrinə biliklərdən daha çox həyat təcrübəsi, düzgün qərarlar vermək bacarığı və hər zaman yaxşılıq edərək, başqalarına kömək əli uzatmağı öyrədir.

Belə müsbət keyfiyyətə malik olan müəllimlərdən biri də yüksək pedaqoji məharətə sahib olan Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Sənayənin təşkili və idarə edilməsi" kafedrasının dosenti, texnika elmləri namizədi, bu günlərdə 80 yaşını qeyd edən Eldar Rəhimovdur.

Qocaman pedaqoqun həyatına nəzər saldıqda görürük ki, o, 1945-ci ilin sentyabr ayında, Quba rayonunun Rustov kəndində müəllim ailəsində dünyaya göz açmışdır. Eldar müəllim 1963-cü ildə dünyaya göz açdığı kənddə orta məktəbi bitirmiş, 1965-1970-ci illərdə Azərbaycan Politexnik Universitetinin İnşaat fakültəsinin "Sənayə və mülki tikinti" ixtisası üzrə təhsil alaraq mühəndis ixtisasına yiyələnmişdir. Politexnik institutunu başa vurduqdan sonra o, ixtisası üzrə müxtəlif vəzifələrdə çalışıb. 1994-cü ildən bu günə qədər isə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Sənayənin təşkili və idarə edilməsi" kafedrasının dosenti vəzifəsində işləyir. 1992-ci ildə texniki elmləri üzrə namizədlik dissertasiyasını müdafiə edən Eldar Rəhimov 31 ildən çoxdur ki, Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Sənayənin təşkili və idarə edilməsi" kafedrasında elmi pedaqoji fəaliyyətlə məşğul olur. Tikinti sahəsində yüksək peşəkarlığa və təcrübəyə malik olan Eldar müəllim eyni zamanda nəzəri pedaqoji fəaliyyətində əldə etdiyi zəngin təcrübə ilə bilik və bacarığını sabahkı tikinti mühəndislərinə öyrədir. O, yüzlərlə tələbənin tikinti mühəndisliyi sahəsində yüksək biliyə nail olmasına əvəzsiz töhfəsini verir. Buna səbəb isə Eldar Rəhimovun tələbələrə göstərdiyi böyük qayğıkeşliyi, tələbkarlığı olub. O, eyni zamanda çalışdığı universitetin professor-müəllim və tələbə heyəti arasında hörmət, eləcə də böyük diqqət qazanıb. Bu gün onun yetişdirdiyi tələbələr, magistrlar ölkədə bir çox tikinti şirkətində, elmi-tədqiqat institutunda, həm də AzMİU-da onunla bərabər, çiyin-çiyinə müvəffəqiyyətlə çalışırlar.

Eldar müəllimin həyatı, əslində, böyük bir təhsil və elm yolunun hekayəsidir - çətinliklərlə, fədakarlıqla, amma eyni zamanda yüksək məqsədlərə doğru davam edən mübarizə dolu bir yoldur.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# MDU-da Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş tədbir keçirilib



**Mingəçevir Dövlət Universitetində (MDU) 5 Oktyabr Beynəlxalq Müəllimlər Gününə həsr edilmiş tədbir təşkil olunub.**

Bu barədə AZƏRTAC-a MDU-dan məlumat verilib.

Bildirilib ki, tədbir Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin suverenliyi, torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi, Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə MDU-nun rektoru Anar Eminov universitetin müəllimlərini Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik edib, onlara şərəfli peşə fəaliyyətlərində uğurlar arzulayıb. Gənc nəslin formalaşmasında müəllimlərin misilsiz rolundan söz açan rektor müəllimliyin insanın ömürlük missiyası olduğunu bildirib. Müəllimin yalnız bilik ötürən deyil, həm də həyat dərsi verən şəxs olduğunu diqqətə çatdıran A.Eminov onların əziyyətlərinin ən böyük bəhrəsinin yetişdirdikləri savadlı, vicdanlı və vətənpərvər gənclər olduğunu qeyd edib.

Sonra universitetin ən qocaman müəllimi, MDU-nun Xarici dillər kafedrasının dosenti Mayıl İsmayılov çıxış edib. O, müəllimlik peşəsini öz həyatının mənası kimi dəyərləndirdiyini bildirib, ömrünü gənc nəslin savadlı, vətənpərvər və vicdanlı yetişməsinə həsr etməkdən qürur duyduğunu vurğulayıb.

Daha sonra uzun illər MDU-da fəaliyyət göstərmiş və hazırda təqaüddə olan iki müəllim - Kərim Əliyev və Afayət Tanrıverdiyeva universitetin rektoru A.Eminov tərəfindən fəxri fərmanla təltif ediliblər. Onların pedaqoji fəaliyyətinə və universitetin inkişafına verdikləri töhfələrə görə xüsusi minnətdarlıq bildirilib.

Tədbir bədii hissə ilə davam edib.

5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür

# Müəllimlik ömürlük məsuliyyətdir

## Bu, 7 övlad böyüdən ailənin həyat devizidir

**Yolumuz Zərdabın Sarıqaya kəndinədir. Orada sadə, zəhmətkeş bir ailə yaşayır. Ailə başçısı idman müəllimi Amil Mustafayev təkcə dərs dediyi məktəbdə yox, yaşadığı kənddə, bütövlükdə Zərdabda sayılıb-seçilən, insanlara zəhmətin, ailə və mənəvi dəyərlərin gücünü göstərən nümunəvi bir insan olaraq tanınır.**





7 övlad atası olan Amil müəllim torpağa bağlılığı, kənd adamının zəhmətə söykənən həyat fəlsəfəsi ilə də seçilir. Onun həyat yoldaşı Sevda xanım isə Zərdab rayon Uşaq İncəsənət Məktəbində gənc nəslə milli musiqimizin incəliklərini, muğamlarımızın sirlərini öyrədir, qəlblərinə köçürür. Bu ailə nümunəsi həm müəllimlik, həm də valideynlik məfkurəsinin canlı təcəssümüdür.

Sarıqaya kəndində Amil müəllimin evini tapmaqda çətinlik çəkmirik. Küçədə əl-ələ tutub "Bənövşə" oyununu oynayan bir dəstə uşağın yanında avtomobilimizi saxlayıb Amil müəllimin yaşadığı ünvanı soruşuruq. Uşaqlar maşına tərəf qaçırlar. "Əmi, Amil müəllim bizim atamızdır, çağıraq?", - deyə uşaqlardan biri, "ata, ata" deyərək həyət tərəfə qaçır. Gözaltı uşaqlara diqqət yetiririk. Yox, burada uşaq 7-dən çoxdur.

Çox keçmir ki, küçə qapısından gülərüz, bəstəboy bir nəfər görünür. Cəld hərəkətlə bizə yaxınlaşan adam "Amil müəllim mənəm", - deyib mehribanlıqla salam verir və söhbətə zarafatla körpü salır. "Bu gördüklərinizin hamısı mənim uşaqlarım deyil. Cəmi 7-si mənimkidir" - deyib övladlarını səsləyir: "Yusif, Sevgi, Fərəh, Zəhra, Həyat, Dəniz, Fateh, keçin həyətə, qonağımız gəlib".

Amil müəllim Ağdaş Dövlət Humanitar Kollecini bitirib. 20 ildir ki, Sarıqaya kənd orta məktəbində fiziki tərbiyə müəllimi işləyir. Elə söhbətə də bu yöndən cığır açırıq: "İndi müəllimlərin çoxu repititorluq edir, uşaq hazırlayır. Çoxuşaqlı ailə üçün fiziki tərbiyə müəlliminin maaşı ailənin təminatı üçün..." Amil müəllim nə demək istədiyimizi anlayır: "Valideynlərim də çoxuşaqlı olub. 13 bacı-qardaşdan 11-miz həyatdayıq. Kənddə yaşayan tək mənəm. Bacı-qardaşlarım xarici ölkələrdə yaşayırlar. Mənim də Avropaya getmək imkanım olub. Bu torpağı, Vətəni qoyub gedə bilmədim. Torpağa bağlı adamam, daha doğrusu, torpaqla nəfəs alıram. Taxıl əkirəm, mal-qara saxlayıram. Yaxşı təsərrüfatım var. Bildiyim odur ki, zəhmət çəkən ac qalmır. Mən şagirdlərimə kimi isə nümunə göstərmirəm desəm, doğru olmaz. Mən özüm zəhmətlə yüksək səviyyədə dolanmağın canlı nümunəsiyəm. Hər qış tövləmdə 45-50 baş bordağa bağlanmış heyvanım olur. Biz bu torpağın övladıyıq, bu torpağın adət-ənənəsini yaşatmaq da borcumuzdur. Hər işi planlı şəkildə görməyi xoşlayıram".

Amil müəllim söhbətə ara verib gülür və sonra davam edir: "Elə çoxuşaqlı ailə olmamız da yoldaşımla ikimizin planıdır. Bunun özəlliyi var. Anam bu gün özünü dünyanın ən xoşbəxt insanı hesab edir. 11 övladı var. Elə biz də eləyik, hara gedirik, maraqla, hörmətlə qarşılanırıq". Söhbətə Amil müəllimin ömür-gün yoldaşı Sevda xanım qoşulur: "Mən də müəlliməm. Asəf Zeynallı adına Musiqi Kollecində Əlibaba Məmmədovun sinfində oxumuşam. Zərdab Uşaq Musiqi və İncəsənət Məktəbində muğam dərsi keçirəm. Səmimiyyətimə inanın, özümüzü Azərbaycanın ən zəngin ailələrindən sayırıq. Mənim üçün zənginlik pul, var-dövlət, dəbdəbəli ev-eşik deyil. Allahın verdiyinə min şükür, zəhmətimizin hesabına heç kimdən geri qalmırıq. Əsas mənəvi sərvətdir. Övladımızın heç birinin ağladığını, yaxud kiminləsə dava-dalaş etdiyini heç kim görməyib. Bilirsiniz niyə? Beşiklərinin başında həmişə muğam oxumuşam, minillərdən bizə yadigar qalan laylalar demişəm, evimizdən həmişə musiqi səsi gəlib. Boş vaxtlarımda dəfi götürüb bir rəng, bir muğam və ya təsnif oxuyuram, ovqat tamam dəyişir. Uşaqlarıma deyirəm ki, siz hər biriniz fərdsiniz. Onu da deyim ki, uşaqların hər birinin fitri istedadı var. Onlardan biri 4-cü sinifdə oxumalıdır, amma proqramı tam mənimsədiyi üçün 5-ci sinfə gedir, bacısı ilə bir sinifdə oxuyur. Dərsdən sonra günün ikinci yarısı onları musiqi dərslərinə aparıram. Sevgi və Fərəh çox mükəmməl şəkildə fortepianoda, Yusif kamançada ifa edirlər. Zəhra isə xanəndə olmaq arzusundadır. Sarıqaya kənd orta məktəbində 108 uşaq oxuyur. Onların içində 6 nəfər ən fəal, dərslərini ən yaxşı oxuyan şagirdlər bizim övladlarımızdır".

Söhbətin bu yerində Sevda xanım balaca Yusiflə Zəhraya işarə edir. Çox keçmir ki, Yusif kamanla, Zəhra isə dəflə yerlərini rahatlayırlar. Sevda xanım deyir ki, Zəhranın səsi çox gözəldir: "Amma hələ qorumaq lazımdır ki, səs telləri zədələnməsin. Amma bu gün sizin gəlişiniz münasibətilə bir "Qarabağ şikəstəsi" xahiş etsək, məncə, qızım bizə "yox" deməz".

Bəh, bəh... Sevda xanımın dirijorluğu ilə konsert başlayır. Yusifin barmaqları pərdələr üstə gəzişdikcə kaman dil açır. Balaca xanəndənin şirin boğazı, heyrətamiz zəngulələri qəlbimizi riqqətə gətirir. Bu bənzərsiz musiqili mənzərəni seyr edən Amil müəllimin əli Tanrıya tərəf qalxır. "Şükür bu günümüzə", - deyib söhbətə davam edir: "Ailə bizim xalqın mental dəyəridir. Bu gün ailə institutunu qorumaq həm də milli-mənəvi dəyərlərimizi qorumaq deməkdir. Bəzi ailələr çoxuşaqlı ailədən söhbət salanda maddi çətinliyi önə çəkirlər. Mən məsələyə fərqli yanaşıram. Əsas məsələ maddiyyatda deyil, tərbiyədədir. Gərək uşağın psixologiyasını bilib hər biri ilə fərdi məşğul olasan. Bu gün ailələrin bir çoxunda bir və ya iki uşaq olur. Təəssüf ki, bəzi ailələr o bir uşağa da düzgün tərbiyə verə bilmirlər. Uşağa nəyi etmək olar-olmazı izah etmək əvəzinə onu döyür, üstünə qışqırır, hansı yollasa qorxudurlar. Yaxud aşırı şəkildə uşağın bütün arzularını yerinə yetirirlər. Belə ailələrin sonradan peşmançılıq çəkdiklərini, cəmiyyət, Vətən üçün yararsız bir "məhsul" yetişdirdiklərinin az şahidi olmamışıq. Şükür ki, bizdə belə problem yoxdur. Bəlkə də mənim də burada bəxtim gətirib. Uşaqların anasının da əsəbləri qaydasındadır, əsl pedaqoqdur. Övladlarımızı şiddətlə yox, sözlə tərbiyə edir. Səhvləri olanda da onlarla oturub saatlarla söhbət edir, onlara qayğı ilə yanaşır".

Amil müəllim deyir ki, hərənin dünyaya öz baxışı var: "Kimi dünyanın gözəlliyini var-dövlətdə görür, kimi də ailə, cəmiyyət, Vətən üçün nümunəvi övlad yetişdirməkdə. Bizim ən böyük sərvətimiz övladlarımızdır. Onları arzuladığımız kimi böyütmək həm vəzifəmiz, həm də ən böyük istəyimizdir".

Amil Mustafayevin ömrü kəndin torpağı, havası, suyu ilə yoğrulub. Sarıqaya kənd orta məktəbinin sinif otaqlarında o, neçə-neçə uşağa yalnız fiziki tərbiyədən yox, həm də mənəvi dəyərlərimizdən dərs keçib. Bu 20 ildə biliyi, bacarığı və təcrübəsi ilə o, neçə gəncin gələcək yolunu işıqlandırıb. Sakit, təmkinli, amma bir o qədər də tələbkar üslubu ilə şagirdlərinə nümunə olub. Bir də yeddi övlad böyütmək hər kişinin hünəri deyil. Bu baxımdan Amil müəllim məktəbdə şagirdlərə, evdə övladlarına sevgi və əmək tərbiyəsi aşılayıb. Onun həyat devizi sadədir: "Müəllimlik ömürlük məsuliyyətdir".

Müəllimlik - cəmiyyətin işığını yandıran, insan talelərinə yön verən, gələcək nəsillərin əxlaq və bilik dünyasını formalaşdıran müqəddəs peşədir. Amil müəllimin həyat yolu isə göstərir ki, müəllimlik yalnız bir peşə deyil, həm də mənəvi borc, həyat fəlsəfəsi və xalqa xidmət missiyasıdır.

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Xüsusi təyinatlı təhsil müəssisələrində Beynəlxalq Müəllimlər Günü qeyd olunub

**Beynəlxalq Müəllimlər Günü münasibətilə Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrində bayram tədbirləri keçirilib.**



Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, tədbirlərdə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbir iştirakçılarına bayramın yaranma tarixi ilə bağlı geniş məlumat verilib. Beynəlxalq Müəllimlər Gününün Ulu Öndərin müvafiq sərəncamına əsasən, hər il ölkəmizdə bayram kimi qeyd edildiyi xüsusi vurğulanıb. Savadlı cəmiyyətin formalaşmasında müəllimlərin rolunun danılmaz olduğu, xalqımız tərəfindən onlara hər zaman hörmət bəsləndiyi qeyd edilib.

Çıxış edən müəllimlər ölkəmizdə müəllimlərin hər zaman dövlət qayğısı ilə əhatə olunduğunu diqqətə çatdırıblar.

Sonda təhsilin inkişafında fərqlənən bir qrup professor-müəllim heyəti təltif olunub.




# Azərbaycan növbəti medalları qazanır

**Oktyabrın 4-də III MDB Oyunlarında 11 idman növü üzrə yarışlar keçirilib.**



Qəbələ şəhər stadionunda futbol üzrə final matçında Azərbaycan və Rusiyanın U-16 yığmaları qarşılaşıb. Görüş rəqibin 3:2 hesablı qələbəsi ilə yekunlaşıb və Azərbaycan komandası III MDB Oyunlarında gümüş medal qazanıb.

Gəncə İdman Sarayında qılıncoynatma üzrə yarışda növbəti medalçılar müəyyənləşib. Azərbaycanın qızlardan ibarət şpaqa üzrə milli komandası Özbəkistana 37:45 hesabilə uduzub. Beləliklə, Mirnuray Abasova, Aynur Quliyeva, Nəzrin Mehdiyeva və Xədicə Həsənlidən ibarət Azərbaycan komandası bürünc medal qazanıb.

Azərbaycanlı idmançılar Abbas Hüseynov, Nahid Məmmədli, Rəsul Əliyev və Timur Hüsnəddinovdan ibarət millimiz 1/4 finalda Belarus yığmasına 45:40 hesabı ilə qalib gələrək yarımfinala yüksəlib.

Bu mərhələdə Rusiya komandasına rəqib olan sablyaçılarımız 32:45 hesabı ilə uduzub və bürünc mükafata sahib lənib.

Gəncə İdman Sarayında güllə atıcılığı yarışı da başlayıb. Azərbaycanın dörd atıcısı III MDB Oyunlarında finala yüksəlib. 10 metr məsafəyə pnevmatik tüfəngdən atəş açmada Ramiz Xəlilov həlledici raunda yüksəlib.

Bundan əlavə, Vladislav Kalmıkov, Leyli Əliyeva, Xanna Əliyeva eyni məsafəyə pnevmatik tapançadan atəş açmada finala adlaya biliblər.



Kişilər arasında 10 metr məsafəyə pnevmatik tüfəngdən atəş açmada qalib müəyyənləşib. Qazaxıstan təmsilçisi Dmitri Kim qızıl, belaruslu Arseni Livantsov gümüş, digər qazaxıstanlı Nikita Şaxtorin bürünc medal qazanıb.

Azərbaycanlı güllə atıcısı Xanna Əliyeva III MDB Oyunlarında gümüş medala layiq görülüb. İdmançımız 10 metr məsafəyə pnevmatik tapançadan atəşaçmada ikinci yeri tutub. Rusiyalı Darya İsakova qızıl, qazaxıstanlı Valeriya Popelova bürünc mükafata sahib çıxıblar.

Şəkidə çövkən üzrə yarımfinal matçları keçirilib. Azərbaycan millisi Qazaxıstana qalib gələrək (5:1) finala vəsiqə qazanıb.

Komandamızın finaldakı rəqibi Qırğızıstan - Özbəkistan oyunundan sonra bəlli olub. Oyunun əsas və əlavə vaxtı 1:1 hesabı ilə yekunlaşıb. Qalib penalti zərbələri nəticəsində bəlli olub. Burada daha dəqiq olan Özbəkistan yığması Qırğızıstanı 2:1 hesabı ilə məğlub edərək finala yüksəlib.

Beləliklə, Özbəkistan yığması Azərbaycan millisi ilə finalda qarşılaşacaq.

Çövkən yarışlarına oktyabrın 7-də yekun vurulacaq.

Göygöldə isə cüdo üzrə mübarizə start götürüb. Azərbaycan cüdoçuları III MDB Oyunlarında uğurlu çıxışlarını davam etdirib. Belə ki, Məhəmmədəli Hüsüyev (55 kq), Gülşən Hüseynova (44 kq), Zeyd Ələsgərov (60 kq), Sunay Salamaova (40 kq), Röyal Qayıbov (60 kq), Hüseyn Hüseynov (66 kq), Fəxri Sahibzadə (66 kq), Könül Eyvazlı (44 kq), Nərmin Ağamirzadə (52 kq), Nəzakət Vəliyeva (57 kq), Məhəmməd Ağakişiyev (81 kq) və Sübhan Axundov (+90 kq) yarımfinal görüşlərində qələbə qazanıblar.



Beləliklə, Azərbaycanın 12 cüdoçusu finala vəsiqə qazanıb.

Fidan Cəlilli (70 kq) turnirdə üçüncü yerə çıxaraq bürünc medal qazanıb. Zemfira Əliyeva (+70 kq) da fərdi kateqoriyada üçüncü yerə sahib çıxıb. Hər iki çəki dərəcəsində görüşlər dairə sistemi üzrə keçirilib.





III MDB Oyunlarında cüdo yarışları oktyabrın 5-də başa çatacaq.

Bundan əvvəl Yevlax Olimpiya İdman Kompleksində boks yarışlarında yarımfinal döyüşləri keçirilib.

Azərbaycanlı boksçu Qardaş Rəhimov (46 kq) tacikistanlı Damir Nazarova qalib gələrək (3:2) finala çıxıb.

60 kiloqram çəki dərəcəsində yarımfinalda mübarizə aparan digər boksçumuz Şahin Aslanov rusiyalı Dmitri Klyuşnikovdan üstün olub - 4:1.

Daha bir azərbaycanlı boksçu Səfdər Məmmədzadə (+80 kq) qazaxıstanlı Yerketanq Jarkınbeka qalib gələrək (5:0) finala vəsiqəni təmin edib.

Əli Əliyev (48 kq) isə digər Qazaxıstan təmsilçisi Baltin Korqanbeki üstələyib - 3:2.

Digər yarımfinal görüşündə azərbaycanlı idmançı Əli Abaslı (52 kq) türkmənistanlı Xangeldi Lukmanova qalib gəlib - 5:0.

Beləliklə, Azərbaycanın 5 boksçusu finala vəsiqə qazanıb.

Kişi boksçular arasında final qarşılaşmaları oktyabrın 5-də keçiriləcək.

İdman yarışları ilə yanaşı, müxtəlif ölkələrdən ölkəmizə gələn jurnalistlər üçün tədbirlər də təşkil olunur. Belarusun "Birinci informasiya" telekanalının əməkdaşları mediatur çərçivəsində Azərbaycanın işğaldan azad edilən torpaqlarında olublar. Bu barədə ölkənin yerli telekanalında danışılıb. Süjetdə qeyd olunur ki, xarici ölkələrdən olan jurnalistlər ilk olaraq Şuşanı ziyarət ediblər.

Mediaturun növbəti dayanacağı Xankəndi və buradakı "Xankəndi stadionu" olub.

Məhz bu şəhərdə MDB Oyunları çərçivəsində oxatma yarışları keçirilir. Yarışlarda Belarus idmançıları da iştirak edirlər.

Belarusun atıcılıq növləri üzrə milli mərkəzinin məşqçi-müəllimi Sergey Pupkeviç təşkilatçılığı yüksək qiymətləndirib: "Azərbaycanın iqlimini nəzərə alsaq, hava bir qədər



arzuolunan deyil, amma ümumilikdə hər şey çox yaxşıdır. Təşkilatçılıq 2015-ci ildə Bakıda keçirilən Avropa Oyunlarından heç də geri qalmır. Hər şey yüksək səviyyədədir".

Azərbaycanda mötəbər turnirlərin keçirilməsi ölkəmizə olan etibarın nümunəsidir. Bunu AFFA-nın icraçı vitse-prezidenti Sərxan Hacıyev jurnalistlərə açıqlamasında deyib. O, III MDB Oyunları haqqında düşüncələrini bölüşüb: "Bir neçə gündü ölkəmiz mötəbər yarışa evsahibliyi edir. Gəncədə III MDB Oyunlarının açılış mərasimi keçirildi. Ölkəmiz həmçinin 20 yaşadək futbolçuların dünya çempionatına rəhbərlik edəcək. Bu da Azərbaycana olan etibarın nümunəsidir. Sözügedən mötəbər yarış qardaş ölkə Özbəkistanla birlikdə keçiriləcək. Əminik ki, bu turnir də yüksək səviyyədə təşkil ediləcək".

Axşam saatlarında Gəncə Olimpiya Kompleksində qadın pəhləvanlar və sərbəst güləşçilər arasında qaliblər bəlli olub, Yevlax Olimpiya İdman Kompleksində boks üzrə qızıl medal uğrunda görüşlər baş tutub, Xankəndidə kamandan oxatma yarışı davam edib, Mingəçevirdə karate yarışında son günün qaliblərinin adları müəyyənləşib. Boksçumuz Gülər Hüseynova (48 kq) bütün rəqiblərinə qalib gəlib və qızıl medala sahib çıxıb. Digər təmsilçimiz Aysel Fərəcova (46 kq) yalnız finalda uduzaraq gümüş medalla kifayətlənib.

Xatırladaq ki, III MDB Oyunları oktyabrın 8-də başa çatacaq. Yarışa 13 ölkədən 1 624 idmançı və 2 337 nümayəndə qatılıb. Turnirdə Azərbaycanı 340, Pakistanı 4, Rusiyanı 262, Özbəkistanı 254, Belarusu 240, Qazaxıstanı 147, Tacikistanı 144, Qırğızıstanı 126, Türkmənistanı 48, Türkiyəni 38, Kubanı 11, Küveyti 6, Omanı isə 4 idmançı təmsil edir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 9 iyun (Bazar ertəsi günü) tarixli 199-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Düşənbə, 10 ramazanül-mübarək sənə 1337.
9 həziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əlisultan Sultanov öz sevgili atası Kərbəlayı Mirzəbaba Sultan oğlunun vəfatını kəmaliyə's və təhəssürlə [böyük bir hüzün və kədərlə] öz qövm-əqrəbasına məlum edir. Cənazə düşənbə [bazar ertəsi] günü ramazanın 10-da saat 8 tamamda Nijni-Priyutski küçədən öz dayısı Hacı Ağababa Dadaşovun 110 nömrəli evindən Hacı Ağababa təkyəsinə aparılacaqdır.

## ELAN

1919 həziranın [iyunun] 9-cu günü saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-145*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Bakı nahiyəsi Əxzi-əsgər [Hərbi çağırış] rəisi idarəsindən:**

1

Cümhuriyyətin idareyi-əsgəriyyə müəssisə və idarələrindən, xüsusi dəstə rəislərindən xahiş edirəm ki, Türkiyə Komandanlığı tərəfindən xidmətə qəbul edilib hal-hazırda xidmətdə olan əsgərlərin müfəssəl siyahısını mənə təqdim edəsiniz. Bu siyahılar Azərbaycan Cümhuriyyətinin Hərbiyyə Nəzarətinin 6 aprel 179 nömrə §1 və mayın 15-də 3 nömrə ilə təsdiq edilmiş əmri mövcibincə [əmri əsasında] tələb edilir.

*Bakı nahiyə Əxzi-əsgər rəisi:*
*Prins Sədrəddin*

2

Əsgəri xidmətə qəbul vaxtında xəta işlənməsi haqqında şikayətlərə baxmaq Əxzi-əsgər rəisinin vəzifəsi deyildir. Buna binaən [buna görə], göstərilən məsələ haqqındakı xahişlər, ərizələr və şikayətlər mənim tərəfimdən qəbul edilməyəcəkdir. Posta ilə göndərilənlər də sərəncamsız buraxılacaqdır.

Əxzi-əsgər rəisi vəzifəsinə aid olan işlər haqqında bayram günlərindən başqa hər gün səhər saat 9-dan gündüz saat 3-ə qədər ancaq Əxzi-əsgər idarəsi dəftərxanasında mənə müraciət edilməlidir. Əxzi-əsgər rəisi vəzifəsinə aid olan heç bir iş haqqında evimdə qəbul etməyirəm.

*Podpolkovnik Prins Sədrəddin*

**Əsgərliyə dəvət haqqında**

Bakı Əxzi-əsgəri rəisi iyunun 4-də Bakı və Balaxanı-Sabunçu polismeysterlərinə zeyldəki [aşağıdakı] məktubla müraciət etmişdir:

"Əsgəri işlərə aşna olub, mən yəqin etdim ki, istehzari-əsgəriyyə [hərbi çağırış] işləri hələ yenicə başlanır:

1) Əsgərliyə dəvət edilənlərin siyahısı hələ tamam olmamışdır.

2) Əsgər düşənlərin siyahısını tərtib edici komissiyaya ləyaqətsiz, ola bilər ki, öz mənfəətini güdən adamlar düşmüşlər. Keçən gün iyunun 2-də camaat vəkillərindən ikisini kəşf etdim ki, biri qəsdən öz qardaşını, digəri öz oğlunun adını siyahıya yazdırmamışlar.

3) Təhti-idarənizdə [tabeçiliyinizdə] olan polis məmurları iclaslara gəlməyirlər. Adamları gətirməyi kəndxudalara və ya başqa adamlara vagüzar edirlər [tapşırırlar] ki, bunlar da uçastoka gətirilən bir para adamları öz ixtiyarları ilə azad edirlər. Polis nəfəratı iyunun 2-də Əxzi-əsgər idarəsinə gündüz saat 12-dən sonra gəlmişdir. Vəhalonki [halbuki], Əxzi-əsgər idarəsində saat 9-dan iş başlanmışdır. Ələlümum [ümumiyyətlə] polisənin fəaliyyətini görməyirəm. Mən buna inanıram ki, siz Azərbaycan üçün tezliklə əsgər cəm edilməsinin nə qədər böyük əhəmiyyəti olduğunu düşünürsünüz və yəqin sizə məlumdur ki, hökumət bu işlərə nə qüvvəni və nə də pulunu müzayiqə etməyir [əsirgəmir]. Azərbaycan Hökuməti Hərbiyyə Nəzarəti işlərinin təxirə uğramasına bais ola biləcək heç bir mümaniət [maneçilik] qarşısında dayanmayacaqdır.

Bakı şəhəri Azərbaycanın paytaxtıdır. Gərək idi o, əsgər cəm edilməsi işində bütün Azərbaycan üçün nümunə olaydı. Lakin məəttəəssüf [təəssüf ki], Bakı Azərbaycanın hər yerindən dalı qalmışdır. Doğrudur, buna bəzi işlər mane olmuşdur, lakin hal-hazırda vətənpərvərlik hissini feilən göstərməyə tamamilə imkan var ikən, mən yenə də cavan cümhuriyyət üçün qüvvətli ordu vücuda gətirmək işində vətəndaşlarda olan soyuqluq, səhlənkarlıq, vicdansızlıq və ürəksizliyi görürəm. Onlarda olan mənfəət qazanmaq arzusu, azad cümhuriyyətin hər bir dərrakəli vətəndaşındakı öz oğlanlarını vətən yolunda vermək üçün ən birinci müqəddəs vəzifəyə qalib gəlmişdir.

Burada, azad cümhuriyyətin paytaxtında mən nələr görürəm? Adları qul olmağa layiq olanların gizlənməyini, bununla da əlaqədar olaraq vətənin xainlər[i] tərəfindən bu qulların alınıb satılmasını görürəm.

Paytaxtı və onun ətrafını ayıltmaq zamanıdır. Mən inanıram ki, bu mümkündür və buna asanlıqla nail olmaq olar. Əhalinin bütün dərrakəli sinfini sözlə, qələmlə əhaliyə icrayi-nüfuz yetirməyə, sizi də məmur olduğunuz halda əhali ilə bir yerdə işləməyə dəvət edirəm. Buna görə sizdən xahiş edirəm ki:

1) Həmişə sizə tabe olanlar üzrə qüvvətli nəzarətiniz olsun.

2) Pristavlara təklif ediniz ki, əsgər yığılan günlərdə özləri beşəxsən bütün polisə qulluqçuları köməkliyi ilə əsgərliyə dəvət edilənləri cəm eyləməyə və əsgərliyə düşənlərin siyahılarını tərtib edici komissiyada ləyaqətli və möhtərəm adamların olmasına və onları vaxtlı-vaxtında Əxzi-əsgər idarəsinə gətirməyə çalışsınlar.

3) Məzkur [adı çəkilən] komissiya heyətinə ləyaqətli şəxsləri və oğlanları əsgəri xidmətdə olanları təyin etməlidir.

4) Öz oğlanlarını, qardaşlarını gizlədən adamlar camaat arasında nə tövr mövqe tutmuş olsalar da, oğlanları və ya qardaşları gəlib tapılana qədər həbs edilməlidirlər. Pristavların borcudur ki, Əxzi-əsgər idarəsi iclasına qədər həbs edilənlərin siyahısını iki nüsxədə – Hərbiyyə nazirinə təqdim etməkdən ötrü birini mənə, digərini Əxzi-əsgər idarəsi sədrinə verməlidirlər.

5) Əhaliyə xəbər verməlidir ki, valideynlər və ya qövmlər [qohumlar] əsgərliyə düşən oğul və ya qardaşlarını adları siyahıda oldu-olmadı öz razılıqları ilə təyin edilən gündə gətirməlidirlər. Əxzi-əsgər idarəsinə gəlməyənlər şiddətli surətdə tənbeh ediləcəklər. Valideynlər isə əsgərliyə düşənləri gizlətmək üçün məsuliyyətə cəlb ediləcəklərdir.

6) Əsgərliyə düşənlərin siyahılarını tərtib edənlərə xəbər veriniz ki, indiyə qədər buraxdıqları siyahıları təkmil edib Əxzi-əsgər idarəsinə versinlər. Hərgah sonradan siyahıda ad buraxmış olduqları olsa, məhkəməyə cəlb edilib əsgərliyə düşənləri gizlədənlər kimi məsul olacaqlardır.

7) Pristavlara tapşırmalıdır ki, siyahı tərtib edənlər üzərində daimi kontrol qoysunlar ki, ta onlar mükəmməl siyahı təqdim etsinlər. Bundan əlavə, acentələrin verdikləri məlumatdan istifadə etsinlər.

8) Pristavları və siyahı tərtib edənləri xəbərdar ediniz ki, əsgərliyə düşənlərin yaşlarında şübhə etdikləri zaman siyahıya daxil etsinlər. Siyahını boş buraxmaqdansa, 17-18 və 25-26 yaşında adamlar yaxşısı budur ki, qoy siyahıya düşsünlər. Əxzi-əsgər idarəsi özü bu adamların yaşını təyin edib onları azad edər.

9) Hərbiyyə nazirinin beşəxsən əmrinə görə pristavlara təklif ediniz ki, iyunun 1-nə qədər Əxzi-əsgər idarəsi tərəfindən hamı azad edilənləri sənədlərinin təhqiqindən ötrü Əxzi-əsgər idarəsinə dəvət etsinlər.

10) Əsgərliyə düşənlərin siyahılarını tərtib edənləri, həmçinin pristavları əsgər cəm edilən günü Əxzi-əsgər idarəsinə gəlməyə məcbur ediniz.

11) Əsgərliyə dəvət edilmək işlərini qaydaya salmaq üçün lazım olan düsturüləmsəlləri [təlimatları] biz sizinlə bərabər Əxzi-əsgər idarəsi iclaslarında hazırlayacağız.

12) Hərbiyyə nazirinin əmri mövcibincə [əmrinə əsasən], hər bir əxzi-əsgər uçastoku barəsində mən bütün polisə xidmətçilərinin fəaliyyəti haqqında məlumat verəcəyəm. Ona görə sizdən xahiş edirəm, təhti-idarənizdə [tabeçiliyinizdə] olan məmurları xəbərdar edəsiniz ki, əxzi-əsgər işləri haqqında və onların rayonunda əsgərlikdən qaçıb gizlənmişləri kəşf etmək işində zəiflik göstərsələr və ya xəyanət etsələr, bu xəyanəti kökündən rəf etmək [aradan qaldırmaq] üçün müqəssirləri həbs və əsgəri qüvvə sərf edənə qədər onların haqqında ən ciddi tədbirlər ittixaz edəcəyəm [tədbirlər görəcəyəm]. Hər kəs bir para səbəblərə görə özünü öz vəzifəsində hiss etməyirsə, qoy vaxtlı-vaxtında vətənin xoşbəxtliyi üçün mən tutduğum həqiqət və ədalət yolundan çəkilib getsin."

*Podpolkovnik*
*Sədrəddin Mirzə Prins Qacar*

## TELEQRAF XƏBƏRLƏRİ

Peterburq - Rusiya nümayəndələri tərəfindən Skandinaviyada alınan mallar İsveç paroxodu ilə Peterburqa gətirilmişdir.

Saratov - Fərarilərin [qaçqınların] rəvayətinə görə, Ufa şəhəri təcilən təxliyə edilir. Zlatoust ilə Ufa arasında dəmiryol körpüsü dağıdılmışdır.

**İngiltərədə tətil**

London - Cənubi Uelsdə 5 min nəfər kömür mədən fəhlələri tətil etmişlərdir. Qlamorqanda 30 min nəfər əmələ tətil eyləmişdir. İngiltərənin sair yerlərində getdikcə tətilçilərin ədədi artır.

**Fransada tətil**

Lion - Paris dairəsində iyunun 2-də müharibə başlanmışdır. Əmələlər [fəhlələr] 8 saat iş günü tələb edilrər. Tətil edən əmələlərin miqdarı 100 min nəfərə yetir.

**Lizbonda üsyan**

Lizbondan [Lissabondan] Stokholm qazetəsinə orada iyunun 6-da böyük üsyan əmələ gəldiyi xəbər verilir. Hökumət 50 nəfəri həbs eyləmişdir.

Odessa - Parisdə müntəşir [nəşr olunan] "Tan" qəzetəsi Türkiyə əhvalının son dərəcə fəna olduğunu yazır.

Lion - Fransanın bir çox mədənlərində fəhlələr tətil elan etmişlərdir. Se-şənbə [çərşənbə axşamı] günü təhtəl-ərz [yeraltı] dəmiryolunun qulluqçuları tətil etmişlərdir.

Xristianiya [Oslo] - Londonda ordu içində məxfi bir sui-qəsd kəşf edilmişdir. Bunlar özbaşlarına tərk-silah olmaq istəyirlərmiş. Bu işi saldat, matros və təyyarəçilər təşkil etmişlər imiş.

## SÜLH ƏTRAFINDA

- Paris - Böylə xəbər verilir ki, Sülh Konfransı Fiume əvəzinə İzmirin İtaliyaya verilməsini qət eyləmişdir [qərara almışdır].

- Əfqan əmiri təklif eyləmişdir ki, Pişəvərdə yaxud Landi-Kotalda ingilislərlə sülh barəsində danışığa girişsinlər və əmr vermişdir ki, ingilislərə qarşı olan hərəkati-hərbiyyə dayandırılsın.

- Müttəfiqlərin sülh müahidəsi [sazişi] Almaniya mürəxxəslərinə [nümayəndələrinə] iyunun 2-də təslim edilmişdir. Avstriya müahidənaməsi də Almaniyaya verilən müahidənaməyə bənzəyir. Bəzən ancaq adlar dəyişmişdir. Əvvəlki Avstriya-Macarıstan imperiyasından şimdiki müahidənaməyə görə 60 min mürəbbe [kvadrat] mil, 6 milyon əhali qalır. Tunadan aşağı olan yerlər beynəlmiləl elan edilir.

- Norveçya, İsveçrə və İsveç hökumətləri qət eyləmişlər ki, Almaniya ablukasında [blokadasında] iştirak etməsinlər.

**Gürcüstan Teleqraf Ajansının məlumatı**

Almaniya Hökuməti şərqdə olan almanlara zeyldəki [aşağıdakı] xitabnamə ilə müraciət edir:

*"Almaniyanın əks təklifi Parisdə Müttəfiqlərə təslim edilmişdir. O təklifnamədə ciddi surətdə tələb edilir ki, şərqdə olan yerlər Almaniya əlində qalsın və isbat edir ki, nə Yuxarı Sileziya, nə Qərbi Prussiya, nə Dansiq və nə Memel [Klaypeda] Almaniyadan ayrıla bilməz".*

**Almaniya xanımları və sülh**

Yuxarı Sileziyada olan Almaniya xanımlarının izdihamlı cələsələrində [iclaslarında] böylə qərar qoyulmuşdur:

*"Almaniya xanımları və uşaqları aclıq törədici sülhün əleyhinə və bizim əziz vətənimizin Almaniyadan ayrılmasına ciddi surətdə protesto edirlər. Almaniya xanımları düşmən və bitərəf məmləkətlərin xanımlarına müraciət edərək onlara təklif edir ki, məsum uşaqları və aclığı yadlarına salsınlar. Sizin əlinizdə olan ərlərimizi, oğullarımızı qaytarın, siz bizi qulam halına salmayınız. Siz öylə etməyiniz ki, biz uşaqlarımıza intiqam laylasını çalaq".*

**Avstriyaya müahidənamənin təslimi**

Sen-Jermen - Avstriya sülh mürəxxəslərinə [nümayəndələrinə] Müttəfiqlərin sülh müahidənaməsi [sazişi] təqdim edilmişdir. Sen-Jermen sarayının böyük salonundan birində mərasim icra edilmişdir.

Avstriya sülh mürəxxəslərinin başçısı Renner pərişan bir halda müahidənaməni almışdır. Klemansonun nitqinə cavabən Renner ayaq üzərində fransız lisanında bir nitq irad eyləmişdir [nitq söyləmişdir]. Öz nitqini yazdığı kağızı oxuyarkən Rennerin əli titrəyirmiş. Böyləliklə, onun həyəcanda olduğu hiss edilirdi. Fəqət onun səsi dəyişməyirdi. Renner demişdir ki, indiki Avstriya Cümhuriyyəti cahangir [imperialist] monarxiya tərəfindən sövq edilən müharibə cinayətlərinin məsuliyyətini öhdəsinə götürə bilməz. Fəqət buna baxmayaraq Avstriya milli xəsarətin bir hissəsini öhdəsinə götürməyə hazırdır.

Natiq bu son neçə ayda Avstriyanın keçirdiyi halını şərh eyləmiş: Avstriya milləti sülhü gözləyirdi və hərgah onlara müavinət edilməsəydi də, Avstriya milləti aclıqdan həlak olardı.

Renner nitqə davam edərək deyir ki, avstriyalılar yaxşı bilirlər ki, onların müqəddəratı Müttəfiqlərin əlindədir. Mən Müttəfiqlərdən rica edirəm ki, Avstriyaya rəhm edib onlara müstəqil yaşamaq haqqı verilsin.

Bütün nitq zamanı Vilsonun nəzəri Rennerdə imiş. Rennerin nitqi ingilis dilinə tərcümə edildiyi zaman Rennerdə həyəcan hiss edilirdi. Öz nitqinin nə kimi təsir bağışladığını görmək istəyirdi. Bu heyndə [bu zaman] qəzetə əkkasları [fotoqrafları] muzey şkafları yanında aparatlarını qoyub əks almaq [şəkil çəkmək] istəyirlərmiş.

Rennerin nitqi qəflətən sınan bir şüşənin səsi ilə kəsilir. Avstriya nümayəndəsi, Vilson və digərləri gülümsünürlər. İngilis əkkası [fotoqrafı] əks çəkmək istər ikən aparatı şkafların birisinə toxunub şüşə sınmış imiş.

Klemanso müahidənaməni avstriyalılara verərkən demişdir ki, onlara 15 gün möhlət verilir. Bu müddətin artırılacağı barəsində heç bir söz deməmişdir.

## QƏZETƏLƏRDƏN

**Fransa sosialistlərinin bəyanatı**

Biz Fransa sosialistləri sənədlərlə yəqin etdik ki, hökumətin vədələrinə baxmayaraq yenə də Rusiyaya Fransa əsgərləri göndərilməkdədir.

Əsgərləri nəinki bir Rusiyaya, hətta Polşaya, Macarıstana, Bohemiyaya, almanlarla məskun Avstriyaya, İtaliyaya, Romaniyaya, Selanikə, Balkan əsgəri mərkəzlərinə, Fələstinə, bir sözlə, hər yerə göndərirlər.

Biz onu bilirik ki, 18-19 yaşında əsgərliyə dəvət ediləcək olanlar işğal üçün saxlanmışlar. Klemanso cənabları bütün Yevropanı və Asiyanın bir hissəsini işğal etmək istəyir. O, tərxisi-əsgəriyyəni dayandırmaq istəyir.

Klemanso vətənlərini müdafiə etmiş və müharibə meydanından qayıtmış olan Fransa oğullarını beynəlmiləl kapitalizmin jandarmları eyləmək istəyir.

Bu, divanəlik və cinayət siyasətidir. Necə ki, sosialist vəkilləri Palatada deyirdilər, bu siyasət öz millətlərinin müdafiəsi üçün özlərini qurban verən saldatları narazı salır. Heç kəsin ixtiyarı yoxdur ki, bu saldatlar razı olmadan başqa millətləri sıxışdırmaq üçün onlardan istifadə edilsin.

Nazirin özbaşına gördüyü işlərinin həddi yoxdur. Belə ki, poçta məmurları öz yaşlarına görə əsgərlikdən azad edilməli olduqları halda, hökumət tərəfindən rütbələri artırılıb başqa məmləkətlərə göndərilməkdədir.

Hərgah ordu arasında üsyan təşəbbüsatı olarsa, Klemanso deyə bilər ki, bunu o özü etmişdir.

## İRANDA

- Rəştdən, Ənzəlidən və Təbrizdən gələnlərin rəvayətinə görə, Kiçik xan məğlub edilməmişdir. O, türkmənlərdən partizan dəstələri düzəldir. Belə ki, güclü qüvvə cəm etdikdən sonra ciddi surətdə fəaliyyətə başlayacaqdır.

- Təbrizdə ciddi surətdə şayiat [şayiələr] var ki, Tehran İranın inqilabçı qoşunları tərəfindən mühasirə edilmişdir. Onlar şimdiki hökuməti yıxmaq istəyirlər.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri iyunun 5-də Nəzarət işlərindən ötrü Tiflisə azim olmuşdur [yola düşmüşdür]. Nazirlik vəzifəsi, müavini Rüstəm xan Xoyski cənablarına mühəvvəl edilmişdir [tapşırılmışdır].

- Vükəla Şurasında [Nazirlər Kabinetində] qət edilmişdir ki, Ermənistandakı müsəlman qaçqınları üçün 10 min pud buğda alınsın. Ümuri-Xeyriyyə və Nafiə naziri Rəisi-vükəla [Baş nazir] həzrətləri indində [nəzdində] həman ərzağın Ermənistana gömrüksüz aparılmağı üçün təşəbbüsatda bulunmuşdur.

- Xaçmaz mövqifi [stansiyası] komandanı Ümuri-Xeyriyyə və Nafiə nazirinə teleqrafən xəbər vermişdir ki, həman mövqifdə 70 nəfərədək türk toplanmışdır ki, paraları olmadığından vətənlərinə qayıtmaq imkanından məhrum qalmışlardır. Ümuri-Xeyriyyə və Nafiə naziri Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] indində [nəzdində] onlara Batumadək məccani [pulsuz] iki vaqon verilməsi haqqında təşəbbüsatda bulunmuşdur.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Şuşadakı müvəkkilinə xəbər vermişdir ki, işləyə biləcək, fəqət işləməkdən imtina edəcək qaçqınlara qaçqın payı verilməməlidir.

- Şəki və Ərəşdəki qaçqınların əhvalını təhqiq üçün göndərilmiş Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti məmuru xəbər vermişdir ki, bu vaxtadək hələ qaçqınlar siyahı edilməmişdir və güşadı [açılması] ehtimal edilən müsəlman darüleytamı [yetimxanası] güşad edilməmişdir. Ümuri-Xeyriyyə və Nafiə naziri oradakı nahiyə müfəttişinə teleqrafən təcili surətdə qaçqınların siyahı edilməsini və darüleytam güşadını tənbeh etmişdir.

## ERMƏNİ CÜMHURİYYƏTİNDƏ MÜSƏLMANLARIN HALI

**- 2 -**

Ermənilərin təcavüzü və əziyyəti səbəbi ilə İrəvanda müsəlman tacirləri büsbütün alış-verişdən düşmüşlərdir. Zira dükanlarına mal qoyurlarsa ermənilər talayırlar, mallarını evlərində saxlayırlarsa ermənilər xəbər tutduqları halda soyub aparırlar. Hətta müsəlman məhəllələri içində ufaq budkalar qayırıb alış-verişlə çörəkpulu qazanan müsəlmanlar axşam olcaq şeylərini hammal kimi dükanlarından yığışdırıb evlərinə aparırlar. Sabahla genə böylə dükanlarına gətirirlər. Erməni talanının qorxusundan müsəlmanın alış-veriş edənləri də çörək pullarını İrəvanda böyləcə çətinliklə qazanmaqdadırlar. Əvvəllərdə sərvət və miknət [güc, qüvvət] sahibi olan müsəlmanlar İrəvanda qorxularından indi alış-veriş edəmmədiklərindən, ciblərində olan var-yoxlarını yeyib qurtarmaqdadırlar. Hətta bir çoxları həman varlılardan indi yoxsul halına gəlmişlərdir. Böyləliklə, bir çox müsəlman tacirləri indi də evlərindən palaz-paltarlarını, qab-qacaqlarını satıb ailələrinə çörək tədarük edə bilməkdədirlər.

İrəvanda bir müsəlman alış-veriş etmək istərsə mütləq yanına inanıb-inanmadığı bir ermənini ortaq etməlidir, ta bəlkə o erməninin sayəsində ailəsinin çörəyini qazana bilsin. Vaxtilə ermənilərin hər hansına belə etina etməyən müsəlmanlar indi ən alçaq bir erməniyə yaltaqlanmaq məcburiyyətində qalmışlardır.

İrəvanda müsəlman tacirlərinin halı böylə olduğu kimi, müsəlman ziyalılarının, oxumuşlarının isə halı daha fənadır. Erməni Cümhuriyyəti hökuməti heç bir müsəlman ziyalısına məmuriyyət verməyir. Erməni Cümhuriyyətində müsəlmandan məmur yoxdur. Erməni Parlamanında demək olar ki, müsəlmandan məbus da yoxdur. Çünki Parlamanda ədədləri beşdən ibarət olan müsəlman məbusu varsa da, onları müsəlmanlar deyil, erməni hökuməti özləri seçib qoymuşlardır. Bunlar da erməni parlamanında insan qılıqlı müqəvvadan başqa bir şey deyildirlər.

Erməni Cümhuriyyəti hökumətinin yuxarıdan bəri saydığımız cümhuri, demokrati[k] və adilanə hərəkatı (?!) sayəsində İrəvanda müsəlman tacirləri də, ziyalıları da əlləri boş, səfil, sərgərdan bir halda qalmışlardır. İrəvanda müsəlman alış-verişçilərinin, ziyalılarının, arvadlarının, uşaqlarının səfalətli hallarını seyr etmək üçün rəhmsiz və qüvvətli bir ürək olmalıdır. Yoxsa hər kəs o fəci mənzərəni görməyə davam edəmməz.

Müxatəbimiz [həmsöhbətimiz] deyir ki, İrəvan müsəlmanlarının çəkməkdə olduqları müsibət və sıxıntı o qədər ağırdır və bu ağırlıq müsəlmanları o qədər fəna hala salmış ki, bir vaxtdan bəri İrəvandan ayrılmış bir müsəlman bu günlərdə İrəvana qayıtdığı halda öz qövm-əqrəbasını, dost-aşnalarını gördükdə tanıyammamış. İrəvan müsəlmanlarının çəkdikləri müsibət və sıxıntının ağırlığından yaşları az bir çox müsəlman cavanlarının doxsan yaşlı qocalar kimi başları, bığları ağarmışdır.

İrəvanda müsəlman evlərini sahiblənib oturan ermənilər, ailələri ilə məscidlərdə yatmağa məcbur qalan ev sahiblərindən artıq pullar almaq vasitəsilə evlərini sahiblərinə buraxırlar.

Erməni Cümhuriyyəti hökuməti erməni qaçqınlarını qəsdən müsəlman məhəllələrində, müsəlman evlərində yerləşdirmişdir və bunlara xörək (şorba və quru balıq) paylanan yer də müsəlman məhəlləsində, müsəlman evindədir.

Bu vasitə ilə erməni qaçqınlarının çirkin, pis və yaman üfunətli halları müsəlman məhəllələrinə xəstəlik mikrobu nəşr etməktədirlər [yaymaqdadır].

* * *

İrəvan şəhəri müsəlmanlarının halı böylə fəcianə [faciəvi] bir surətdə keçdiyi kimi, İrəvan quberniyasında, erməni cümhuriyyəti daxilində müsəlman kəndçi və əkinçilərinin halı daha betər, daha fənadır. Aralarında cüzi miqdarda erməni olub da əksərisi [çoxu] müsəlman kəndçi və əkinçilərindən ibarət olan Zəngibasar və Gərnibasar müsəlmanları ermənilərə təslim olduqdan sonra erməni hökuməti erməni qaçqınlarını cəbrən [zorla] bunların içinə doldurmuş, əllərində olan azuqələrini cəbrən alıb zəbt etmiş, hətta bir çoxlarının mal-qaralarını və ev əşyalarını belə almışlardır. Mütəəddid [müxtəlif] bəhanələrlə kənd müsəlmanlarından cəbrən külli pullar almışlardır. Nəhayət, bu zavallıları da erməni cümhuriyyəti hökuməti yoxsul və naçar bir hala salmışdır. Əvvəldə çox azuqələrə malik bu müsəlmanlar indi azuqəyə möhtac bir halda qalmışlardır.

Hələ müsadimələr [toqquşmalar] nəticəsində kəndlərini, əkinlərini qoyub qaçan Dərəçiçək və Göyçə mahalları müsəlmanlarının halı ağlar və təsvirə gətiriləmməz bir haldadır. Bu mahallarda olan müsəlman kəndlilərinin bir çoxu indi erməni cümhuriyyətinin Hərbiyyə naziri olan general Silikovun müntəzəm dəstələri qabağında dayanammayıb kəndlərini, əkinlərini buraxıb qaçmışlardır. Bu müsəlman qaçqınlarının ən çoxu o zaman azuqələri və miknətləri artıq olan Zəngibasar və Gərnibasar mahalları müsəlmanlarına pənah aparıb, onların ianələri ilə dolanırdılar. Nəhayət, onların da çoxu bunların gününə düşürüldükdən sonra daha oralar[d]a keçinmək imkanı çətinləşmişdir. Buna görə, qaçqın müsəlman kəndliləri yerlərinə, öz kəndlərinə qayıtmağa izin almaq üçün qafilələrlə gəlib İrəvana dolmuşlar. Bunlar da İrəvan şəhəri müsəlmanları kimi məscidlərdə yerləşmişlərdir. Bu zavallılar da aclıq, çılpaqlıq, yoxsulluq içində aylarla erməni hökuməti qapılarında sürünüb kəndlərinə qayıtmağa izin hasil etməyə yalvarmaqdadır. Hökumət qapıları böyləcə boynu çiynində rüxsətnamə intizarını çəkməkdə olan yüzlərcə, minlərcə kəndlilərlə doludur. Erməni hökuməti hər dəfədə bunların qabağına başqa bir bəhanə çıxarıb, səfil hallarının səfalətini daha da artırmaqdadır. Məsələn, bu zavallı müsəlman kəndlilərinin qabağına Erməni Cümhuriyyəti hökumətinin qoyduğu bəhanələrdən ən ufaq bir nümunə:

400-500 evli bir müsəlman kəndində indi 4 yaxud 7 evdən ibarət erməni mühacirləri qalır. Binaənileyh [ona görə], müsəlman kəndliləri öz kəndləri, evləri, əkinləri olan o kəndə gedəmməzlər, gərək ailələri ilə səhralarda, xarabalarda, açıq yerlərdə keçinib, o beş-altı ev erməni mühacirlərinin çıxıb getməsinə qədər səbr etməlidirlər.

Rüxsətnamə verilmədiyinə səbəb də bu!..

Kəndlərinə qayıtmağa izin almaq intizarını çəkməkdə olan müsəlman kəndlilərinin təsadüfən bir-iki baş da yanlarında qaramalları olmuş olur.

İntizar müddətində bunlar şəhər kənarında mallarını otardıqları halda ara-sıra erməni qoçaqları gəlib mal-qaralarını əllərindən alıb aparırlar. Dinməyən yalnız ağlar gözü ilə canı salamat qalır. Dinən, səs çıxaran olarsa, axan qanı ilə yerə sərilmiş qalır.

İrəvanda müsəlman şəhərlisinin də, kəndlisinin də şikayətinə, sözünə baxan yox. Zavallı İrəvanın müsəlmanları genə ümidlərini Azərbaycan Cümhuriyyəti hökumətinə bağlayıb onun ciddi müavinətinə göz dikməkdədirlər.

## XOŞ BİR MƏNZƏRƏYƏ TƏSADÜF

Keçən cümə, ramazanül-mübarək ayının 7-ci günündə bazardan keçərkən aləmi-islamın səadət günəşinin vəsətüs-səmada əşəddi-ziya ilə pərtovəndaz olmağını [səmanın ortasında şiddətli ziya ilə işıq saçdığını] müşahidə edərkən, 1300 sənə bundan qabaq tərəqqiyi-fövqəl-xəyali-islamiyan [müsəlmanların

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 9 iyun (Bazar ertəsi günü) tarixli 199-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

təsəvvürə gəlməz tərəqqiləri] xatirimdə cilvə etməklə, məzkur [deyilən] müqəddəs əsrdə islam qəhrəmanlarının xanimanların tərk və əziz əyal və övladların[a] vida edib cihadi-müqəddəsə şitaban olmaları [tələsmələri] ilə baydaqi-müqəddəsi-islamiyyəti [islamiyyətin müqəddəs bayrağını] öz mücahidətləri [cihadları, səyləri] ilə övci-səmavata ti'la etmələri [göyə ucaltmaları] nəzərimə gəlib, şadlıq və məsərrətimin [sevincimin] mütəzaif olmağından [qat-qat artmağından] biixtiyar göz çeşmələrimdən əşki-sürur cari olmağa [sevinc göz yaşı axmağa] başladı.

Təbarəkallah [Allah mübarək eləsin]! Nə əcəb təşəbbüs, nə ali mücahidət, nə gözəl qeyrət, nə məcdanə [böyük, ulu] hümmət, nə pəsəndidə [xoşagələn] həmiyyət! Altmış və yetmiş yaşlarında qoca arslanlar vətənin cavan qəhrəmanları ilə duşbəduş [çiyin-çiyinə] olub, sədа-sədaya verib, milli nəğmələr oxuya-oxuya Bakı mərkəzi-cümhuriyyətində [Cümhuriyyətin mərkəzi Bakıda] küçə və bazarı nizami əsgərlər hesabında gəşt edib [gəzib-dolaşıb], "Yaşasın Azərbaycan!" deyə-deyə əğyar [düşmən] gözlərini həsəd oxları ilə cərihədar edirdilər [deşirdilər]. Əlbəttə, həzar [min dəfə] əlbəttə, neçə yüz illərdən bəri öz hüquqi-milliyyə və bəşəriyyəsi zalım və cəfakar ədüvvi-insaniyyət və islamiyyət [insanlıq və islamiyyət düşmənləri] olanların ayaqları altında tapdalanmış bir nəcib millət milyon nüfusi-mücahidini-islamı [islam mücahidlərindən milyon nəfəri] qurban verəndən sonra cari olmuş [axmış] müqəddəs qanlar bahasına aldıqları hürriyyət və azadəliyi əbədəddəhr [əbədiyyən] öz yədi-ixtiyarlarında [öz əllərində] saxlamaqdan ötrü heç bir fədakarlıqdan və heç bir təşəbbüsatdan müzayiqədə bulunmasa gərəkdir. Ayat və bəyyinati-Qurani [Quranın ayələri və açıq dəlilləri] islam milləti-nəcibəsinin [nəcib islam millətinin] cihada hazır olub küffarla [kafirlərlə] cihad etmələrini mütəvatirən [arxa-arxaya] nişan verir. Ayeyi-şərifə: "Fəzzələllahul-mücahidinə ələl-kaidinə əcrən əzimən." Eyzən [Həmçinin]: Ayeyi-şərifə: "Ya eyyühən-nəbiyyu hərrizilmümininə ələl-qitali in yəkun min-kum işrunə sabirunə yəğlibu miəteyni və in yəkun minkum miətun yəğlibu əlfən min-əlləzinə kəfəru bi-ənnəhum qövmün layəfqəhunə".

Müxtəsərən, müfadi-ayati-kərimat [ayeyi-kərimələrin mənası], əvvəla, cihada gedən kişilərə Allah-taala həzrətləri əcri-əzim [böyük mükafat] mərhəmət buyurmaların vədə verir. Saniyən [ikincisi], islam qəhrəmanlarının on nəfərlərini küffarın [kafirlərin] yüzlərlə və yüzlərin[i] minlərlə müqabil tutur, çün islamiyanda [müsəlmanlarda] qüvvəti-iman və səbati-islam fitridir. Və əlavə olaraq vətən eşqində, millət və milliyyət uğrunda övladların əsgər verib isməti-islamiyyəti məhfuz edən [qoruyan] ata və analara bir nəfər japoni [yapon] arvadın fədakarlığı ilə təskin verirəm. Həman arvadın bir nəfər oğlu olmaq səbəbincə japon dövlətinin qanunu yol verməyirdi ki, onun bir oğlun əsgərliyə aparsınlar. Vətən eşqi qəlbində dolu olan qeyrətmənd qadın özün alıb öldürür və bir kağız yazıb miz üstə qoyur ki, mən baxıb gördüm ki, hər bir ananın qurbanı müqəddəs vətən yolunda oldusa da, həman qızların eyni bədbəxtraqı mən oldum. Çünki mənim zində olmağımla [yaşamağımla], mənim bir oğlum mənə pərəstar olmaq [xidmət etmək] səbəbincə vətən yolunda cihada getməkdən məhrum və feyzi-şəhadətdən məyus olurdı. Binaənileyh [ona görə], mən baqi-mandə [qalan] ömrümü vətən eşqində fəda edib və oğluma vəsiyyət edirəm, vətən yolunda şəhid olub həm özün vətən şühədalarının [şəhidlərinin] cərgəsində və həm məni vətən yolunda qurban vermiş anaların dəftərlərində yazdırmaqla məsud eyləsin.

Budur vətən qədrini bilmək və millətə xidmət etmək. Nəinki indiyə kimi bəzi ata və analar kimi ki, ənva və əqsam [növbənöv, müxtəlif] hiylələrlə övladların əsgərlikdən azadə edib bulvar səyyahı və mehmanxanalar müsafiri etmək istəyirlər!

Əcəba Mart hadiseyi-əliməsi [faciəli Mart hadisələri] nə az zamanda xatirlərdən məhv oldu? Aya [görəsən], vəhşilərin islamlar barəsində rəva gördükləri zülüm və cəfalar xatirlərdən fəramuş oldumu [yaddan çıxdımı]? İkimci hücumda biduni-təfavüt [fərq qoymadan] iranlı, qafqazlı, ünasən və zükurən [qadınlı-kişili] ümum Bakıda yaşayan islamları qətliam etməyə qət olunan şərtnamə yadlarından çıxdımı? Adların müsəlman qoyub Bakıda yaşayan ümum islam balalarına müdafiədən ötrü hazır olmaq ənfərizi-diniyyədənədd olunmalıdır [dinin fərzlərindən sayılmalıdır]. İstər Qafqaz əhli, ya İran camaatı, haydi qardaşlar, islam rişəsinə tişə vuranların [kökünə balta vuranların] müdafiəsinə hazır olunuz!!

*İrani Nejad M. Ayn.zadə*

### BAKI XƏBƏRLƏRİ

**Nümayişlərin təxirə salınması**

Qəzetəmizin dünkü nömrəsində xəbər verilmişdi ki, düşənbə [bazar ertəsi] günü, iyun ayının 9-da səhər saat 8-dən nümayiş tətili başlanacaqdır. Bu qərar dəyişilmiş, həmin nümayiş tətili cümə günü iyun ayının on üçünə (13-nə) təxir edilmişdir. Nümayişlərin tərtib və vaxtı barəsində qəzetələrdə əlahiddəcə elan ediləcəkdir.

**İxtar [xəbərdarlıq]**

Düşənbə [bazar ertəsi] günü iyun ayının 9-na təyin edilmiş protesto nümayişləri cümə günü həman ayın 13-nə təxir edildiyi bununla ixtar edilir.

*Bakı Mərkəzi Tətil Komitəsi*

**Əsgərlikdən qaçanlar haqqında**

Eşitdiyimizə görə, Azərbaycan Hökuməti ilə Gürcüstan və İran hökumətləri arasında siyasi şəxslər və canilərin və həmçinin əsgərlikdən qaçanların məzkur [deyilən] hökumətlərin yek-digərinə [bir-birinə] təslim edilməsi haqqında etilaf [razılıq] əmələ gəlmişdir. Məzkur qaçqınları dərdəst etmək [tutmaq] üçün güzərgahlarda, iskələlərdə [limanlarda] və dəmiryollarda təcrübəli və məharətli agentlər qoyulacaqdır. Həmin agentlər bir çox vasitələrlə məzkur caniləri axtarıb dərdəst etməklə, tabe olduğu hökumətə təslim edəcəkdir.

**İskələlər və paroxodlar haqqında**

İngiltərə Nəqliyyat İdarəsi rəisi polkovnik Braunun binagüzarlığına [sərəncamına] görə, bəhri-Xəzərdəki Bakı, Petrovsk və Krasnovodsk iskələləri İngiltərə Komandanlığı təhti-idarəsində [tabeçiliyində] qalır. Bütün ticarət gəmiləri öz sahiblərinə qaytarılıb İngiltərə kontrolu təhtində [altında] olaraq işləyəcəklərdir.

**Fəhlə Klubunda mitinq**

Dünən şəhərin və mədən dairələrinin bir çox yerlərində mitinqlər tərtib verilmişdi. O cümlədən, şəhərin müsəlman əhalisi üçün Fəhlə Klubu salonunda izdihamlı bir mitinq toplanmışdı.

Saat 12 radələrində Məclisi-Məbusan üzvü [Cavad bəy] Məlik-Yeqanovun sədarəti, Əbdülvahab Məhəmmədzadənin katibliyi ilə mitinq güşad edildi [açıldı]. Bundan sonra "Müsavat" firqəsi namından Məlik-Yeqanov, Mirzəbala Məhəmmədzadə, Rəhim Vəkilov, "Hümmət" firqəsindən [İbrahim] Əbilov, İbrahimov, Azərbaycan inqilabçılarından Əbdülzadə, məhəlli [yerli] kommunistlərdən Qon-meberidze, "Ədalət" namından Ağazadə, dağıstanlılar namından Hacızadə nitqlər irad edərək [söyləyərək], Denikin əleyhinə mübarizəni təbliğ və təşviq etdilər. Natiqlər ümumiyyətlə böylə ciddi bir halda bütün firqə nizalarını [çəkişmələrini] buraxıb Dağıstan demokratiyasını boğmuş qaragüruh Denikin ordusu ilə son damla qana qədər mübarizə etməyi təbliğ edirdilər. Ora toplanmış camaatda həqiqətən ruh yüksəkliyi müşahidə edilirdi. Bir tənivahid kimi [hamı bir nəfər kimi] Azərbaycan istiqlaliyyəti mühafizəsindən ötrü çıxacaqlarını qeyd ilə Məclisi-Məbusan və hökumətə qan yardımı edəcəklərini deyirdilər. Mitinq qayət müntəzəm və gözəl idi.

**Salyanda Realnı məktəbinin müdirinə**

Salyan Realnı məktəbinin mütəəllimləri [şagirdləri] tərəfindən aldığımız məlumata nəzərən, alicənabınız onların hər bir təşkilat yapmasına mümaniət [maneçilik] göstərir. İkinci Qafqaz Müsəlman Mütəəlimləri Qurultayı bunu nəzəri-etibara alaraq sizdən isticvab edir [soruşur]: Onlara böylə təzyiqat göstərməyinizlə nə məsləyi təqib edirsiniz? Cavabı intizarındayız.

*Heyəti-rəyasət*

**Əfqanıstan haqqında**

Məşhəddən alınmış xüsusi bir teleqramda denilir ki, mayısın 13-də Əfqanıstan hökuməti İngiltərəyə elani-hərb etmişdir. Həman gündə də Əfqanıstan ordusu hücuma keçərək sərhədi keçmişlərdir.

**Aşqabadda**

Aşqabaddan alınmış məlumata görə, şəhərə ətraf aullardan türkmən dəstələri gəlməkdədir. Belə ki, şəhər türkmənlərlə dolmuşdur. Şəhər Mühafizə Alayı Aşqabaddan çıxarılıb ən axırıncı müdafiə xəttinə çəkilmişdir. Qaçqınların dediyinə görə, Aşqabadın süqutu bir neçə günün məsələsidir. Bolşeviklərin müvəffəqiyyəti gündən-günə artır.

**"Rüşvət"**

Ticarət və Sənaye Nəzarəti müvəkkili Sultanov cənablarına əcnəbi tüccaranından [tacirlərindən] rəsmi bir mövqe tutan şəxs mal gətirməsinə müsaidə qəsdi ilə böyük miqdarda rüşvət təklif etmişdir. Sultanov cənabları bundan dilgir [dilxor] olaraq hərifi qovmuşdur.

**Gürcüstanda ümumi səfərbərlik**

Gürcüstandan alınmış məlumata görə, orada ümumi səfərbərlik elan ediləcəyi təhti-qərara alınmışdır.

**"İttihad" firqəsində**

"İttihad" firqəsi Balaxanıda şöbə açmışdır. Firqəyə yazılanlar seşənbə [çərşənbə axşamı] günü, iyun ayının 10-da, gündüz saat 3-də ümumi iclasa dəvət edilirlər. Müzakirə ediləcək məsələlər:

1) Sədr, katib və xəzinədar intixabı [seçkisi] və
2) Cari məsələlər.

Şöbə hələlik Sentralnı küçədə, Quliyevin 70 nömrəli evində olur.

**"İttihad" məktəbində kurslar**

Türk, fars, ərəb, rus dillərində dərslər verilir. Edadi məktəblərin ibtidai şöbələrinə şagirdlər hazırlanır. Xahiş edənlər hər gün saat 5-dən 7-dək "İttihad" məktəbində (Qubernski caddə, nömrə 370) Mirzəağa Vəlizadəyə müraciət edə bilərlər.

**Bibiheybət Həmkarlar İttifaqında**

Bibiheybət rayonunun Müttəhid Həmkarlar İttifaqı idarəsi iyunun 9-da ittifaq binasında nümayəndələr iclası dəvət edir. Müzakirə ediləcək məsələlər bunlardır:
1) Müvəqqəti idarənin məruzəsi və
2) Daimi idarə intixabı [seçkisi].

İclas gündüz saat 3-də təyin edilmişdir. Müəyyən edilən vaxtda kvorum olmasa, saat 4-də təzə iclas dəvət edilir. Bu iclasda hər nə qədər üzv olmuş olsa, qanuni hesab ediləcəkdir. Nizamnaməyə görə, hər 30 nəfərdən bir nəfər nümayəndə gəlməlidir. İclas zamanına qədər nümayəndə intixab etməmiş firmalar nümayəndə intixab etməlidirlər. Mandatla gəlmək lazımdır. Yoldaşlardan xahiş olunur yubanmasınlar.

**Yeni istehlak cəmiyyəti**

"Ümumun Faydası" adlı yeni bir istehlak cəmiyyətinə icazə verilmişdir.

Cəmiyyətin ümdə vəzifəsi üzvlərinin istiqraz ehtiyacları rəfinə [borc ehtiyaclarının aradan qaldırılmasına] çalışmaqdır. İdarəsi işə başlayaraq bu günlərdən xahişməndlərin [istəyənlərin, müraciət edənlərin] ərizələrini Starı polis küçəsində, 17 nömrəli evdə qəbul edir. Ümdə məqsəd xırda neftçilərə maddi müavinət göstərməkdir ki, işlərini dayandırmasınlar.

**Könüllülər təşkili**

Dünəndən etibarən Azərbaycan Könüllü ordusu siyahısı tərtibinə şüru edilmişdir [başlanmışdır]. Siyahı Məclisi-Məbusan binasında "Hümmət" və "Müsavat" fraksiyonları odalarında tutulur. Aldığımız məlumata görə, ən yaxın zamanda qışlalar [kazarmalar] intixab edilərək [seçilərək] təlimati-əsgəriyyəyə [hərbi təlimlərə] başlanacaqdır.

**Teleqraf xəttinin mühafizəsi**

Balaxanı-Sabunçu polismeysteri təhti-idarəsindəki [tabeçiliyindəki] dairə müfəttişləri və kənd muxtarlarına müraciətən əmr vermişdir ki, teleqraf xətləri mühafizəsi üçün lazımi tədabir ittixaz etsinlər [tədbirlər görsünlər].

### PROTESTO NÜMAYİŞLƏRİ

**Protesto nümayişləri və tətil**

Srağagün Parlaman binasında Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Mərkəzi Tətil Komitəsi ilə məhəllə nümayəndələrinin ümumi iclası vaqe və Denikin ordusunun Azərbaycan istiqlaliyyətini məhv etmək qəsdilə Dağıstanı işğal etməsi münasibətilə bir günlük ümumi tətil etmək məsələsi müzakirə edilmişdir. Bir qədər müzakirədən sonra iclas müttəfiqülqövl [yekdilliklə] cümə günü iyunun 13-də birgünlük ümumi tətil elan edilməsi təhti-qərara alınmışdır. Tətilin nizam və qayda ilə icra edilməsi üçün dü-şənbə [bazar ertəsi] günü mərkəzi rayon və məhəllə komitələrinin ikinci dəfə olaraq ümumi iclası dəvət ediləcəkdir.

İclasın axırında Şimali Qafqaziyadan yeni varid olmuş [gəlmiş] bir nəfər inquş nümayəndəsinin məruzəsi dinlənilmişdir. Məruzədən məlum olur ki, Denikin ordusu Şimali Qafqaziyaya hücum etmək istədikdə bir inquş kəndi tərəfindən mümaniət [müqavimət] göstərilmişdir. Ordunun miqdarı 20 min nəfərdən ziyadə imiş. Ordu komandanı öz qoşununun həman kənddən yol verilib buraxılmasını və inquşlarla çeçenlərdən iki polk qoşun verilməsini tələb etmişsə də, onlar qəti surətdə rədd edərək və demişlər ki, onlar heç bir vaxt müsəlman olmayan hökumətə qoşun verməz və onun qoşunlarına dəxi öz torpağından keçməyə yol verməyəcəklərdir. Keçmək istəsələr, ancaq inquşlar və çeçenlərin meyitləri üzərindən keçə bilərlər. Bundan sonra könüllü dəstələri kəndin üzərinə hücum edib toplar və mitralyozlardan atəş açaraq müharibəyə başlamışlardır.

Kənd əhalisi ancaq tüfənglərlə 20 min miqdarında qoşunla yeddi gecə-gündüz şiddətli surətdə müharibə etmişlərdir. Müharibədən əvvəl Dağıstan Hökuməti inquş və çeçen camaatına kömək vəd edərək könüllüləri buraxmamağa dəvət etmişsə də, lakin məəttəəssüf [təəssüf ki], neçə gün zərfində davam etmiş müharibəyə həmin kömək gəlib yetişməmişdir. İnquşlar, çeçenlər kömək gözlədikləri halda qırılıb tələf olmuşlardır. Tələf olub da, Könüllü ordunu həman kəndə buraxmayıb və onlara yol verməmişlərdir. Neçə vaxt müharibədə Dağıstandan kömək gözlənmişsə də, alınmamışdır. Axırda inquşlar və çeçenlər külli tələfat verdikdən sonra davam edəmməyib dağlara çəkilmişlərdir. Onlar tamamilə və qəti surətdə olaraq məğlub olmamışlardır və lazım olduğu vaxt yenidən hücum etməyə hazırlanırlar. Nümayəndə axırda məlum edir ki, könüllü ordu Azərbaycan üzərinə hücum edərsə, inquş və çeçenlər yenidən onlara arxadan zərbə endirəcəklərdir və halhazırda dəxi onlar Könüllü ordu dəstələrinə tez-tez şəbxun verirlər [gecə basqınları təşkil edirlər].

Və məruzəsinin axırında nümayəndə, Azərbaycana arxayın olub Dağıstan hökuməti kimi xainanə hərəkət etməyəcəyinə öz ümidini bəyan edir və deyir ki, inquşlar, çeçenlər azərbaycanlı qardaşlarını heç vaxt unutmamış və unutmayacaqlardır.

**Qubadan**

İyunun 6-da Quba şəhərində Qusar, Rustov, Dəvəçi, Müşkür, 5-ci uçastok və Quba şəhəri nümayəndələrindən ibarət izdihamlı mitinq Parlamandan və hökumətdən xahiş edir ki, rəsmi surətdə və mətbuatda Denikinin Lazarev adına Qızılburun mövqifi [stansiyası] xəttini keçəcəyi münasibətilə göndərdiyi teleqrafına görə, Könüllü ordu himayəçisi Müttəfiq komandanlığına şəhər və uyezd əhalisinin protestosunu izhar edəsiniz. Mitinq Denikinin Lazarevə göndərdiyi teleqrafını ədəbsizlik hesab edir. Samur çaydan Qızılburun mövqifinə qədər bütün Quba uyezdi [qəzası] Azərbaycan Cümhuriyyəti hesab olunur. Buranı qara çar generallarının təcavüzündən mühafizə və müdafiə etməkdən ötrü uşaqlardan böyüyə qədər əllərimizdə silah axırıncı qətrə qanımıza qədər mübarizə edəcəyiz. Öz hürriyyəti uğrunda çarpışan bir millətin müqəddəratına iştirak etməmək mədəni İngiltərə nümayəndələrinə yaraşmaz. Biz Azərbaycan müsəlmanları Nikolay zamanını yadımızdan çıxarmamışıq ki, bizim dinimiz, namusumuz və heysiyyətimiz çar məmurlarının ayaqları altında tapdalanırdı. Hərgah bu iş Dağıstanın mürtəce generalları tərəfindən unudulmuşsa, biz azərbaycanlıların yadından çıxmamışdır. Bizim [Mikayıl] Xəlilov kimi xain generallarımız yoxdur. Biz inanırız ki, bizim hökumətimiz müharibə meydanında axırıncı üzvü tələf olana qədər bizim ana-bacılarımızı qara generallar əlinə verməz və bizim qəhrəman Hərbiyyə nazirimiz Mehmandarov cənabları gözüyaşlı bizim uyezddə olduğu zaman dediyi kimi, öz vətənin[in], bizim ana, bacı, arvad və uşaqlarımızın müdafiəsi üçün öz canından keçər.

*Mitinq sədri: Əliheydər Əminov*
*Katib: Xəlil Ağayev*

### "LEYLA" BARKAZININ BAŞINA GƏLƏNLƏR

Bu günlərdə "Leyla" barkazının xidmətçilərindən bir nəfəri ilə müxbirimiz görüşmüşdür. Xidmətçi barkazın bolşeviklərin əlinə düşməsini böylə nəql edir:

Barkazda bir çox Könüllü ordusu zabitanı [zabitləri], bir neçə nəfər də böyük məmurin [məmurlar] var idi. Fort-Aleksandrovsk ətrafında dolaşırdıq. Birdən top səsləri eşidilməyə başladı. Barkazda həyəcan qalxdı. Zira zabitan durbin ilə baxıb bolşevik gəmilərini kəşf etdilər.

Bir nəfər zabit makina hissəsinə gəlib revolveri mənim gicgahıma düzəldərək tam sürətlə yürümək əmrini verdi. Fəqət barkaz nə qədər sürətlə yürüsəydi də, vaporlar bizi tutacaqdı. Bolşeviklərin mərmisi üzərimizdən uçmağa başladı. Zabitan çinlərini və şalvarlarındakı qırmızıları qoparıb dənizə tökdülər. Üç nəfər böyük məmur (məzkurun [adı çəkilən şəxsin] dediyinə görə, general), bir neçə nəfər də zabitan çinlərini çıxarmadılar, öz revolverləri ilə özlərini intihar etdilər. Bu vaxtda bolşeviklər barkazı əhatə edib tərpənməmək əmrini verdilər. Zabitan yanında bir kisə qızıl pul vardı. Pulu dənizə saldılar.

Bolşeviklər barkazı forta çəkib bizi qaraya [quruya] çıxardılar.

Fort-Aleksandrovskda artıq əhali qalmamışdı. Təktək küçələrdə adam görükürdü. Bolşeviklər burada da bir çox adam güllələbaran etmişlərdir. Bizi, fəhlələri istintaq etdikdən sonra həpimizi azad etdilər. Bütün zabitanı isə, bir neçə gün işlətdikdən sonra həpsini qurşuna dizdilər.

Barkazda qalmış paqonlu məmurlara bolşeviklər əl vurmayırdılar ki, murdardırlar. Binaənileyh [ona görə], zabitana meyitlərin bellərinə daş bağlatdırıb dənizə tökdülər.

Bolşevik saldatlarının ruhu pək yüksəkdir. Əks-inqilabçıları (Denikinçiləri) ən dəhşətli hədələrlə hədələyirlər. Bütün Rusiyada bir nəfər də olsun Nikolay zabiti salamat buraxmayacaqlarını söyləyirlər. Bir neçə gün fortda qaldıqdan sonra ingilis vaporları ilə atışma oldu. Nəticədə bolşeviklər fortdan getməyə məcbur oldular. Qəsəbədə heç kəs qalmamış, küçələrdə insana vahimə qalib olur. Fort müharibəsində iştirak edən qırmızı saldatların miyanında [arasında] bir çox müsəlman saldatları və komissarları da vardır.

İngilislər gəldikdən sonra mən Petrovska gəlib oradan da Bakıya gəldim.

### AZƏRBAYCANDA

**İrəvan aclarına göndərilən buğda**

Bizə yazırlar:

Ay yarım bundan əvvəl Azərbaycan Hökuməti tərəfindən İrəvanda olan müsəlman acları üçün 2400 pud buğda və arpa buraxılmışdı. Bu arpa və buğdanı İrəvana aparmağı öhdələrinə alan iki nəfər şəxs bir nəfərin hiyləsinə aldanıb iki vaqon arpa, buğdanı Tiflisdə 160 min manata satmışlar. Hasil olan məbləği üç yerə təqsim etdikdə [böldükdə], bir nəfər Qazax əhli bu əhvalatdan xəbərdar olur. Qazaxlı bu əhvalatı yerinə bildirməyi onlara söylədikdə bu üç nəfər hərif həman qazaxlıya 10 min manat verib onu razı salmışlar. Qalanı da həriflər öz aralarında təqsim etmişlər. Qazaxlı cənabları da pulları alıb Bakıda eyşişrətə məşğul olmuşdur. İrəvanın müsəlman acları da gözləri yollarda qalıb hələ də onlara arpa, buğda gələcəyini gözləyirlər. Hökumətimizin nəzər-diqqətini bu işə cəlb ediriz.

**Qazaxda**

Bu yaxın vaxtdan Azərbayan Hökumətinin tədbirinə görə, dəmiryolunda 404-cü verstdə Qovlar və Tovuz mövqifləri [stansiyaları] arasında sərnişinlər qatara əyləşib-düşməkdən ötrü bir platforma hazırlanmışdır. Tiflisdən Bakıya tərəf gələn qatarlar həman yerdə dayanırlar. Amma Bakıdan Tiflisə tərəf gedən qatarlar nədənsə dayanmayırlar. Bu işi lazımi yerinə xəbər verməkdən ötrü Qazax uyezdinin 4-cü hissəsi camaatı Həbib bəy İskəndərbəyovu vəkil intixab edib [seçib] Bakıya göndərmişlər ki, bu barədə təşəbbüsatda bulunsun.

*Vəli Mustafayev*

### ERMƏNİSTANDA

**Müsəlmanlar genə öldürülürlər**

Bu günlərdə Batum təriqi [yolu] ilə amerikalılar Ermənistana un göndərməkdə olduğu münasibətilə erməni dəmiryolları Sanaindən İrəvana qədər 15 gün müddətinə sərnişinlər üçün bağlanmışdır. Dəmiryolun bağlanacağı günü Tiflisdən İrəvana getməkdə olan beş müsəlman Sanaindən naçar olaraq erməni yük vaqonlarına əyləşib İrəvana azim olmuşlar [yola düşmüşlər]. Fəqət zavallılar Aleksandropol ilə Qarakilsə arasında ermənilər tərəfindən yox edilmişlərdir.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Diş həkimi R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan
Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov
Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld
Cərrahiyyə 9-11 Sander
Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron
Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]
Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik
Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan
Qulaq və boğaz ağrısı 12-2 B. K. Fin-kelşteyn;
Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin
Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

Doktor **M.M.Kərimov** göz naxoşlarını və diş həkimi **A.Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Arvad diş həkimləri**
**Z.A.Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
*(professor Mixaylovun müavini)*

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Doktor**
**M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

Moskvada təcrübə görmüş diş həkimi **K.S.Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

Xarici məmləkətlərə yun yollamağı və komisyon təriqi ilə xarici məmləkətlərdə satmağı **İ.V.Denisovun** bankir kantorası qəbul edir (Olqinski, Nikolayevskinin küncündə, telefon nömrə 37-75). Sifarişlər saat 5-dən 7-yə dək qəbul olunur.

*10220*

**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik edir [tövsiyə edir, zəmanət verir]. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə, nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla elan edir ki, bu vaxta qədər xarici məmləkətlərə neft və neft istehsalatı aparılmağa verilən icazələr həziran ayının 6-sından 10 gün müddətdə etibarlı hesab olunurlar. Bundan əlavə, Bakı neft mədənlərinə hər cür dəmirə ehtiyac olduğundan, Nəzarət qeyri yerlərə dəmir aparılmasına dəxi icazə verməyir. Nömrə 6619.

*Nazir müavini əvəzinə: Şuljenko*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

### TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Teleqraf xəbərləri***

"Tan": "Le Temps" adlı fransız qəzeti nəzərdə tutulur.

***Sülh ətrafında***

"Sen-Jermen sarayı" [Château de Saint-Germain-en-Laye]: Paris yaxınlığında yerləşən Sen-Jermen-an-Le adlı şəhərdə keçmiş kral sarayı; hal-hazırda Fransanın Milli Arxeologiya muzeyi.

***Xoş bir mənzərəyə təsadüf***

"Fəzzələ-llahul-mücahidinə ələl-kaidinə əcrən əzimən": "Quran"da Nisa surəsinin 95-ci ayəsinin axırı; mənası: "Allah, mücahidləri (evlərində) oturanlardan böyük mükafatlarla üstün etmişdir."

"Ya eyyühən-nəbiyyu hərrizil-mümininə ələl-qitali in yəkun minkum işrunə sabirunə yəğlibu miəteyni və in yəkun minkum miətun yəğlibu əlfən min-əlləzinə kəfəru bi-ənnəhum qövmün layəfqəhunə.": "Quran"-da Ənfal surəsinin 65-ci ayəsi; mənası: "Ey Peyğəmbər, möminləri döyüşə həvəsləndir. İçərinizdə iyirmi səbirli kişi olsa, iki yüz kafirə, yüz səbirli kişi olsa, min kafirə qalib gələr. Çünki onlar anlamayan bir tayfadır."

***Bakı xəbərləri***

"edadi məktəblər": təhsildə universitetdən əvvəlki mərhələ kimi başa düşülməlidir.

***"Leyla" barkazının başına gələnlər***

"barkaz" (yaxud "barkas"): əsasən liman daxilində istifadə olunan kiçik ölçülü gəmi.

"Fort-Aleksandrovsk" (yaxud "Aleksandrovsk"): indiki Qazaxıstanın Mangistau (Manqışlaq) vilayətində yerləşən Fort-Şevçenko şəhəri 1857-1924-cü illərdə Aleksandrovsk (Fort-Aleksandrovsk) adlanmışdır.

***Ermənistanda***

"Ermənistana un göndərməkdə": qəzetdə "Ermənistana un göndərməməkdə" getmişdir.





# Mədəniyyət





● Xəyyam Mirzəzadə - 90

## Sənətkar ömrü



**Ötkəm, qarşısındakının inciyəcəyini nəzərə almayacaq qədər sözü üzə deyən, hazırcavab, geniş məlumatlı, yaddaşı bir-birindən maraqlı, dəyərli xatirələrlə zəngin insan... Söhbətimiz zamanı onu belə tanımışdıq. Ağa ağ deyirdi, qaraya qara. Kimsəni nə vəzifəsinə, nə ad-sanına, nə də şan-şöhrətinə görə qiymətləndirirdi. Hər kəsin dəyərini insanlığına, istedadına və gördüyü işlərinə görə verirdi.**

Özü barədə fikirlərin birmənalı olmadığını da yaxşı bilirdi, Bəzilərinin həssas, bəzilərinin mürəkkəb, bəzilərinin acıdil, hətta kobud hesab etdiyi, ancaq istisnasız olaraq hər kəsin etiraf etdiyi nadir istedad, dərin bilik, iti zəka sahibi idi bəstəkar Xəyyam Mirzəzadə...

O, 1935-ci il oktyabrın 5-də Bakıda dünyaya gəlib. Şair Ömər Xəyyam şeiriyyətinin heyranı olan atası Hadı Mirzəzadə oğlunun adını Xəyyam qoyub.

Ana tərəfdən şəkili, ata tərəfdən isə bakılı olan Xəyyam Mirzəzadənin uşaqlıq illəri ona eşitdiyi nağıllardan da əsrarlı görünən İçərişəhərdə keçib. Bu qədim, böyükdən-kiçiyədək hər kəsin bir-birini nəinki tanıdığı, hətta halına, xasiyyətinə belə bələd olduğu, hörmətlə, ehtiramla davrandığı şəhər Xəyyam Mirzəzadə üçün dünyanın ən doğma yeri idi. O, ağlı kəsəndən ömrünün sonunadək içərişəhərli olması ilə fəxr etdi.

1960-cı ilədək İçərişəhərdə yaşadı. Orada boya-başa çatdı, orta məktəbə, konservatoriyaya getdi, ilk əsərlərini yazdı...

Atası Hadı Mirzəzadə tanınmış, hörmətli ziyalı idi. O, Azərbaycanın görkəmli dilçi alimi, filologiya elmləri doktoru, professor idi. Uzun illər Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) elmi-pedaqoji fəaliyyət göstərib.

Hadı Mirzəzadənin övladları da oxuyub öyrənməyə böyük maraq göstəriblər. Xəyyam Mirzəzadə xatırlayırdı ki, İçərişəhərdəki evlərində divar şkafında çoxlu kitab var idi. Kiçik yaşlarından o kitabları böyük həvəslə oxuyurdu.

Uşaqlıq illərindən dinlədiyi musiqilər ona sevimli İçərişəhəri kimi əsrarəngiz təsir bağışlayırdı. O, Azərbaycan Dövlət Konservatoriyası nəzdində 10 illik musiqi məktəbində oxuduğu vaxtlar bəstəkarlığa maraq göstərir, arabir musiqi bəstələyirdi. 1952-ci ildə məktəbi bitirəndə artıq qərarını vermişdi. Həmin il Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının Bəstəkarlıq şöbəsinə daxil oldu, konservatoriyada bəstəkar Əşrəf Abbasovun sinfində oxumağa başladı. Ancaq dahi bəstəkar Qara Qarayevin musiqiləri onu hələ Azərbaycan Dövlət Konservatoriyasının tələbəsi olmadığı vaxtlarda cəlb etmişdi. Hadı Mirzəzadə ilə Qara Qarayevin yaxınlığı, onların Moskvada görüşü Xəyyam Mirzəzadəni arzusuna çatdırdı. Atası dahi bəstəkardan oğlunu öz sinfinə qəbul etməyi istədi. Beləliklə, Xəyyam Mirzəzadə birinci kursun axırlarından Qara Qarayevdən dərs almağa başladı.

Konservatoriyada təhsilini 1957-ci ildə uğurla başa vurdu. Elə həmin ildən Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında işləməyə başladı.

Bəstələdiyi musiqi əsərləri artıq onu gənc bəstəkar kimi tanıtmağa başlamışdı. Bəzi əsərlərini hətta SSRİ bəstəkarlar İttifaqının plenumlarında ifa edirdilər.

Xəyyam Mirzəzadə bəstəkar olmağın əsl imtahanını o zaman verirdi. Qara Qarayev böyük müəllim idi, görkəmli sənətkar idi. Yaradıcılıq üslubuna, tərzinə sonsuz ehtiram bəslədiyi, heyranlıq duyduğu Qara Qarayev kimi dünyaşöhrətli bəstəkarın yanında öz yolunu seçmək gənc bəstəkar üçün asan deyildi. Xəyyam Mirzəzadə bilirdi ki, nə qədər bacarıqlı, savadlı və çalışqan olsa da, dahi bəstəkarın kölgəsinə sığındığı halda görünməyəcək, öz adı, fərqli, özünəməxsus dəstxəti olmayacaq, öz müəllimini yamsılayacaq. Odur ki, qətiyyətlə qərarını verdi, bəstələdiyi əsərlərlə musiqi sənətində özünəməxsus cığırla irəlilədi. Azərbaycan musiqisini dərindən bilən və çox sevən Xəyyam Mirzəzadə dünya musiqisinin nailiyyətlərindən uğurla bəhrələndi. O, Azərbaycan musiqi sənətini müxtəlif janrlarda əsərləri ilə daha da zənginləşdirdi. "Ağlar və qaralar" baleti, instrumental, vokal, simfonik, xor və kamera əsərləri bəstəkara böyük şöhrət qazandırdı.

Xəyyam Mirzəzadə eyni zamanda bu gün də çox sevilən mahnıların müəllifidir. Dillər əzbərinə çevrilən həmin mahnılar uzun illərdir ki, Azərbaycanın görkəmli ifaçılarının repertuarını bəzəyir.

İstedadlı bəstəkar hələ gənc yaşlarında rejissorların da diqqətini cəlb etmişdi. Elə o vaxtlardan teatr və kino musiqisi onun yaradıcılığında xüsusi yer tutdu. Xəyyam Mirzəzadə onlarla kinofilm və 15 dram tamaşası, estrada və caz pyeslərinə musiqi bəstələdi.

Hələ 1959-cu ildə "Bizim küçə" tammetrajlı bədii filmi ekranlaşdırılanda musiqisini yazmaq ona həvalə edildi. Kino sənətində ilk işi çox uğurlu oldu. Xəyyam Mirzəzadə sonralar "Arxadan vurulan zərbə", "Bağ mövsümü", "Bakıda küləklər əsir", "Birisigün gecəyarısı", "Bizim küçə", "Dənizə çıxmaq qorxuludur", "Güllələnmə təxirə salınır", "İlıq dənizdə buz parçası", "O dünyadan salam", "Yeddi oğul istərəm" və digər bədii, "Abidələr danışır", "Bakı eyvanları" və başqa sənədli, "Daş", "Günlərin bir günündə", "Meşəyə insan gəlir" animasiya filmlərinə bir-birindən heyranedici musiqilər bəstələdi. Bəstəkarların musiqiləri həmin ekran əsərlərinin məzmununu, ideyasını musiqi dili ilə tamaşaçılara çatdırır. Xəyyam Mirzəzadənin bir çox kompozisiyaları musiqi xəzinəmizin "qızıl fond"una daxil edildi.

Əmək fəaliyyətini Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında davam etdirən Xəyyam Mirzəzadə bu təhsil müəssisəsində müəllim, baş müəllim, dosent və professor vəzifələrində çalışdı. O, 1969-1983-cü illərdə kompozisiya kafedrasının müdiri işlədi. 1983-cü ildən 2005-ci ilədək isə konservatoriyanın professoru olaraq fəaliyyətini davam etdirdi. Xəyyam Mirzəzadə gənc musiqiçilər nəslinin yetişdirilməsində, yüksəkixtisaslı peşəkar musiqiçi kadrların hazırlanmasında bilik və bacarığını əsirgəmədi.

Azərbaycan mədəniyyətinin təbliğində özünəməxsus yer tutan bəstəkarın əsərləri Avstriya, İngiltərə, Macarıstan, Hollandiya, Almaniya, İtaliya, Fransa və başqa ölkələrdə ifa edildi.

Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliği sahəsindəki uzunmüddətli səmərəli fəaliyyətinə görə Xəyyam Mirzəzadə fəxri adlara layiq görüldü. Ona iki dəfə - 1976-cı ildə 2-ci simfoniya triptixi üçün, 1986-cı ildə isə "Birisigün, gecəyarısı…" bədii filminin bəstəkarlığına görə Azərbaycan SSR Dövlət mükafatı verildi. Sənətkar Əməkdar incəsənət xadimi (1972), Xalq artisti (1987), "Şöhrət" ordeninə (2000), "Şərəf" ordeninə (2010) və Azərbaycan Respublikası Prezidentinin fəxri diplomuna (2015) layiq görüldü. 2002-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

Görkəmli bəstəkar Xəyyam Mirzəzadə 2018-ci il iyulun 30-da ömrünün 83-cü ilində uzun sürən xəstəlikdən sonra dünyasını dəyişdi. Sənətkar ömrü isə əsərləri ilə davam edir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Vətən müharibəsi veteranı



## O, peşəsinin də, yurdunun da Vurğunudur

**Qarşısında dayandığımız geniş salondan dalğa-dalğa ətrafa xoş musiqi səsi yayılır. O, bulaq suyu kimi qəlbimizə axır, könlümüzü oxşayır, ruhumuzu cuşa gətirir, ovqatımızı dəyişir. Musiqinin ritminə uyğun olan ayaq səsləri də eşidilir. Bu ayaq səsləri musiqinin ritminə ritm qatır, onun məlahətini, şirinliyini artırır.**

Az keçmiş musiqi kəsilir. Salonun qapıları asta-asta açılanda görürük ki, içəridə balacalara rəqs dərsləri keçirilirmiş. Hərəkətlərindən, çöhrələrindən yağan sevincdən hiss olunurdu ki, bir-birindən ürəyəyatımlı musiqi sədaları altında rəqs etmələri, onun sirlərini öyrənmələri balacaların ürəyincədir. Ona görə də bu anlarda özlərini dünyanın ən bəxtəvər, ən xoşbəxt uşaqları sanırlar.

Gələcəyimiz olan uşaqlara dərs keçən, onlara rəqsin sirlərini öyrədən Vurğun Abaszadə ilə görüşüb söhbət etdik, fəaliyyəti, işlərinin gedişi ilə yaxından maraqlandıq. Vurğun müəllim gördüyü işlərdən söz açaraq dedi ki, uşaqlarla işləmək, onlara rəqs öyrətmək, vərdişləri aşılamaq, musiqimizi sevdirmək olduqca məsuliyyətli işdir: "Bilirsinizmi, istənilən peşə, sənət ilk addımlardan başlayır. İlk addım necə atılırsa, sona qədər də o cür davam edir. Ona görə də işimizə məsuliyyətlə yanaşırıq. Çalışırıq ki, gələcək həyatını musiqiyə, rəqsə bağlayacaq uşaqlara bu sənəti dərindən aşılayaq, bütün hərəkətləri musiqi ritmlərinin tələblərinə uyğun öyrədək. Elə olsun ki, onlar gələcəkdə iştirakçıları olacaqları rəqs yarışmalarında, müxtəlif festivallarda heç bir səhvə, qüsura yol vermədən çıxış etsinlər, qalib olsunlar, rəqslərimizi sevə-sevə mənimsəsinlər.

Qısa söhbətdən sonra Vurğun Abaszadənin ömür və yaradıcılıq yolu ilə yaxından tanış olduq. Öyrəndik ki, o, 28 iyun 1986-cı ildə Bakıda dünyaya göz açıb. Kiçik yaşlarından musiqiyə, rəqsə maraq göstərib. Özü də hiss etmədən musiqi qanına, canına hopub. Rəqsə, musiqiyə olan maraq 7 yaşında - 1993-cü ildə onu dövrünün ən məşhur rəqs ansamblı olan, şöhrəti dünyanı dolaşan "Cücələrim"ə gətirib. Yaşı az olsa da, bacarığı ilə müəllimlərinin diqqətini cəlb edib. Çalışqanlığını, bacarığını nəzərə alaraq onu rəqs ansamblına üzv qəbul ediblər. Bu inamlı addımı ilə Vurğun kiçik yaşlarından ilk uğurunu qazanıb. 1997-ci ildə ona "Cücələrim" rəqs ansamblının tərkibində Türkiyədə keçirilən "Koç" festivalında iştirak etmək nəsib olub. Həmin festival günlərində ansamblın üzvləri Türkiyənin ozamankı baş naziri Süleyman Dəmirəllə görüşüblər. 2001-ci ildə isə o, İraqda keçirilən "Babylon" festivalında iştirak edib. Arxada qalmış illər ərzində Vurğun dünyanın bir çox ölkəsində müxtəlif festival və tədbirdə ölkəmizi uğurla təmsil edib. Bu səfərlərin birində Fransa Prezidenti Jak Şirakla da görüşüblər. "Cücələrim"in çıxışlarına heyran qalan J.Şirak onların ünvanına xoş sözlər söyləyib.

Vurğun Abaszadəyə 1998-1999 və 2000-ci illərdə ölkəmizdə UNESCO-nun Azərbaycan Dövlət Akademik Musiqili Teatrında keçirdiyi festivalların birində Heydər Əliyevlə də görüşmək nəsib olub. Həmin görüş onun yaddaşında dərin iz





buraxıb. Söhbət zamanı Vurğun o günləri belə xatırlayır: "Festivalda ölkəmizi layiqincə təmsil etdik. Tədbir başa çatandan sonra Ümummilli Lider səhnənin arxasına gələrək bizimlə görüşüb maraqlı, yaddaqalan çıxışımıza görə minnətdarlığını bildirdi. Gələcək festival və yarışlarda bizə uğurlar arzuladı, həmişə, hər yerdə Azərbaycanı layiqincə təmsil etməyi tövsiyə etdi. Ulu Öndərlə olan bu görüş, onun bizi təbrik etməsi, bizə məsləhət verməsi, uğurlar arzulaması hamımıza qol-qanad verdi".

Musiqi sahəsindəki təhsilini artırmaq üçün Vurğun Abaszadə 2000-ci ildə Bakı Xoreoqrafiya Məktəbinə qəbul olub. Bu təhsil ocağında musiqinin, rəqsin sirlərinə daha da dərindən yiyələnib, peşəkarlığını, bacarığını daha da təkmilləşdirib.

Musiqi ilə yanaşı, Vurğun Abaszadə 2004-2013-cü illərdə Milli Aviasiya Akademiyasında da oxuyub. Bu ali təhsil ocağında uçuşlara avtomatlaşdırılmış nəzarət sistemlərinin istismarı ixtisasına yiyələnib. Amma bu da onun bioqrafiyasındakı maraqlı səhifələrin hamısı deyil. Bacarıqlı rəqqas, ürəyi musiqinin ritmi ilə döyünən Vurğun Abaszadə 2011-2016-cı illərdə ABŞ-də fəaliyyət göstərən "Günaz-TV" telekanalında işləyib. Burada üzərinə böyük məsuliyyət düşüb. Vurğun televiziyada rəqs verilişinin aparıcısı olub. Həmişə ruhumuzu oxşayan rəqs havalarımızı, musiqimizi böyük ürəklə, sonsuz sevgi ilə dünyaya yayıb. Bu işdə böyük zövqlə, sonsuz sevgi ilə çalışıb. Hər şeydən əvvəl isə bunu özünə vətəndaşlıq borcu hesab edib.

Bütün şərəfli həyatını musiqiyə, rəqslərimizin dünyada təbliğinə, tanınmasına həsr etmiş Vurğun Abaszadə 2015-2019-cu illərdə Gürcüstan, Bolqarıstan, Qətər və digər ölkələrdə master-klass dərsləri keçib. Bunlarla yanaşı, ölkəmizdə bir sıra festival və yarışların təşkilində yaxından iştirak edib. 2018-2019-cu illər ərzində İran İslam Respublikasının Urmiya, Maku, Xoy, Təbriz və Tehran şəhərlərində Azərbaycan mədəniyyətinin təbliği ilə məşğul olub. Musiqimizi, rəqs havalarımızı təbliğ edə-edə sevdirib, ölkəmizi dünyaya tanıtdırıb. 2024-cü ildə Serbiya, Albaniya, Rumıniya və Moldovada keçirilən festival və yarışlara münsiflər heyətinin üzvü kimi qatılıb. Bu məsuliyyətli işin də öhdəsindən bacarıqla gəlib. Həmişə haqq-ədalətin tərəfində dayanaraq iştirakçıların bacarıqlarını, peşəkarlıqlarını layiqincə qiymətləndirib.

Söhbət zamanı onu da öyrəndik ki, Vurğun Abaszadə həm də 44 günlük Vətən müharibəsinin iştirakçısıdır. Deyir ki, torpaqlarımızın uzun illər erməni işğalında qalması bir vətəndaş kimi onu çox narahat edirdi: "Xalqımıza qarşı Xocalı və başqa dəhşətli soyqırımlar törətmiş erməni separatçılarına qarşı nifrətim sonsuz idi. Ürəyim qisas hissi ilə döyünürdü. Nəyin bahasına olursa olsun, torpaqlarımız işğaldan azad olunmalı, düşmənlərdən şəhidlərin qisası alınmalıydı. Bir vətəndaş kimi bu amalla, bu arzuyla yaşayırdım. Vətən müharibəsi başlayanda artıq yurdumuzun azadlığı uğrunda vuruşmağın zamanının gəldiyini bildim. Elə ertəsi gün könüllü olaraq müharibəyə yollandım. İlk döyüşümüz Füzuli rayonunun kəndləri uğrunda oldu. Düşmən illərdən bəri möhkəmləndiyi mövqelərdən geri çəkilmək istəmir, ciddi müqavimət göstərirdi. Bizim də bir yerdə çox dayanmaq fikrimiz yox idi. Nəyin bahasına olursa olsun qəsbkarları uzun zamandan bəri əllərində saxladıqları və möhkəmləndikləri mövqelərdən vurub çıxartmalıydıq. Nəhayət, aramsız və güclü əks-hücumlarımız nəticə verdi. Çox keçmədi ki, düşmənin "alınmaz qala"sı hesab olunan ön xətti yarıldı. Yağılar qarşımızda çox dayana bilməyib geriyə qaçmağa başladılar. Beləcə, həmin günlərdə Zəfərimizin ilk kərpicləri qoyuldu".

Cəsur döyüşçü söhbətinə davam edərək dedi ki, bir müddətdən sonra onları Cəbrayıl rayonuna gətirdilər: "Həmin günlər bu istiqamətdə də gərgin döyüşlər gedirdi. Düşmən tutduğu əlverişli mövqelərdən, yüksəkliklərdən geri çəkilmək istəmirdi. Amma qəsbkarların istəməsi ilə deyildi. Biz yağıların üzərində zəfər qazanmaq, torpaqlarımızı azad etmək, şəhidlərimizin qisasını almaq üçün cəsarətlə vuruşurduq. Çox keçmədi ki, Füzuli və Cəbrayıl erməni işğalçılarından azad olundu. Artıq qanlı döyüşlər Qubadlı uğrunda gedirdi. Düşmənlərin kənd və qəsəbələrimizi vəhşicəsinə darmadağın etməsi işğalçılara olan nifrətimizi daha da artırırdı. Hər gün qəsbkarları illərdən bəri işğal etdikləri yaşayış məntəqələrindən qovub çıxarırdıq. Oktyabrın 25-də Qubadlı şəhərini azad etdik. Amma silahlar susmurdu, döyüşlər bir dəqiqə də olsun dayanmırdı. Güclü əks-hücumlarla düşməni geri sıxışdırır, torpaqlarımızı əsarətdən qurtarırdıq. Noyabrın 8-də Şuşanın azad edilməsi xəbərini eşidəndə sanki dünyanı bizə bağışladılar. Artıq ermənilər gücdən düşmüşdülər, müqavimət göstərməyə halları qalmamışdı. Həm canlı qüvvə, həm də döyüş texnikası sarıdan ağır itkilər vermişdilər. Buna görə də işğalçılar iki gündən sonra təslimçilik aktına imza atdılar. 44 günlük Vətən müharibəsi sıralarında vuruşduğum Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdı. Müharibədən doğmalarımızın, əzizlərimizin yanına alnıaçıq, başıuca qayıtdıq".

Göstərdiyi igidliyə və cəsarətə görə Vurğun Abaszadə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Vətən uğrunda" medallarına layiq görülüb. Bu gün o, 2006-cı ildən başladığı müəllim-xoreoqraf və bədii rəhbər kimi fəaliyyətini davam etdirir. Böyük həvəslə gələcəyimiz olan uşaqlara rəqs öyrədir.

Yenə də qarşısında dayandığımız böyük salondan bir-birindən oynaq musiqi sədaları eşidilir. Yenə də sabahımız olan körpələr müəllimləri Vurğun Abaszadənin rəhbərliyi altında rəqs edir, böyük həvəslə qarşıdakı yarışlara, festivallara hazırlaşırlar.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Azərbaycan muzeylərinin yaddaqalan eksponatları: **dəvələr üçün baş bəzəyi**

**"Azərbaycan muzeylərinin nadir eksponatları" silsiləsindən materiallar çərçivəsində AZƏRTAC oxucuları ölkəmizin muzey kolleksiyalarının unikal nümunələri ilə tanış etməkdə davam edir. Bu dəfə agentlik Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasına daxil olan dəvə qoşqusu üçün iki bəzək əşyası haqqında məlumat verir.**

Dəvələr uzunmüddət ərzində Azərbaycan tarixində xüsusi yer tutub. Nadir hallarda rast gəlinsə də, Qobustanda onların qayaüstü təsvirləri aşkar edilib. Hələ qədim dövrlərdə Azərbaycanın aran bölgələrində dəvəçilik inkişaf etmişdi. Bu heyvanlar indiki Abşeron, Beyləqan, Bərdə və Biləsuvar ərazilərində saxlanılırdı. Dəvələr həm minik, həm də qoşqu vasitəsi kimi istifadə olunurdu, onlarla yüklər, o cümlədən neft, pambıq, balıq, su və s. daşınırdı. "Səhra gəmiləri" bəzən minlərlə kilometr məsafəni qət edirdilər. Xüsusilə, duz və neft daşınmasında dəvələrin rolu böyük idi, belə ki, bunlar Bakının əsas ixrac məhsulları idi.

O dövrdə Azərbaycan şəhərlərində dəvə karvanlarının küçələrdən keçməsi o qədər adi hal idi ki, heç kəsi təəccübləndirmirdi. Çünki ölkə Böyük İpək yolunun üzərində yerləşdiyindən hər tərəfi karvan yolları kəsib keçirdi. Alış-veriş üçün gələn tacirlərin çoxu bir neçə dəvəyə, bəziləri isə bütöv dəvə karvanlarına sahib olurdu.

Dəvələr xalq şənliklərinin və mərasimlərin də bir hissəsinə çevrilirdi. Xüsusilə Novruz bayramı günlərində. Dəvələri bəzəyib onları təmtəraqlı və əzəmətli göstərmək ənənəsinə bu gün də rast gəlinir. Qeyd etmək lazımdır ki, ərəbcə dəvə və gözəllik sözləri eyni kökdən yaranır.

Bayram günlərində dəvə xüsusi örtüklə bəzədilir, üzərindəki dəlik isə dəvənin güvənindən keçirdi. Güvənin özünü "kapan"la bürüyür, üst hissəsinə "cahaz" və örtük salınır, bütün bunlar isə "örkən" kəndiri ilə bağlanırdı. Heyvanın başı da diqqətdən kənarda qalmırdı. Bu gün də Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasında qorunan, gözoxşayan işlənmə tərzi ilə seçilən dəvələr üçün baş bəzəkləri ilə tanış olmaq mümkündür.

Birinci eksponat XIX əsrin sonlarına aiddir. Ölçüləri 41x53 sm-dir. Əsas hissəsi arğacdan toxunub, naxışverici sapı yundandır. Toxuma, dolaşdırma və qurama üsulu ilə işlənib hazırlanıb.

İkinci eksponat isə XX əsrin əvvəllərində hazırlanıb. Ölçüləri 37x80 sm olan bu nümunənin hazırlanmasında yun, at tükü, dəri, şüşə və kauri sədəflərdən istifadə olunub. Bəzək dolaşdırma və hörmə üsulu ilə hazırlanıb.

Şirvan və Qarabağda XIX əsrin sonu, XX əsrin əvvəllərində toxunmuş nümunələr də var. Onlar keçə, parça və cecimdən hazırlanıb, üzəri kauri sədəfləri, kiçik güzgülər, xırda metal lövhəciklərlə bəzədilib. İnanclara görə, belə bəzəklər pis qüvvələrdən qoruyucu rol oynayırdı.



Ümumilikdə, dəvələrin bəzədilməsi onların səhrada etibarlı köməkçi kimi dəyərini, xalq inanclarındakı xüsusi yerini və dərin mədəni əhəmiyyətini əks etdirir.




# Azərbaycanda futbol bayramı olacaq

## Bakı U-20 üzrə dünya çempionatını qəbul edəcək

**Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan həm də mötəbər tədbirlərin keçirilməsi üçün ideal məkan hesab olunur. Çünki qədimliklə müasirliyin qovuşduğu "Odlar yurdu" mühüm təşəbbüslərlə çıxış edir.**




Ümumiyyətlə, beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malikdir. Təşkilatçılıq, təhlükəsizlik, iqtisadi və kommunikasiya imkanları hər zaman həlledici rola malikdir. Azərbaycanın dünyada etibarlı tərəfdaş, dünyəvi ölkə, güclü iqtisadiyyata, sabit və təhlükəsizliyə malik olması belə tədbirlərə evsahibliyi etməsi imkanlarını artırır və o, bir çox hallarda digər ölkələrlə rəqabətdə üstünlüyə sahib olur.

Bununla bərabər, Azərbaycan nəinki beynəlxalq idman yarışlarının keçirildiyi məkan, hətta bu yarışlarda yeni standartlar müəyyənləşdirən ölkədir. "Bakı-2015" ilk Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, XV Avropa Gənclər Olimpiya Festivalının, "Formula-1" yarışlarının, futbol üzrə Avropa çempionatının final mərhələsinin 4 qarşılaşmasının, UEFA Avropa Liqasının finalının, minifutbol üzrə dünya çempionatının, III MDB Oyunlarının və müxtəlif idman növləri üzrə təşkil olunan dünya və qitə birinciliklərinin Azərbaycana həvalə edilməsi son illər bu sahədə görülən işlərə verilən ən yüksək qiymətdir.

Hazırda isə idman ölkəsinə daha bir nüfuzlu yarış həvalə edilib. Belə ki, bu günlərdə FIFA-nın İcraiyyə Komitəsinin iclasında açıqlanan qərara əsasən, Azərbaycan Özbəkistanla birgə 2027-ci ildə keçiriləcək 20 yaşadək futbolçulardan ibarət milli komandalar arasında dünya çempionatının final mərhələsinə evsahibliyi edəcək.

1977-ci ildən etibarən iki ildən bir təşkil edilən U-20 dünya çempionatının 25-cisi futbol tarixində ilk dəfə kişilərin yarışı Azərbaycanda keçiriləcək. Həmçinin ilk dəfə Azərbaycanın kişilərdən ibarət milli komandası dünya çempionatının final mərhələsində iştirak edəcək. İndiyə qədər Argentina 6, Braziliya 5 dəfə dünya çempionu olub. Portuqaliya və Serbiya hərəyə 2 dəfə mundialın qalibi olublarsa, Uruqvay, Qana, İspaniya, Rusiya, Almaniya, İngiltərə, Fransa və Ukrayna hərəyə 1 dəfə kuboku qazanıblar.

Avropanın nəhəng klubları kifayət qədər böyük nüfuza malik olan U-20-lərin dünya çempionatlarından saysız-hesabsız istedadlı futbolçular kəşf ediblər. Hazırda Çilidə keçirilən 24-cü dünya çempionatında 24 komanda 6 qrupda mübarizə aparır. 2023-cü ildə Argentinada təşkil olunan son turnirin qalibi isə Uruqvay yığması olub.

Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycanın beynəlxalq yarışlara evsahibliyi etməsində iqtisadi nailiyyətlərimiz də əsas rol oynayır. Bu gün Azərbaycan artıq dünyada yüksək templərlə inkişaf edən bir ölkəyə çevrilib. Belə tədbirlərin keçirilməsi isə Azərbaycana həm iqtisadi, həm də strateji baxımdan böyük fayda gətirir. Etibarlı tərəfdaş kimi tanınması ölkəyə investisiyaların axmasına, əməkdaşlığa açıq olması isə ölkəyə yeni texnologiyaların gəlməsinə səbəb olur.

Yarışlar ölkəmizə milyardlarla investisiyaların, milyonlarla turistin axınına yol açır. Belə beynəlxalq tədbirlərin keçirilməsi, hər hansı bir kompaniyanın və ya onun istehsal etdiyi məhsulun yalnız reklam olunması demək deyil, bütövlükdə Azərbaycanın dünyaya geniş təqdimatıdır ki, bunun da nəticəsində ölkəmiz gələcək iqtisadi perspektivlərini müəyyənləşdirir, xarici investorların və böyük turist kütləsinin diqqətini cəlb edir.

Yekunda nümunə olaraq qeyd etmək istərdik ki, bu ilin mayında Bakıda keçirilən minifutbol üzrə mundiala hazırlıq, püşkatma mərasiminin yüksək səviyyədə təşkilindən açılış mərasiminədək işlərin sürətlə həyata keçirilməsi göstərdi ki, təşkilat komitəsi hazırlıq işlərini göstərilən vaxtda yüksək səviyyədə başa çatdırmaqla misli görünməmiş bir uğura imza atıb. Eləcə də, iki il sonra Azərbaycanda təşkil ediləcək mundiala da hazırlığın ən yüksək səviyyədə olacağına şübhə yoxdur.

Qalır milli komandamızın uğurla çıxış etməsi...

Uğurlar, Azərbaycan!

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*
## *2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



# Bilmək istəyirəm

*Mən öz ərizəmlə işdən çıxmışam. Bu halda işsizlik müavinəti almaq hüququm varmı?*

***Sevinc QƏDİMOVA, Qobustan rayonu***

- Sualınıza cavab olaraq bildiririk ki, öz ərizəsi ilə işdən çıxan şəxsə işsizlikdən sığorta ödənişi verilməsi qanunla nəzərdə tutulmur.

İşsizlikdən sığorta ödənişi yalnız əmək münasibətlərinə "İşsizlikdən sığorta haqqında" Qanunun 13.1-ci maddəsində göstərilən aşağıdakı əsaslarla xitam verilmiş və "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq işsiz kimi qeydiyyata alınmış şəxslərə şamil edilir:

- dövlət orqanı və ya hüquqi şəxs ləğv edildikdə ("Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33.1.2-ci maddəsinə və ya Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin a) bəndi);
- işçilərin və ya dövlət qulluqçularının sayı və ya ştatları ixtisar edildikdə ("Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33.1.3-cü maddəsinə və ya Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin b) bəndi);
- əmək müqaviləsinin müddəti qurtardıqda (Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin b) bəndinə, 73-cü maddəsinin 1-ci və ya 2-ci hissəsi);
- müəssisənin mülkiyyətçisi dəyişdikdə (Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin ç) bəndi);
- əvvəllər müvafiq işdə (vəzifədə) çalışan işçinin işinə (vəzifəsinə) bərpa edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi (qərarı) olduqda (Azərbaycan Respublikası Əmək Məcəlləsinin 74-cü maddəsinin 1-ci hissəsinin b) bəndi);
- əvvəllər həmin müəssisədə çalışan işçi müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra öz iş yerinə (vəzifəsinə) qayıtmaq hüququndan istifadə etdikdə (Azərbaycan Respublikası Əmək Məcəlləsinin 74-cü maddəsinin 1-ci hissəsinin ə) bəndi).

Öz ərizəsi ilə işdən çıxmaq bu əsaslara daxil deyil və belə şəxslər işsizlikdən sığorta ödənişi almaq hüququna malik deyillər.

*Fərdi yaşayış evimin qarşısında avtomobil saxlamaq üçün yer var. Qonşular daim orada maşınlarını saxlayır. Mən buna qadağa qoya bilərəmmi?*

***Səxavət CƏLİLOV, Xırdalan şəhəri***

- Azərbayan Respublikasının Mənzil və Mülki məcəllələrinin tələbinə görə, fərdi yaşayış evinin qarşısında yerləşən ərazi, əgər həmin torpaq sahəsi ev sahibinin xüsusi mülkiyyətindədirsə və dövlət qeydiyyatına alınmışsa, ev sahibi bu ərazidən istifadə qaydalarını özü müəyyən edə və başqalarının orada avtomobil saxlamasına qadağa qoya bilər. Lakin əgər sözügedən yer ümumi istifadədə olan yol, küçə və ya bələdiyyə mülkiyyətindədirsə, bu halda ev sahibi qonşuların avtomobil saxlamasına qadağa qoymaq hüququna malik deyil. Çünki yaşayış sahəsindən istifadə qonşuların hüquq və qanuni mənafelərinə müdaxilə etməməlidir və ümumi istifadədə olan yerlərdən istifadə qaydaları qanunvericiliklə tənzimlənir. Əgər qonşuların hərəkətləri ev sahibinin hüquqlarını və qanuni mənafelərini pozursa, ev sahibi əvvəlcə xəbərdarlıq etməli, pozuntu davam edərsə, məhkəməyə müraciət edə bilər. Praktikada, torpaq sahəsinin hüquqi statusu (xüsusi mülkiyyət və ya ümumi istifadə) əsas meyardır və bu, dövlət reyestrindən çıxarışla təsdiqlənməlidir.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

## Bazar günü etüdü



# "Sarı gəlin"ə bənzəyən zəmi

*Heyran olduğumuz anamız təbiətin gözəlliyinə baxanlar, bu gözəllikdən zövq alanlar, şirin-şirin xəyallara dalanlar, bənzərsizliyindən doymayanlar onu ən dahi rəssam adlandırıblar. Bu bənzətmə ilə ürəklərindəki arzularını qanadlandırıblar, təbiəti taclandırıblar. Təbiəti göylərin dərinliyinə, asimanın sonsuzluğuna, Aya, Günəşə, ulduzlara doğru hey ucaldıblar.*

*Sanki istəklərinə yetiblər, diləklərinə çatıblar. Sevinclərinə sevinc, fərəhlərinə fərəh, sevgilərinə sevgi qatıblar. Ürəklərindəki dərdi, qəmi birdəfəlik çıxarıb atıblar.*

*Doğrudan da, təbiətdə nə varsa gözəldir, bənzərsizdir, möhtəşəmdir. Başı qarlı uca dağlar, dərin dərələr, yaşıllığa bürünmüş meşələr, uzandıqca uzanıb gedən çöllər, sonu görünməyən düzlər sanki Tanrıdan göndərilmiş çələngdir. Bu meşələrdə, dağlarda, dərələrdə bitən güllər, çiçəklər və müxtəlif rəngli otlar, bitkilər bir-birindən ayrılmazdır, bütövdür, biri o birinin davamıdır.*

*Təbiətin qoynundakı təkrarsız mənzərələrdən biri də taxıl zəmiləridir. Yolumuz yaxınlığından düşəndə bir anlıq ayaq saxlayıb baxmadan keçib getmək olmur. Bu bənzərsiz mənzərənin gözəlliyinə baxmaqdan doymaq olmur. Baxdıqca baxır, zövq aldıqca alırıq.*

*Əkiləndən bir neçə gün sonra cücərib torpaqdan baş qaldıran zəmi sanki gözlərini süzə-süzə üzümüzə gülür. Yamyaşıl nazik gövdələr əsgər kimi bir-birinin yanında sıraya düzülür. Elə bil asta-asta dan yeri sökülür, qaranlıqlar işıqdan qorxub geri çəkilir. O anlar gözümüzdən yanaqlarımıza sevinc süzülür. Göydən yer üzünə şırıl-şırıl nur tökülür.*

*İlk çağlarında, torpaqdan təzə boylanan kövrək vaxtlarında taxıl zəmiləri təbiətin yaşıl xalısına bənzəyir. Bir az nazlı-qəmzəli, işvəli, ədalı görünür. Küləklər göz işlədikcə uzanıb gedən taxıl sahələrinin üstünə əlini çəkib onu sığallayır, tumarlayır, sanki çala-çökək yerlərini asta-asta, usta-usta bir az hamarlayır. Elə bil zəmilərə sevinc paylayır.*

*Külək yaşıl gövdələrini asta-asta tərpədəndə, tellərini oxşayanda sanırsan ki, zəmi sanki dalğalı bir dənizdir - bərəkət dənizi. Bəli, zəmi bərəkətdir, çörəkdir. Zəmi həyatdır, bolluqdur, müqəddəsdir.*

*Günlər keçdikcə, havalar isindikcə, yavaş-yavaş, hiss olunmadan nazik gövdələrdəki sünbüllərin içində dənlər sıraya düzülür. Elə bil divara xırda-xırda daşlar hörülür. Vaxt gəlir ki, buğda yetişəndə, biçinə az qalanda zəmi yavaş-yavaş, hiss olunmadan yaşıllığı ilə vidalaşıb sarı rəngə bürünür. Bu rəngdə zəmi əvvəlkindən də qəşəng görünür. İndi külək də onun üstündəki dəni qoparıb yerə salmamaq üçün asta əsir.*

*Bu rəngdə zəmi sarı gəlinə bənzəyir. Günlər asta-asta keçdikcə, zaman irəli dartındıqca biçinə az qalır. Məhsul bol olanda insanların üzü gülür. Sanki anamız təbiət həmin günlər fikrə gedir, xəyala dalır. Sanki dünya bir yaş da qocalır, insan bir yaş da ucalır.*

*Vaxt gəlir, zaman yetişir sarı gəlinə bənzəyən zəmi biçilir. Həmin günlər sevinc sevincə qarışır, ürəklərdə arzular aşıb-daşır. Fərəh-fərəhlə, arzu-arzuyla, istək-istəklə şirin-şirin pıçıldaşır, danışır. İnsanlara çörək verdiyinə görə torpağın üzü gülür. Bundan sevinən buldular da bir müddət yağış yağdırmır, göydən çəkilir.*

*Çox keçmir ki, zəminin yeri yenidən şumlanır, torpaq tumarlanır, hamarlanır sonra da toxum səpilir. Torpaqdan güc alıb buğdadan çıxan zərif gövdəli sünbül sabahlara boylanır. Deməli, həyat davam edir.*

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

# Milli qəhrəmanlar haqqında videoçarxlar hazırlanır

**Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında həyata keçirilən "Milli qəhrəmanlarımız" layihəsi çərçivəsində 2025-ci ildə yubileyləri olan Milli qəhrəmanlar haqqında silsilə videoçarxlar hazırlanır.**

MKS-dən AZƏRTAC-a bildirilib ki, 2025-ci ilin sonuncu 7-ci videoçarxı Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin şəhidlər və qəhrəmanlıq haqqında sitatları ilə başlayır. Videoçarxda Milli qəhrəmanlar Niyazi Aslanovun, Gültəkin Əsgərovanın, Eldar Həsənovun, Yuri Kovalyovun, Füzuli Rüstəmovun, İbad Hüseynovun, Eltun İsgəndərovun gənclərə örnək şərəfli ömür yolu, göstərdikləri qəhrəmanlıqlar, təltifləri və xatirələri haqqında məlumatlar verilir. Süjetdə Milli qəhrəmanlardan altı nəfər Birinci Qarabağ müharibəsində, 1 nəfər sərhəd pozucuları ilə döyüş (2009) zamanı qəhrəmanlıq göstərib.




# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı Ağalar Vəliyev Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə anası

**TÜKƏZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və Rüfət Səfərəliyev

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının sabiq səhiyyə naziri, professor

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Əməkdar elm xadimi Vaqif Şadlinski və ailəsi sabiq səhiyyə naziri

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi sabiq səhiyyə naziri, professor

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4095
Sifariş 2007

Qiyməti 60 qəpik